ISSN 2521-1331

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Milli Müdafiə Universiteti

REPUBLIC OF AZERBAIJAN
MINISTRY OF DEFENCE
NATIONAL DEFENCE UNIVERSITY

MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR

Elmi-praktik jurnal

NATIONAL SECURITY AND MILITARY SCIENCES

Scientific-practical journal

№ 2(10)/2024

ISSN 2521-1331

Azərbaycan Respublikası Müdafiə Nazirliyi
Milli Müdafiə Universiteti

MİLLİ TƏHLÜKƏSİZLİK VƏ HƏRBİ ELMLƏR

Elmi-praktik jurnal

Cild 10, №2, 2024

Ministry of Defence of the Republic of Azerbaijan
National Defence University

NATIONAL SECURITY AND MILITARY SCIENCES

Scientific-practical journal

Volume 10, №2, 2024

"Milli təhlükəsizlik və hərbi elmlər" jurnalında verilmiş materiallardan istifadə zamanı mütləq jurnala istinad edilməlidir.

Jurnal 09.07.2015-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınıb. Qeydiyyat nömrəsi: 3991.

"Milli təhlükəsizlik və hərbi elmlər" jurnalı elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

Təsisçi: Milli Müdafiə Universiteti
www.mmu.edu.az
AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, "Qırmızı Şərq" hərbi şəhərciyi, Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu.
mmu-heti@mod.gov.az

While using any kind of material given in "National security and military science" you should refer to the journal.

The journal was registered on 09.07.2015 in the Ministry of Justice of the Republic of Azerbaijan. Registration Number: 3991.

"National security and military sciences" journal has been included in the list of recommended publications by Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the publication of main theses of scientific researches.

Founder: National Defence University
www.mmu.edu.az
AZ1065, Republic of Azerbaijan, Baku, Yasamal district, "Girmizi Sherg" military settlement, National Defence University, Military Scientific Research Institute.
mmu-heti@mod.gov.az

Editorial board members

International editorial board members

MÜNDƏRİCAT

CONTENTS

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 9-21
HƏRBİ NƏZƏRİ ELMLƏR ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359 DOI: 10.30546/9878.2024.2.10.009.

GƏLƏCƏK MÜHARİBƏLƏRİN XARAKTERİ

m.t.h.e.ü.f.d., professor Heydər Piriyev
Milli Müdafiə Universiteti

m.t.h.e.ü.f.d., dosent, general-mayor Arif Həsənov
https://orcid.org/0000-0002-8814-1590
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
arif.h.hasanov@gmail.com

m.t.h.e.ü.f.d., polkovnik Rəşad Tahirov
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
rashad_tahirov1975@yahoo.com

Xülasə. Bugünün hərbi-siyasi reallıqları ölkənin milli təhlükəsizliyini təmin etmək məqsədilə Silahlı Qüvvələrin hər an gələcəkdə baş verə biləcək müharibələrə hazır olmasını tələb edir. Çünki keçmişdə olduğu kimi, hərbi qarşıdurmalara səbəb olan təbii sərvətlər uğrunda mübarizə, dövlətlərarası rəqabət, hegemonluq istəyi, həmçinin ideoloji fərqlər və təhlükəsizlik qayğıları gələcəkdə də davam edəcək. Bununla yanaşı, texnologiya sahəsində əldə edilən və gözlənilən sürətli inkişaf ənənəvi döyüş forma və üsullarını əhəmiyyətli dərəcədə dəyişmişdir. Belə ki, gələcək müharibələrdə hadisələr, o cümlədən döyüş fəaliyyətləri daha sürətlə cərəyan edəcək, məlumat mübadiləsi vəziyyəti tez-tez dəyişəcək, zərbələr qısamüddətli, lakin dəqiq və dağıdıcı olacaqdır. Əvvəlki müharibələrdə hərbi əməliyyatların məqsədlərinə nail olmaqda əsas rol oynayan, düşmənlə bilavasitə təmas tələb edən hücum və müdafiə kimi ənənəvi döyüş növləri əhəmiyyətini itirəcək, döyüşün yeni üsul və formaları yaranacaqdır. Bu forma və üsulların Silahlı Qüvvələrdə öyrənilməsi və məharətlə tətbiqi gələcək müharibələrdə uğur qazanmağın əsas şərtlərindən biri olacaqdır. Gələcək müharibələrin xarakterinin öyrənilməsi, hərbi əməliyyatların üsul və formalarının proqnozlaşdırılması üçün məqalədə elmi-texniki sahədə baş verən və gözlənilən dəyişikliklər təhlil edilərək, onların hərb işinə təsiri araşdırılır. Bundan başqa, məqalənin əvvəlində müharibənin xarakterini daha yaxşı anlamaq məqsədilə onun səbəbləri nəzərdən keçirilir.

Açar sözlər*:* müharibə, siyasi, sülh, münaqişə, ziddiyyət, strategiya, hibrid

Giriş

Müharibə haqqında ilk məlumat təxminən 5000 il bundan əvvəl qeydə alınmışdır və bu günə qədər bəşər tarixinin bir hissəsi olaraq qalmaqdadır. Tarixi hadisələr göstərir ki, heç bir nəsil və ölkə müharibə təhlükəsindən sığortalanmayıb və bu təhlükə dünyanın ən aktual problemlərindən biridir. Ümumilikdə müharibə insanların dincliyini pozan, həyat səviyyəsini aşağı salan və cəmiyyətdə köklü dəyişikliklərə səbəb olan neqativ fenomendir. Çünki müharibələr döyüş, silahlanma, ölüm, əzab-əziyyət və dağıntılar deməkdir. Bununla belə bəzi tədqiqatçılar tərəfindən müharibələrin ölkənin inkişafında müsbət rol oynadığı da qeyd edilir. Belə ki, müharibələr yeni texnologiyaların inkişafını sürətləndirərək, iqtisadi artımı və yeni iş yerlərinin açılmasını stimullaşdırır. Məsələn, İkinci Dünya müharibəsindən sonra ağır sənayedə çalışan həm qadın, həm də əcnəbi vətəndaşların sayı əhəmiyyətli dərəcədə artmışdır. Müharibə ölkənin vətəndaşlarını ümumi düşmənə qarşı birləşdirərək, milli özünüdərkə və oyanışa səbəb olur. Bundan başqa, hərbi əməliyyatlarda silahlı qüvvələr müəyyən döyüş təcrübəsi əldə edir. Lakin müharibənin mənfi cəhətləri və ölkələrə vurduğu ziyan daha çoxdur və bu səbəbdən arzuolunmazdır.

Müharibələr müasir dünyada arzuolunmaz olsa da, beynəlxalq münasibətlər sistemində meydana gələn qarşıdurmaların həll edilməsində hərbi gücün istifadəsi vacib rol oynayır. Beynəlxalq hüquq normalarına baxmayaraq, bəzi dövlətlər müxtəlif bəhanələr gətirərək, başqa dövlətin ərazi bütövlüyü və siyasi müstəqilliyi əleyhinə güc tətbiq etməkdən çəkinmirlər. Fikrimizcə, bu tendensiya gələcəkdə də

davam edəcək. Beləliklə, ölkənin indiki və gələcək dünyada müstəqil bir subyekt kimi mövcudluğu, ərazi bütövlüyünün və maraqlarının mümkün təhlükələrdən qoruya bilməsi böyük ölçüdə silahlı münaqişələrə hazır olmasından asılıdır. Bu isə həm keçmişdə, həm də hazırda cərəyan edən müharibələrin təhlil edilərək, gələcək hərbi əməliyyatların forma və üsullarının proqnozlaşdırılmasını şərtləndirir.

Müharibələrin təhlili və proqnozlaşdırılmasında inkişaf etmiş dövlətlərin təcrübəsinin, hərbi əməliyyatlarda əldə etdikləri uğurların, habelə uğursuzluqların səbəblərinin öyrənilməsi vacibdir. Bununla belə keçmiş təcrübələrin dərindən təhlil edilmədən birəbir təqlidi eyni səhvlərin təkrarlanması, yaxud məğlubiyyət ilə nəticələnir. İkinci Dünya müharibəsində silah və texnika baxımdan güclü olan Fransanın qısa müddətdə Almaniya qarşısında məğlubiyyətə uğramasının səbəbi, məhz hərbi doktrinalarında texniki yeniliklərin nəzərə alınmaması və Birinci Dünya müharibəsinin döyüş forma, üsul və qaydalarına bağlı qalmasıdır [1]. 44 günlük Vətən müharibəsi ərəfəsində Ermənistanın siyasi və hərbi rəhbərləri də oxşar səhvə yol verdilər. Bunları nəzərə alaraq hesab edirik ki, dövrün elmi-texniki tərəqqisi ilə sıx bağlı olan döyüşün yeni forma və üsullarının effektiv tətbiqi müharibədə uğur əldə etmənin ən əsas şərtlərindəndir. Məhz bu səbəbdən döyüşün yeni forma və üsullarının öyrənilməsi və gələcək müharibələrin xüsusiyyətlərinin proqnozlaşdırılması hərb elmində ən aktual problemdir.

Qeyd edildiyi kimi, elm və texnologiyanın inkişafı müharibələrin xarakterinə böyük ölçüdə təsir edir. Məsələn, barıtın ixtirası nəticəsində meydana gələn top, tüfəng, tapança, avtomat və pulemyot kimi odlu silahlar hərb işində inqilaba səbəb olmuş, müharibənin, eləcə də döyüşün forma və üsullarını əhəmiyyətli dərəcədə dəyişmişdir [2]. Oxşar qaydada buxar maşınlarının və daxili yanma mühərriklərinin kəşfi sayəsində meydana gələn qatar, tank, təyyarə və yeni növ gəmilər müharibənin sürət və dərinliyini artırmaqla yanaşı, əhatə dairəsini də genişlədirdi. Nüvə fizikasının inkişafı, nüvə energetikasının yaranmasına təkan verməklə, böyük dağıdıcı qüvvəyə malik olan və bununla da müharibənin yeni qanun və prinsiplərini ortaya qoyan nüvə silahının kəşfinə apardı. Qeyri-səlis məntiq nəzəriyyəsi mürəkkəb və qarışıq mühitdə qərar qəbuletmə imkanına malik, həmçinin müxtəlif əməliyyatları insan müdaxiləsi olmadan yerinə yetirən süni zəkanın inkişafına təkan verdi. Nəticədə yarıavtonom idarəedilən silah sistemləri meydana gəldi. Bu istiqamətdə davam edən araşdırma və aparılan sınaqlar avtonom idarəedilən silah və texnikaların yaxın gələcəkdə döyüşlərdə tətbiq olunacağını göstərir.

Beləliklə, elmi-texniki tərəqqi istisnasız olaraq, insan fəaliyyətinin bütün sahələri kimi, müharibənin də üsul və formalarının inkişafına nəzərəçarpan təsir göstərir. Gələcəkdə də hərbi əməliyyatların məzmun və tipologiyası, strategiya və taktikası, silahlı birləşmələrin tətbiqinin forma və üsulları elmi-texniki tərəqqinin, əsasən, süni zəka, biotexnologiya, nanotexnologiya kimi sahələrdə baş verən sürətli inkişafın təsiri altında formalaşacaqdır.

Müharibənin səbəbləri

Təhlillər bəşər tarixinin sadəcə 8 faizində sülh dövrü olduğunu göstərmişdir [3]. Bununla belə, müharibənin, yaxud silahlı münaqişənin başlanma səbəbləri müxtəlif vaxtlarda fərqli olmuşdur. Bəzi tədqiqatçılar iddia edir ki, müharibə iqtisadi, dini və siyasi səbəblərə görə yaranır. Digərləri isə günümüzdə əksər müharibələrin ideoloji səbəblərə görə aparıldığını düşünürlər. Ümumi olaraq, müharibələrin başlanma səbəbləri iki yanaşma altında qruplaşdırılır: ənənəvi və müasir nəzəriyyələr [4]. Ənənəvi nəzəriyyəyə görə müharibənin başlanma səbəbi müxtəlif millətlər, dövlətlər, cəmiyyətlər, həmçinin etnik və dini qruplar arasında mövcud olan sosial və iqtisadi tarazlığın pozulmasıdır. Tarazlığın pozulması nəticəsində meydana gələn qarşıdurma isə dövlətləri şiddət tətbiq etməyə aparır. Bu nəzəriyyənin tərəfdarları hesab edirlər ki, müharibə insanın təbiətinə xas olan şiddətin təzahürüdür. Bunlardan XVII əsrdə yaşamış böyük filosof Tomas Hobzun "Leviathan" əsərinə görə, ehtiyacları və maraqları naminə, həmçinin həmin maraqlara təhlükə yarandıqda insan şiddət tətbiq etməyə meyillidir [5]. Dövlət və sosial qruplar müəyyən ərazidə oxşar ehtiyac və maraqlara sahib olan insanlardan formalaşdığı üçün onların istəklərini həyata keçirən bir vasitədirlər. Bu səbəbdən bir dövlət və ya ayrı sosial qrup ehtiyaclarının qarşılanmasına, yaxud maraqlarının həyata keçirilməsinə mane və təhlükə

hesab etdiyi digər dövlət, siyasi, dini, etnik ünsürlərə qarşı şiddət tətbiq etməyə meyillidir. Bu şiddət, artan ehtiyacların qarşılanması, yaxud maraqlarının müdafiəsi üçün qabaqlayıcı və zorakı tədbirlərin görülməsini nəzərdə tutur. Gələcəkdə də müxtəlif səbəblərə görə maraqların toqquşması davam edəcəyi və yeni müharibələrin olacağı proqnozlaşdırılır. Ənənəvi nəzəriyyənin nümayəndələrindən biri olan Yakov Novikovaya görə, bir çox hallarda fərqli etnik, ideoloji və dini qruplar arasında silahlı qarşıdurmalar və müharibələr cəmiyyətdə ətalət qüvvəsi yaradan tarixi səbəblərə görə davam edir və təkrarlanır [4].

Müasir yanaşmaya görə müharibənin meydana gəlməsinin səbəbi subyektlər (dövlət, etnik, dini qruplar və s.) arasında mövcud olan ziddiyyətlərin irrasional (məntiqə sığmayan) yolla həll edilməsidir. Bu yanaşmaya görə ziddiyyətlər hər zaman mövcud olub, lakin bunların çözülməsi və sülhün əldə edilməsi üçün rasional yollar mövcud olduğu halda, bəzən qərarlar emosiya, yaxud instinktə əsaslanaraq qəbul edilir. Məsələn, 44 günlük Vətən müharibəsində məğlub olan və ordusu darmadağın edilən Ermənistanda müharibədən sonra revanşizm hərəkətlərinin baş qaldırması və Azərbaycanla sülh müqaviləsinin bağlamasından boyun qaçırması irrasional və təhlükəli davranışdır. Çünki növbəti dəfə Azərbaycan və Ermənistan arasında müharibə olacağı təqdirdə, sonuncunun çox ağır məğlubiyyətə uğradılaraq, varlığına son qoyulacağına dair fikirlər dünyanın aparıcı hərbi ekspertləri tərəfindən dəfələrlə səsləndirilmişdir. Müharibədən sonra Azərbaycanın Qarabağda apardığı uğurlu antiterror əməliyyatları bunun sübutudur. Ermənistanın rasional davranaraq Azərbaycanla sülh müqaviləsini imzalaması ona regional və beynəlxalq layihələrə qoşulmağa və əlavə gəlir əldə etməyə imkan verəcək. Bu səbəbdən Ermənistanda baş qaldıran revanşizm hərəkətləri başa düşülən (məntiqə sığan) deyil. Müasir yanaşmanın nümayəndələri hesab edirlər ki, geosiyasi ambisiyalar, ölkə daxilində şovinist qüvvələrin təsiri, danışıqlarda və daxili siyasətdə uğursuzluq, böyük dövlətlərin təsir dairəsini genişləndirmək arzusu irrasional düşünmənin və müasir müharibələrin əsas səbəblərindəndir [6].

Yuxarıda göstərilən hər iki səbəb birbaşa insan amili, onun təbiəti, həmçinin fəaliyyətinin nəticəsi ilə bağlıdır. Fikrimizcə, gələcəkdə gözlənilən elmi-texniki inqilab, əsasən, süni zəkanın bir çox sahələrdə insanı əvəz etməsi nəticəsində ölkələrarası müharibə, yaxud silahlı münaqişə üçün səbəb insan iradəsi olmadan da yaranacaqdır. Məsələn, hər hansı bir ölkədə strateji müdafiə sistemlərinə inteqrasiya edilmiş süni zəka tərəfindən digər ölkənin fəaliyyətlərinin səhvən real təhdid kimi qiymətləndirilməsi və qabaqlayıcı zərbə endirmək üçün qərar qəbul etməsi mümkün olan ssenaridir.

Beləliklə, həm ənənəvi, həm də müasir yanaşmaların təhlili göstərir ki, beynəlxalq aləmdə mövcud olan ziddiyyətlərin həll edilməsində şiddətin, o cümlədən hərbi gücün tətbiqi əsas vasitələrdən biri olaraq qalmaqdadır. Fikrimizcə, gələcəkdə iqtisadi, ideoloji ilə müqayisədə etnik zəmində müharibələrin sayında artım olacaqdır. Günümüzdə amerikalı sosioloq və politoloq Samuel Filips Hantinqton "Sivilizasiyaların toqquşması" kitabında qeyd etmişdir ki, fərqli sivilizasiya məxsus millət və qruplar var olduqca, dünyada qarşıdurmalar qaçılmazdır və bu da, öz növbəsində yeni müharibələrin yaranmasına gətirib çıxaracaq [7].

Qeyd edildiyi kimi, bəşər tarixində ictimai quruluşun təkamülü ilə birlikdə müharibənin xüsusiyyətləri də daimi dəyişir. Müharibənin xüsusiyyətləri dedikdə, əsasən, onun başlama səbəbi, gedişi və sonu başa düşülür. Bütün bunlar ölkədaxili və ölkəxarici siyasət, sosial və beynəlxalq münasibətlər sistemi, silah və texnikanın yeni növlərindən asılı olaraq inkişaf edir. İnkişaf nəticəsində dövlətlərarası mübarizənin, o cümlədən döyüşün yeni üsul və formaları meydana gəlir.

Hazırda bio, nano, material, süni zəka və informasiya sahəsində baş verən texnoloji inqilablar bir tərəfdən insanın həyat və sağlamlığına, iş şəraitinin keyfiyyətinə təsir göstərməklə müsbət dəyişikliklərə səbəb olmuş, digər tərəfdən isə dövlətlərarası və ölkə daxilində imkanların qeyri-bərabər paylanması və gərginliyin artması ilə nəticələnmişdir. Gərginliyin artması isə bir çox hallarda yeni silahlı münaqişə və müharibələrin yaranmasına səbəb olur. Günümüzdə baş verən bu silahlı münaqişələrin aparılmasında yeni tendensiyalar müşahidə olunur. Bu tendensiyalar baş verən sürətli inkişafın təsiri olaraq, döyüşlərdə süni zəka, informasiya texnologiyalarına əsaslanmış yeni silah və texnikaların geniş tətbiqi ilə əlaqədardır. Fikrimizcə, məhz bu silah və texnikaların geniş tətbiq edilməsi gələcək müharibələrin xarakterini müəyyən edərək, döyüşün forma və üsullarını əvvəlkilərdən fərqləndirəcəkdir.

Gələcək müharibələrin xüsusiyyətləri

Karl Fon Klauzevitsə görə, müharibənin xüsusiyyətləri buqələmun kimi şərait və zamandan asılı olaraq dəyişir [8]. Xüsusiyyətlər altında, o müharibənin paradoksal üçlüyünü nəzərdə tuturdu: ehtiras, yaradıcılıq və siyasət [9]. Ehtiras müharibənin ilkin elementi olaraq insan təbiətinə xas olan nifrət, kin, ədavət və zorakılıq kimi reaksiyaları və düşmənçilik fəaliyyətlərini ehtiva edir. Yaradıcılıq hərb sənəti, ordunun fəaliyyəti, əsasən, müharibənin qeyri-müəyyən və qarışıq mühitində komandirlərin məharət və bacarığı, döyüşün üsul və formaları ilə bağlıdır. Üçüncü isə müharibəni siyasətin vasitəsinə çevirən hökumətin qəbul etdiyi rasional qərarlardır [10]. İctimai-siyasi həyatda, mədəniyyətlərdə baş verən dəyişikliklər, həmçinin elmi-texnoloji tərəqqi yuxarıda qeyd olunan üçlüyün hər birinə yeni formalar verir. Bunun nəticəsində müharibənin başladılması, aparılması və bitirilməsinin yeni şəkil və üsulları ortaya çıxır. Cəmiyyətin sosial strukturunda, həmçinin siyasi və beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər, əsasən, üçlüyün birinci və üçüncü elementlərinə təsir edirsə, elmi-texnoloji tərəqqi ikinci elementə aid döyüşün üsul və formalarını əhəmiyyətli dərəcədə dəyişir.

Döyüşün üsul və formaları hər zaman müharibənin məqsədlərinə nail olunmasında əsas rol oynamışdır. Bu üsul və formaların asılı olduqları ən böyük amil silah və texnika olmuşdur. İndiki dövrdə də bu asılılıq dəyişməz olaraq qalır. Sadəcə əgər əvvəlki müharibələrdə ənənəvi silahların təsiri sadəcə kinetik, kimyəvi və istilik enerjinin [11] gücü ilə ölçülürdüsə, gələcəkdə uzaqdan yüksək dəqiqliklə hədəfləri vurma və avtonom çalışma imkanları ilə ölçüləcəkdir. Bu silahlar yüksək informasiya-kommunikasiya texnologiyaları, süni zəka, nanohissəciklər və zərrəciklər fizikası kimi fundamental və tətbiqi elmlərin son nailiyyətlərinə əsaslanaraq, müharibənin şəkli, döyüşlərin üsul və formalarında köklü dəyişikliklərə səbəb olacaqdır.

Son onilliklərdə yeni materialların istehsalı, informasiya, rabitə və biotexnologiya sahələrinin inkişafında böyük irəliləyiş müşahidə olunur. Bu irəliləyiş yeni silah növlərinin, hərbi və xüsusi texnikanın istehsalına gətirib çıxarmışdır. Hazırda informasiya, süni zəka və digər qabaqcıl texnologiyalara əsaslanan yüksək dəqiqliyə malik silah sistemlərinin tətbiqi, onların pilotsuz uçuş aparatlarına və məsafədən idarəedilən digər vasitələrə quraşdırılması döyüşlərin xarakterini xeyli dəyişdirmişdir. Bu dəyişikliklər "hərbi sənətində inqilab" adlanan yeniliklər gətirdi. "Hərb sənətində inqilab" müharibənin strateji, əməliyyat və taktiki səviyyələri, hərbi gücdən istifadənin mahiyyəti, məqsədləri, imkanları və hədləri, həmçinin döyüşün üsul və formaları haqqında yeni mütərəqqi fikirlərin formalaşması ilə bağlıdır. Əslində "hərb sənətində inqilab" yeni anlayış deyil. Yuxarıda qeyd edildiyi kimi, tarixboyu hərbi texnika və silah inkişaf etdikcə döyüşün üsul və formaları da tədricən dəyişmişdir. Dəyişikliklər əvvəlkilərdən fərqlənirsə, onu tətbiq edən tərəfə böyük üstünlük və qəti qələbə qazandırırsa, həmçinin mühüm siyasi və tarixi nəticələrə nail olunarsa, sözükeçən inqilab baş verir. XXI əsrdə bəşəriyyət XV–XVII əsrlərdə odlu silahların kütləvi tətbiqi ilə hərb sənətində baş verən dəyişikliklərlə müqayisə edilə bilən yeni bir inqilabının astanasına yaxınlaşdı [12]. Uzun illərdir hərbi əməliyyatların məqsədlərinə nail olunmasında əsas rol oynayan və düşmənlə bilavasitə təmas tələb edən hücum, müdafiə kimi ənənəvi döyüş növləri arxa plana keçir. Yeni şəraitdə üstünlük qüvvə və vasitələrin həlledici istiqamətdə cəmləşdirilməsi ilə deyil uzaqdan, düşmənlə yaxın təmasa girmədən dəqiq və sarsıdıcı zərbələrlə əldə edilir. Müasir müharibələr uzaq məsafədən, birbaşa təmasa girmədən düşmən qüvvələrini böyük itkiyə məruz qoymaq və texnikasını sıradan çıxarmaqla onların məhv edilməsinin mümkünlüyünü göstərdi. Bundan başqa, süni zəkanın, yüksək texnologiyaların sürətlə inkişafı və onların əhatə dairəsinin daha da genişlənməsi, gələcəkdə daha üstün imkanlara malik, avtonom idarəedilən silah sistemlərinin və xüsusi texnikaların yaradılmasına yol açır. Texnika və texnologiyaların inkişafını proqnozlaşdıran və onların müharibələrin gedişinə təsirini öyrənən aparıcı alimlər hesab edirlər ki, XXI əsrin ortasınadək döyüşlərin görünüşü aşağıda göstərilən sahələrdə meydana gələcək yeni kəşf və ixtiraların təsiri altında şəkillənəcəkdir:

– ***yüksək enerji fizikası:*** zərrəciklər fizikası kimi tanınan, maddəni və şüalanmanı təşkil edən hissəciklərin təbiətini öyrənən fizika bölməsidir [13]. Yüksək enerji fizikası dünyada ən sürətlə inkişaf edən tədqiqat sahələrindəndir və aparıcı dövlətlərin elmi araşdırmalarında mühüm yer tutur. Hesab edirik ki, bu sahədə baş verən texnoloji inkişaf nəticəsində fiziki prinsiplərin istifadəsinə əsaslanan silahlar

təkmilləşəcək, yaxud yeni növləri yaranacaqdır. Bunlar istiqamətləndirilmiş enerji (lazer) silahı, həmçinin yüksəktezlikli və radiodalğalı, elektromaqnit, geofiziki və infrasəs silahlarıdır. Bu silahların ümumi xüsusiyyətləri gizli və qəfil tətbiq edilməsi, elektron sistemləri ani sıradan çıxartmaq imkanının olması və adi silahlardan istifadə etmədən canlı qüvvəni tələfata uğratmasıdır. Hal-hazırda inkişaf etmiş ölkələrdə sözügedən silahların imkanlarının artırılması üzrə işlər davam etdirilir. İstiqamətləndirilmiş enerji (lazer) silahının yeni növlərinin yaradılması və onların effektivliyinin artırılması bu sahədə aparılan ən uğurlu işlərdəndir. Əldə edilən uğurlar bu istiqamətdə aparılan çoxsaylı tədqiqat və yeni texnikaların meydana çıxması ilə əlaqədardır. Bu günə qədər aparıcı ölkələr müxtəlif məqsədlər üçün istiqamətləndirilmiş enerji (lazer) silahlarını hazırlamağa və sınaqdan keçirməyə nail olublar. ABŞ Ordusu 2022-ci ildə yüksəkgüclü lazer silahının prototipinin yaradıldığını və yaxın illərdə onu silahlanmaya qəbul ediləcəyini bildirmişdir [14]. Bu silahın ən böyük üstünlüyü enerjini işıq sürəti ilə ötürərək, hədəfi anında məhv etməsidir. İstiqamətləndirilmiş enerji sayəsində hədəfi vurma dəqiqliyi çox yüksəkdir, həmçinin bu silah atəş vaxtı adi silahlardan fərqli olaraq, səs çıxarmır və geri çəkilmir. Bundan başqa, enerjinin gücünü tənzimləmə mümkünlüyü silahın məsafə ölçmək, hədəfi sıradan çıxarmaq və məhv etmək kimi müxtəlif məqsədlər üçün istifadəsinə imkan verir. Demək olar ki, bu silahlar qeyri-məhdud atəş gücünə malikdir, çünki mümkün atışların sayı yalnız enerji mənbəyinin xüsusiyyətlərindən asılıdır [15]. Hazırda mövcud silahlarda çatışmazlıqların aradan qaldırılması və təkmilləşdirmə işlərinin sürətlə davam etdirilməsi, onların effektivliyini xeyli artıracaqdır. Yaxın gələcəkdə təkmilləşdirilmiş lazer silahı ilə uzaq məsafədən döyüş təyyarələrinin, pilotsuz uçuş aparatlarının, peyklərin və raketlərin vurulması nəzərdə tutulur.

– ***süni zəka.*** Süni zəka, adətən, insan zəkasını tələb edən vizual qavrayış, nitqin tanınması, qərar qəbuletmə və dillər arasında tərcümə kimi vəzifələri yerinə yetirə bilən kompüter sistemlərinin inkişafı kimi müəyyən edilir [16]. Son illərdə süni zəka (AI) sahəsində böyük irəliləyişlər əldə edilmişdir. Bu sahədə əldə edilən son nailiyyətlər əvvəllər elmi fantastika kimi görünənləri həyata keçirməyə imkan verir. Belə ki, süni zəka əsasında çalışan kompüter, robot və digər texnikalar anlıq olaraq irihəcmli informasiyanı emal edir və qərar qəbul edir. Artıq insan müdaxiləsi olmadan süni zəka sayəsində avtonom idarəedilən müxtəlif təyinatlı sistemlərin nümunələri yaradılmış və sınanmışdır. Bununla belə müasir süni zəka ilə insanaməxsus düşünmə, dərketmə, izahetmə və problemi qoymaq kimi fəaliyyətlər hələlik mümkün deyil. Lakin hesab edirik ki, alqoritmlər üzərində aparılan təkmilləşdirmə işləri gələcəkdə süni zəkanın imkanlarını daha da artıracaqdır.

Bütün elmi-texnoloji nailiyyətlərin hərb işində geniş tətbiq olunduğunu nəzərə alsaq, süni zəkanın da silah və silah sistemlərinə inteqrasiyası baş verəcəkdir. Son illər qabaqcıl ordular süni zəka əsasında çalışan "ağıllı" silah sistemlərinin işlənməsinə, inkişafına və tətbiqinə xüsusi diqqət yetirirlər. Aydındır ki, gələcəkdə silahlı qüvvələrin döyüş potensialı, məhz "ağıllı" silah sistemlərin imkanları ilə müəyyən ediləcəkdir. Komanda mərkəzi ilə sinxron çalışacaq "ağıllı" silah sistemləri gələcək döyüşlərin əsas elementi olaraq, müharibənin bütün mərhələlərində mühüm rol oynayacaqdır. Belə ki, "ağıllı" silah sistemləri hərbi əməliyyatların bütün dərinliklərində şəraiti qiymətləndirərək, hədəfin növünə görə müstəqil effektiv zərbə endirmək qabiliyyətinə malik olacaqdır. Belə ki, mürəkkəb alqoritmlər sayəsində süni zəka insan müdaxiləsi olmadan növlərinə, koordinatlarına və məhvetmə ardıcıllığına görə hədəflərə zərbə endirmək üçün uyğun çevik qərar qəbul edəcəkdir. Süni zəka ilə müqayisədə bu fəaliyyət komanda mərkəzində ən peşəkar insanlar tərəfindən belə icra edildikdə daha çox vaxt alacaqdır. Halbuki şəraitin sürətlə dəyişdiyi müasir və gələcək müharibələrdə zaman faktoru atəşlə zərərvurmada çox vacibdir. Məhz bu səbəbdən "ağıllı" silah sistemlərinə malik olan ordular artıq müharibənin əvvəlində üstünlük əldə edəcəklər.

Sözügedən silah sistemləri hal-hazırda işlənib-hazırlanma mərhələsindədir, lakin onların yarı avtonom nümunələri artıq silahlanmadadır. Süni zəka ilə çalışan silah sistemlərinin daha da təkmilləşdirilməsi, avtonom döyüşən robototexnikaların yaradılması, həmin silah sistemlərində yüksək dəqiqliyə malik sursatların istifadə edilməsi həm canlı qüvvə arasında itkini minimuma endirəcək, həm də hədəfləri uzaq məsafədən məhv etməyə imkan verəcəkdir. Belə ki, süni zəka ilə idarəedilən silah sistemləri, o cümlədən hərbi robototexnika avtonom olaraq ərazi, üz və hədəftanıma, koordinat

müəyyənetmə, şəraiti təhlil etmək və qərar qəbuletmə, atəşaçma kimi imkanlara malik olacağından, döyüş meydanında canlı qüvvənin birbaşa tətbiqini böyük ölçüdə azaldacaqdır. ABŞ-ın müdafiə departamentinin mütəxəssislərinə görə, süni zəka silahlı münaqişələrin prinsiplərini bütövlüklə dəyişdirməklə, hərb sənətində barıt və nüvə silahından sonra üçüncü inqilaba səbəb olacaqdır [17]. Lakin onu da qeyd etmək istəyirik ki, süni zəka onun istifadəçilərinə müəyyən problem yaradacaqdır. Bunlar düşmən tərəfindən süni zəkaya müdaxilə edilərək, silahı öz istifadəçisinə qarşı yönəldilməsi, döyüş meydanında düşmən və dost qüvvələrin qarışdırılması, mülki əhali və obyektlərə zərbələr endirilməsi kimi problemlərdir. Gələcək müharibələrdə müvəffəqiyyət əldə etmək üçün silah və texnikada süni zəkanın istifadəsinin səbəb olduğu bu kimi problemlərin həlli mütləqdir.

– ***nanotexnologiya.*** Əslində nanotexnologiya bio və material mühəndisliyi sahəsində əldə edilən böyük inkişafın nəticəsi olaraq yaranmışdır. Bu texnologiya maddə, yaxud maddələr birləşməsinə molekul və ya atom miqyasında müdaxilə edilərək, yeni struktur, cihaz və sistemlərin dizayn edilməsi, yaradılması və istifadəsi ilə məşğul olan elm sahəsi ilə əlaqəlidir [18]. Nanotexnologiya müxtəlif funksiyalara malik kiçik, miniatür cihazların hazırlanmasına və onların bir sistem şəklində istifadə edilməsinə şərait yaradır. Hesab edirik ki, nanotexnologiya əsasında hazırlanmış hərbi təchizat, silah və texnika gələcəkdə geniş şəkildə tətbiq ediləcəkdir. Bu texnologiya sahəsində əldə edilən və gözlənilən böyük inkişaf kiçikölçülü hərbi təyinatlı robotların, dronların, müşahidə cihazlarının, həmçinin yüngül, lakin çoxfunksiyalı geyim və təchizatların, zirehli gödəkcələrin və maskalanma vasitələrinin kütləvi şəkildə istehsalına və tətbiqinə imkan verir. Bundan başqa, artıq nanotexnologiyaların inkişafı nəticəsində müasir elektronikanın aktiv komponentlərinin ölçüləri əhəmiyyətli dərəcədə kiçilmişdir. Həmin komponentlərin ölçüləri 0,1 mikrona qədər və ya daha az kiçilməklə yanaşı, onların yaddaş tutumu 10^{12} bitdən çox artmışdır [19]. Nanotexnologiya sahəsində sürətli inkişaf bu göstəricilərin yaxın gələcəkdə daha da təkmilləşəcəyini göstərir. Bu sahədə əldə edilən uğurların informasiya-kommunikasiya texnologiyalarında geniş tətbiqi göstərir ki, növbəti iki onillikdə əməli yaddaş qurğularının ölçüləri kiçilməklə yanaşı, onların informasiya emal (oxuma, yazma və ötürmə) sürətli təxminən dörd dəfə artacaq, maya dəyəri isə xeyli azalacaqdır. Bu nailiyyətlərin nəticəsi olaraq, süni zəka ilə çalışan müxtəlif, o cümlədən hərbi təyinatlı kiçikölçülü texnika, robot kimi pilotsuz aparatların kütləvi istehsalı və istifadəsi başlayacaqdır. Çünki orduya əsgərlərin həyatlarını riskə atmadan, həmçinin onların aşkar edilmədən düşməni müstəqil məhv edəcək, mina və partlamamış bombaları zərərsizləşdirəcək texnika lazımdır.

Hərbi təyinatlı mini robot və dronlara süni zəkanın inteqrasiya edilməsi onların operatorun müdaxiləsi olmadan döyüş meydanında kütləvi şəkildə istifadəsinə və avtonom zərbə endirməsinə imkan verəcək. Ölçüləri kiçik olduğundan, onları aşkar və məhv etmək çətin olacaq. Eyni zamanda mini robot və dronlar tapşırığın icrası prosesində həm müstəqil, həm də bir-biriləri ilə sıx əlaqədə fəaliyyət göstərəcək, öz aralarında hədəfləri bölüşdürmə və məhvetmə ardıcıllığını müəyyənləşdirmək imkanına malik olacaq. Fikrimizcə, gələcəkdə yüksək enerji fizikası, həmçinin "ağıllı" nanotexnologiyaların kiçik və ortaçaplı silahlara inteqrasiyanı, həmin silahların hədəfi dəqiqliklə vura bilmə imkanlarını qat-qat artıracaqdır. Məsələn, bu silah və sursatların lazer təyinedici və miniatür sensorla təchiz edilməsi planlaşdırılır ki, bu da sığınacaqlarda yerləşən canlı qüvvəni vurmağa imkan verəcək.

– ***informasiya-kommunikasiya texnologiyası.*** Günümüzdə dövlətlər arasında amansız strateji rəqabətin mövcud olduğu bir şəraitdə informasiya vacib rol oynayır. İnformasiya texnologiyalarında meydana gələn inqilabi dəyişiklər sayəsində maddi sərvət və fiziki qüvvəyə əsaslanmış güc sisteminə informasiyaya (biliyə) əsaslanan güc də əlavə olundu. Belə ki, müasir dünyada müvəffəqiyyət qazanmanın birinci şərti informasiyanın vaxtında emal edilərək, düzgün qərarın verilməsindən ibarətdir. Təhlillər göstərir ki, sözügedən texnologiyalarda inqilabi dəyişikliklər iki əsas istiqamətdə baş verir: informasiyanın emalı və informasiyanın ötürülməsi. Artıq bu gün istifadə olunan kompüterlər irihəcmli məlumatları saxlama və bir anda emaletmə imkanlarına malikdir. Gələcəkdə kvant kompüterlərin meydan gəlməsi ilə saxlanılacaq və emal ediləcək informasiyanın həcm və sürətinin indikindən qat-qat çox olacağı gözlənilir. Kvant mexanikasının qanunları əsasında işləyəcək kompüterlərdə adi kompüterlərdən fərqli olaraq, məlumatların bir-bir deyil, eyni anda birgə emalı nəzərdə tutulur. Bunun

nəticəsində emal vaxtı dəfələrlə azalacaqdır. Məsələn, hazırda istifadədə olan ən güclü kompüterdə 30-40 simvoldan ibarət ədədi sadə amillərə parçalamaq üçün milyard il lazımdırsa, kvant kompüteri ilə eyni iş 18 saniyədə yerinə yetiriləcəkdir [20]. İnformasiya texnologiyalarında inqilab irihəcmli məlumatların toplanması, saxlanılması, emalı və təhlil edilməsi üçün zəruri olan hesablama gücünün həndəsi silsilə ilə artımına səbəb olacaqdır. Bundan başqa, bu inqilab sayəsində müxtəlif formada olan gizli informasiya (mətin, audio, video və s.) dünyanın istənilən nöqtəsində, istənilən şəxsə, o cümlədən hərbi əməliyyatlarda iştirak edənlərə real vaxt rejimində ötürüləcək və deşifrə ediləcəkdir. İndiki dövrdə irihəcmli informasiyanın vahid şəbəkə üzərindən böyük məsafələrə ötürülməsi və emalında əldə edilən nailiyyətlər artıq eyni vaxtda müxtəlif əməliyyatların uzaqdan idarə edilməsinə imkan verir. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində davam edən inkişaf gələcəkdə məlumat mübadiləsinin indiki ilə müqayisədə qat-qat sürətlənəcəyini, habelə şəbəkə üzərindən daha mürəkkəb əməliyyatların qısa müddətdə icra ediləcəyini göstərir. Belə bir şəraitdə vaxtında əldə olunmuş və hərtərəfli analiz edilmiş informasiya müvəffəqiyyətin təmin edilməsində böyük rol oynayacaqdır. Bu səbəbdən hərbi əməliyyatların bütün mərhələlərində informasiya məkanına davamlı nəzarət etmək və üstünlüyü qoruyub saxlamaq gələcək müharibələrdə qələbə qazanmanın əsas şərtlərindəndir. Belə ki, informasiya məkanına hakim olan komandirlər real vaxt rejimində yaranmış vəziyyət haqqında məlumat əldə edəcəklər. Bu da onlara vəziyyəti təhlil edərək, vaxtında düzgün qərar qəbul etməyə, qüvvə və vəsaitlərin, o cümlədən yüksək dəqiqliyə malik silahların effektiv tətbiqinə imkan verəcəkdir. Bütün bunlar döyüşün ənənəvi üsul və formalarını dəyişəcəkdir.

Fikrimizcə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı hərb sənətində inqilabi dəyişikliyə səbəb olacaqdır. Yüksək texnologiyaların məhsulu olan şəbəkə, hesablama, müşahidə və "ağıllı" texnologiyaların qoşunların avtomatlaşdırılmış idarəetmə sisteminə inteqrasiyası operatorun müdaxiləsi olmadan, yaxud az müdaxiləsi ilə böyük həcmdə müxtəlif informasiyanın sürətli emalına, əməliyyat şəraitinin proqnozlaşdırılmasına, eyni vaxtda bütün səviyyələrdə döyüş sahəsinin, əməliyyat rayonlarının müşahidəsinə, həmçinin effektiv zərbə endirilməsinə imkan verəcəkdir. Hərbi təyinatlı şəbəkə texnologiyalarının inkişafı "şəbəkə əsaslı müharibə" (Network-centric warfare) anlayışını meydana gətirmişdir. Bu müharibənin konsepsiyası ilk dəfə ABŞ-ın Müdafiə Nazirliyi tərəfindən ötən əsrin 90-cı illərinin sonunda irəli sürülmüşdür və əsasını informasiya-kommunikasiya məkanında əldə edilən üstünlük sayəsində döyüşü qazanmaq fikri təşkil edir [21]. "Şəbəkə əsaslı müharibə"də kəşfiyyat, idarəetmə, naviqasiya, atəş vasitə, sistem və komplekslərinin vahid informasiya-kommunikasiya şəbəkəsinə birləşdirilərək, əməliyyat (döyüş) şəraiti haqqında etibarlı və dolğun məlumatların qəbulu və ötürülməsinin praktiki olaraq real vaxt rejimində həyata keçirilməsi, həmçinin aşkarlanan hədəflərin yüksək sürət və dəqiqliklə məhv edilərək, bölmənin döyüş gücünün artırılması nəzərdə tutulur. Döyüş gücünün effektivliyinin artması güc və vasitələrin idarə edilməsi prosesinin və döyüş tempinin sürətlənməsi, həmçinin döyüş fəaliyyətlərinin sinxronlaşdırılması nəticəsində baş verir. Böyük ərazidə real vaxt rejimində məlumatların qəbulu və ötürülməsi şəbəkə isifadəçilərinə icazə səviyyələrinə uyğun bütün dost və düşmən bölmələrinin cari fəaliyyətlərini elektron xəritədə, yaxud ekranda izləməyə və zərurət yarandıqda döyüş meydanındakı fəaliyyətlərə birbaşa müdaxilə etməyə imkan verir [22].

ABŞ-ın müdafiə nazirinin kommunikasiya və informasiya üzrə köməkçisinin yanında tədqiqatlar ofisinin direktoru David Steven Alberts "Şəbəkə əsaslı müharibə"nin aşağıda göstərilən üstünlüklərini qeyd etmişdir [23]:

1. Güclü və sürətli şəbəkə müharibədə informasiya mübadiləsini və qarşılıqlı əlaqəni böyük ölçüdə yaxşılaşdırır.
2. İnformasiya mübadiləsinin və qarşılıqlı əlaqənin yaxşılaşması informasiyanın etibarlılıq, doğruluq keyfiyyətini, həmçinin ümumi vəziyyət haqqında məlumatlılığı artırır.
3. Ümumi vəziyyət haqqında məlumatlılıq bölmələrin özünü sinxronlaşdırmasına imkan verir.
4. Özünüsinxronlaşdırma isə öz növbəsində fəaliyyətlərin effektivliyini kəskin şəkildə artırır.

Yuxarıda qeyd edilənlərdən diqqət çəkən əsas məqam özünüsinxronlaşdırmadır. Ənənəvi mərkəzləşdirilmiş iyerarxik quruluşa malik hərbi təşkilatlarda komanda, qərar, məlumat, tapşırıq, qarşılıqlı əlaqə qurma məsələləri yuxarıdan aşağıya ötürülür və adətən, bütün fəaliyyətlər yuxarı rəislərin

diktəsi ilə icra olunur. Özünüsinxronlaşdırmada isə bir çox mürəkkəb fəaliyyətlər aşağıdan yuxarıya doğru təşkil edilir və qarşılıqlı əlaqə tənzimlənir. Bunun səbəbi döyüş meydanındakı komandirlərin istər döyüşən əsgərlər, istərsə də müxtəlif səviyyədə olan rəisləri ilə birbaşa qarşılıqlı əlaqə yarada bilməsidir. Bu onlara yaranmış vəziyyət haqqında daim məlumatlı olmağa, həmin məlumatı real vaxt rejimində yuxarı rəislərə ötürməyə, dəyişən şəraitə cəld uyğunlaşmağa, şəraitə uyğun sürətlə müstəqil qərar qəbul etməyə və yerdəyişmə aparmağa, atəş dəstəyi və əlavə güc istəməyə imkan verir. Qısaca, döyüş meydanındakı komandirlər yuxarı komandanlığın niyyətlərinə uyğun, vəzifə və hədəfləri, həmçinin döyüşün aparılma forma və üsulunu özləri müəyyən edəcəklər. Özünüsinxronlaşdırma həm sürət, həm idarəetmə, həm də qəfillik baxımdan düşmən üzərində böyük üstünlük qazandırır. Bu üstünlük döyüş fəaliyyətlərini fasiləsiz aparmağa imkan verir. Nəticədə düşmənin yararlana biləcəyi taktiki və əməliyyat fasilələri aradan qalxır, döyüş fəaliyyətləri daha dinamik, fasiləsiz və qətiyyətli olur. Bölmələrin müstəqil olaraq fəaliyyət göstərə bilməsi, həmçinin yüksək məlumatlılıq taktiki, əməliyyat və strateji səviyyədə döyüş fəaliyyətlərini eyni vaxtda aparmağa imkan verəcəkdir.

Amerikalı mütəxəssislərin fikrincə, "Şəbəkə əsaslı müharibə" coğrafi cəhətdən geniş səpələnmiş, lakin mükəmməl informasiya-kommunikasiya şəbəkəsinə qoşulmuş və döyüş meydanı haqqında yaxşı məlumatlanmış qüvvələrin yaradılmasını nəzərdə tutur [24]. "Şəbəkə əsaslı müharibə" sisteminin əsas komponentləri aşağıdakılardır:

– bütün zəruri məlumatlara real vaxt rejimində çıxış, həmçinin onların sürətlə ötürülməsini təmin edən effektiv informasiya-kommunikasiya şəbəkəsi;

– alınan məlumatların təhlili nəticəsində müəyyənləşdirilən hədəflərə uzaq məsafədən yüksək dəqiqliyə malik silahlarla zərbələrin endirilməsini, həmçinin zəruri yerdəyişmələri təşkil edən yüksək effektivliyə malik komanda-idarəetmə sistemi;

– ətraf mühitdə baş verən hər hansı bir dəyişikliyi ani olaraq aşkarlayan, məlumatları təhlil edərək ötürmə imkanına malik və vahid şəbəkəyə qoşulmuş "sensorlar". Bu sensorlara təyyarə, peyk və pilotsuz uçuş aparatlarına quraşdırılmış, həmçinin stasionar optik-elektron müşahidə sistemləri, fərdi müşahidə kameraları, radiolokasiya qurğuları, teplovizorlar və bədən "sensorları" kimi müxtəlif vasitələr aiddir. Hesab edirik ki, gələcəkdə bu "sensorlar" vasitəsilə nəinki, ətraf mühitdə baş verən hadisələri, həm də əsgərin bədənində gedən fizioloji prosesləri də real vaxt rejimində izləmək mümkün olacaqdır. Bunun nəticəsində komandirlər döyüşdə yaralanan, həlak olan, hətta taqətdən düşən əsgərlər barəsində vaxtında məlumatlı olacaqlar.

Beləliklə, texnologiyaların inkişafı nəticəsində hərb sənətində baş verən inqilabi dəyişiklikləri və bu dəyişikliklərin yaxın gələcəkdə daha da sürətlənməsini nəzərə alaraq, gələcək müharibələrin xüsusiyyətlərini təsvir edə bilərik. Fikrimizcə, yaxın on il ərzində meydana gələcək müharibələrdə döyüşlərin "təmassız", yaxud "məsafədən" aparılma forması artacaq və gələcəyə doğru bu formalar daha da təkmilləşərək, geniş vüsət alacaqdır. Bunların "təmassız", yaxud "məsafədən" adlandırılmasının səbəbi odur ki, müharibənin ilkin və ya əsas mərhələsində düşmənə sarsıdıcı zərbələr təmas xəttindən uzaqda olan (uçan) vasitələrdə yerləşdirilmiş yüksək dəqiqliyə malik silahlarla endiriləcək, yaxud döyüş meydanında uzaqdan və ya avtonom idarəedilən silahlı robototexnika (dron sürüsü və s.) fəaliyyət göstərəcəkdir. Əvvəlki müharibələrdə əsas yük quru qoşunlarının üzərinə düşürdü və düşmənlə birbaşa təmasa girərək onu məhv etmədən və müəyyən ərazini ələ keçirmədən qələbə qazanmaq mümkün deyildi. Hərb sənətində baş verəcək növbəti inqilab isə müharibədə qələbə qazanmağın mahiyyətini əsaslı şəkildə dəyişdirməkdədir. Belə ki, müharibənin əvvəlində uzaq məsafədən yüksək dəqiqliyə malik silahlarla düşmənin mühüm hərbi və mülki obyektlərinə zərbələr endirmək və onun hərbi, iqtisadi və döyüş potensialına ciddi ziyan vurulmaqla, əhali və hərbi qulluqçular arasında qorxu və çaxnaşma yaradılacaqdır. Növbəti mərhələdə artıq qorxu və çaxnaşma içində olan düşmən bölmələri xüsusi təyinatlı qüvvələrin və ya taktiki qrupların sürətli həmləsi ilə məhv ediləcəkdir. Hesab edirik ki, bu mərhələdə süni zəkaya malik və avtonom idarəolunan hərbi robototexnika, dron sürüsünün sözügedən qüvvə və qruplarla birlikdə, yaxud onlarla sinxronlaşdırılmış bir şəkildə istifadəsi yaxın gələcək üçün gözlənilməndir.

Hərb sənətində baş verən inqilab müharibənin həm strateji, həm operativ, həm də taktiki səviyyələri haqqında mövcud olan anlayışlara təsir edərək, onları əhəmiyyətli dərəcədə dəyişəcəkdir. Əgər əvvəlki müharibələrdə taktiki, operativ və strateji səviyyələr arasında ərazi, məkan, zaman, məqsəd və qüvvə baxımdan müəyyən bir sərhəd var idisə, gələcəkdə bu sərhəd silinəcək və səviyyələri təyin etmək çətin olacaqdır. Belə ki, hərbi əməliyyatların əhatə dairəsi ərazi və məkan baxımdan genişlənəcək. Ənənəvi quru, hava və dəniz məkanlarına kosmik və informasiya (kiber) məkanları əlavə olunacaqdır. Hərbi-texnoloji inkişaf hədəfləri eyni anda həm taktiki, həm operativ, həm də strateji dərinlikdə seçməyə və məhv etməyə imkan verəcək. Bununla belə, əgər düşmənlə döyüş meydanında hər hansı bir təmas olacaqsa, bu qısa müddət ərzində baş verəcək. Qeyd edildiyi kimi, əvvəlki ənənəvi müharibələrdə həlledici döyüşlər, əsasən, quru qoşunları tərəfindən yerdə aparılırdı, müəyyən dərinlik və genişliyə malik idi. Bu müharibədə şaquli olaraq yuxarıda və üfüqi olaraq geridə fəaliyyət göstərən qüvvə və vasitələr (hərbi hava, raket-artilleriya bölmələri), adətən, quruda döyüş fəaliyyətlərini aparan qoşunların dəstəyinə verilirdi. Gələcəkdə təmassız müharibələrdə isə hər şey tərsinə olacaqdır.

Ənənəvi müharibələrdə strateji məqsədə nail olmaq üçün taktiki və operativ səviyyədə döyüşlər planlaşdırılır və aparılırdı. Bunun üçün böyük qüvvələrin yerdəyişməsi və yerləşməsi təşkil edilir, ehtiyatlar və təminat nöqtələri yaradılır, hücumda əsas istiqamət, müdafiədə əsas səylərin cəmləşdirilməsi istiqaməti təyin edilir, yaxın, uzaq və sonrakı tapşırıq göstərilir, yaxud dərinlikdə müdafiə təşkil edilirdi. Fikrimizcə, gələcək müharibələrdə bunların bir çoxuna ehtiyac qalmayacaq. Çünki əsas zərbənin və ya təhlükənin haradan gələcəyi və necə olacağı barədə aydın təsəvvür olmayacaqdır. Gələcək müharibələrin müqəddəratını və qalibini yaxşı düşünülmüş, eyni zamanda düzgün seçilmiş strategiya müəyyən edəcəkdir. Bundan başqa, hesab edirik ki, gələcəkdə çox sayda canlı qüvvənin, həmçinin böyük silahlı birlik və birləşmələrin döyüşdə tətbiqi üstünlük deyil, potensial risk yaradacaqdır. Belə ki, müxtəlif yerüstü və havadan (kosmik fəzadan) kəşfiyyat və müşahidə vasitələri ilə aşkar edilən düşmən qüvvə və texnikalarına yüksək dəqiqliyə malik silahlarla zərbələr endiriləcəkdir. Bu şəraitdə effektivlik meyarının yüksəldilməsində kiçik, lakin çoxfunksiyalı dron və robototexnika, həmçinin qabaqcıl müşahidə və informasiya-kommunikasiya sistemləri ilə təchiz edilmiş və yaxşı hazırlanmış mobil taktiki qrupların rolu xeyli artacaqdır.

Döyüş meydanına çox sayda canlı qüvvə cəlb edilmədiyindən, döyüşün ən vacib elementlərindən biri olan atəşlə manevr öz əhəmiyyətini tədricən itirəcəkdir. "Ön xətt", "müdafiə rayonu", "cəbhə", "əsas hücum istiqaməti" kimi terminlər "dəqiq zərbə", "əsas zərbə yeri", "cavabdehlik rayonu", "dəqiq zərbə endirmə məsafəsi", "sürətlə zərbə altına almaq", "şəbəkənin intensivliyi" kimi terminlərlə əvəz olunacaq. Döyüşün nəticəsi bu fəaliyyətlərin effektivliyi ilə müəyyən ediləcək: sürətlə aşkar etmək; sürətlə təhlil etmək; sürətlə qərar qəbul etmək; sürətlə müdaxilə etmək və ya dəqiq zərbə ilə uzaqdan məhv etmək. Məhz bu fəaliyyətlərdə üstünlük əldə edən tərəf gələcək müharibələrdə qələbə qazanacaqdır.

Nəticə

Əhalinin artması, urbanizasiya və ətraf mühitin çirklənməsi fonunda məhdud imkanlar uğrunda gedən gərgin mübarizə, həmçinin millətçilik və etnik zəmində qarşıdurmalar, beynəlxalq terrorizm, qaçqın axını, narkotiklərin qanunsuz dövriyyəsi, kütləvi qırğın silahlarının yayılması gələcəkdə də davam edəcək və yeni müharibələrin yaranmasına səbəb olacaqdır.

Müharibə, bəşər sivilizasiyasının bir hissəsi kimi, şübhəsiz ki, daim inkişafdadır. Nəzərə almaq lazımdır ki, son illərdə bu inkişaf daha da dinamik xarakter almışdır. Belə ki, müşahidə olunan elmi-texniki inqilab insan fəaliyyətinin və sosial münasibətlərin bütün sahələrinə olduğu kimi, silahlı qarşıdurmaların üsul və formalarına da böyük ölçüdə təsir etmişdir. Artıq müasir müharibələr 20 və 10 il bundan əvvəl olmuş münaqişələrdən çox fərqlənir. Zamanımızın müharibələri artıq fiziki məkanlarla (quru, hava, dəniz) yanaşı, informasiya, kiber və kosmik məkanları da əhatə edir. Fikrimizcə, yaxın onillikdə, elmi-texniki sahədə əldə ediləcək nailiyyətlər bu məkanların bir-birinə inteqrasiyasını daha da genişlədərək, müharibələrin xarakterini köklü şəkildə dəyişdirəcəkdir.

Təhlillər göstərdi ki, texnologiyalarda, o cümlədən bio, nano və rəqəmsal texnologiyalarda baş verən və gözlənilən böyük inkişaf hərb sənətində inqilabi dəyişikliyə səbəb olacaqdır. Döyüşün forma və üsulları keçmişlə müqayisədə əhəmiyyətli dərəcədə dəyişəcək. Barıtın və atıcı silahların yaranmasından bugünə qədər uğurla istifadə olunan bir çox forma və üsullar, həmçinin döyüşün əsas komponentləri artıq effektiv olmayacaq. Belə ki, döyüşün bugünə qədər birlikdə tətbiq edilməklə effektivliyi sınanmış atəş, zərbə və manevr kimi əsas komponentlərindən gələcəkdə sadəcə zərbə, vacibliyini qoruyub saxlayacaqdır. Əvvəlki müharibələrdə strateji məqsədlərə nailolmada taktiki və operativ səviyyədə düşmənlə birbaşa təmasa girilərək, onun əsas qüvvələrinin atəş və manevrlə darmadağın edilməsi və ərazinin ələ keçirilməsi vacib şərt sayılırdı. Burada yerüstü əməliyyatlara xüsusi önəm verilirdi. Gələcək müharibələrdə isə rəqibin mühüm obyektlərini, o cümlədən kritik infrastrukturunu, idarəetmə mərkəzlərini, təminat nöqtələrini, hərbi texnikalarını uzaq məsafədən dəqiq zərbə ilə sıradan çıxartmaq və bununla da ona öz istəyini qəbul etdirmək mümkün olacaq. Gələcəkdə müharibə aparmaq üçün qabaqcıl texnologiyalara sahib olmayan, o cümlədən süni zəkanı, uzaqməsafəli yüksək dəqiqliyə malik silahların inkişafına nail olmayan ölkələr bu çatışmazlığı canlı qüvvənin, eləcə də ənənəvi silah və texnikaların sayını çoxaltmaqla əvəz etməyə çalışacaqlar. Bununla belə, hesab edirik ki, gələcək müharibələrdə hazırlıqsız canlı qüvvə və ənənəvi hərbi texnikanın çoxluğu üstünlük deyil, böyük çatışmazlıq olacaqdır. Çünki dəqiq zərbələr nəticəsində idarəetməni və bir neçə ağır texnikanı itirmiş tərəfin şəxsi heyəti arasında çaxnaşma, qorxu və çaşqınlıq yaranacaq, bununla da döyüş qabiliyyəti aşağı düşəcəkdir. Son çarə olaraq, həmin tərəfin kütləvi qırğın silahı, qadağan olunmuş sursatlardan istifadəetmə, yaxud terrorçuluq fəaliyyətlərinə başlama ehtimalı yüksəkdir.

Əlavə olaraq, yüksək dəqiqliyə malik silahlarla yanaşı, süni zəka ilə avtonom idarəedilən müxtəlif robototexnika, pilotsuz uçuş aparatları, o cümlədən dron sürüsü gələcək müharibə meydanında aparıcı rol oynayacaq. Bunların silahlı münaqişələrdə geniş tətbiqi Silahlı Qüvvələrin strukturunu əhəmiyyətli dərəcədə dəyişəcək. Artıq yaxın gələcəkdə Quru, Hava və Dəniz Qüvvələrinə aid müxtəlif səviyyədəki (taktiki, operativ və strateji) ənənəvi qoşun növlərini vahid komanda-idarəetmə şəbəkəsinə qoşulmuş strateji kəşfiyyat-zərbə, zərbə vasitələri, yüksək dəqiqliyə malik silah sistemlərindən ibarət qüvvələr, həmçinin kiçik, lakin mobil, hazırlıqlı, hərtərəfli təchiz edilmiş xüsusi təyinatlı qüvvələr (taktiki qruplar) əvəz edəcək.

Yekun olaraq qeyd edək ki, gələcək müharibələrdə hadisələr sürətlə cərəyan edəcək, vəziyyət tez-tez dəyişəcək, zərbələr qısamüddətli, lakin dəqiq və dağıdıcı olacaqdır. Belə bir şəraitdə döyüşdə qələbə qazanmaq üçün təşəbbüs, bilik, çeviklik, dərin düşünmə, hərtərəfli hazırlıq, güclü motivasiya kimi liderlik keyfiyyətləri ön plana keçəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Beverelli, L. Why France Lost in 1940: [Electronic resource] / – War Writers. – October 11, 2020. URL: https://warwriters.com/why-france-lost-in-1940/

2. Walsh, T. The defence review fails to address the third revolution in warfare: artificial intelligence: [Electronic resource] / – The Conversation. – April 28, 2023.
URL: https://theconversation.com/the-defence-review-fails-to-address-the-third-revolution-in-warfare-artificial-intelligence-204619

3. What Are The Main Causes Of War?: [Electronic resource] / – Last updated – August, 2017.
URL:https://resources.finalsite.net/images/v1612766712/dohacollegecom/pxkzaxykcazvtnquk4uf/Arwa-ImmerseTheMainCausesOfWarEssay.pdf

4. Coccia, M. Comparative Theories and Causes of War: [Electronic resource] / – Global Encyclopedia of Public Administration, Public Policy, and Governance (pp.1-7), Publisher: Springer. – December, 2019.
URL:https://www.researchgate.net/publication/337890175_Comparative_Theories_and_-Causes_of_War

5. Finucane, M. İs War Primarily the Product of "Human Nature": [Electronic resource] / – E-International Relations. – October 31, 2013. URL: https://www.e-ir.info/2013/10/13/is-war-primarily-the-product-of-human-nature/

6. Matthew, O. J., Massimo, M. The Reasons for Wars – an Updated Survey: [Electronic resource] / – Handbook on the Political Economy of War. – December, 2009.
URL:https://www.researchgate.net/publication/238529380_The_Reasons_for_-Wars_-_an_Updated_Survey

7. Assumpção, C. Is Huntington's "Clash of Civilizations" a Self-fulfilled Prophecy?: [Electronic resource] / – Dublin City University, E-International Relations. – January 29, 2020.
URL: https://www.e-ir.info/pdf/81197

8. James, M. D. No guarantees when it comes to war: [Electronic resource] / – Association of The United States Army. – August 22, 2018. URL: https://www.ausa.org/articles/no-guarantees-when-it-comes-war

9. Cole, B. Clausewitz's Wondrous Yet Paradoxical Trinity: The Nature of War as a Complex Adaptive System: [Electronic resource]/ The premier professional military and academic publishing house. – February 7, 2020.
URL:https://ndupress.ndu.edu/Media/News/News-Article-View/Article/2076059/clausewitzs-wondrous-yet-paradoxical-trinity-the-nature-of-war-as-a-complex-ada/

10. Waldman, T. War, Clausewitz, and the Trinityhttps: [Electronic resource] / – University of Warwick, Department of Politics and International Studies. – June, 2009.
URL: https://core.ac.uk/download/pdf/40048786.pdf

11. Черных, Г.С., Старостин, А. С. Оружие на новых физических принципах, проблемы защиты населения и территорий от его поражающих факторов // – Москва: Стратегия гражданской защиты: проблемы и исследования, – 2015. № 2(9). – с. 22-37;

12. Безбородов, В. Бесконтактные войны - революция в военном искусстве: [Электронный ресурс] / – Военное обозрение. Мнения. –17 ноябрь, 2014. URL: https://topwar.ru/62636-beskontaktnye-voyny-revolyuciya-v-voennom-iskusstve.html

13. Fernow, R. C. Introduction to experimental particle physics: [Electronic resource] / – Cambridge University Press. – March, 2022. URL: https://library.oapen.org

14. Rodgers, E. Directed-Energy Weapons Come Of Age: [Electronic resource] / – Honeywell, Aerospace Technologıes. – February 13, 2024. URL: https://aerospace.honeywell.com/us/en/about-us/blogs/directed-energy-weapons-come-of-age

14. Ali məktəblərdə kibertəhlükəsizlik üzrə mütəxəssis hazırlığı problemləri // [Elektron resurs] / URL:https://ict.az/uploads/konfrans/info_sec_2018/rs16_problems_of_educatıng_cybersecurıty_specıalısts_ınunıversıtıes.pdf
15. Məcidli, S.T. Kibercinayətlər / S.Məcidli – Bakı, – 2019. – 314 s.

Аннотация
Киберпреступления: национальные и международные правовые-законодательные аспекты
Захид Орудж

В статье анализируются правовые аспекты различных подходов к вопросам киберпреступности и обеспечения кибербезопасности и понимания возможных угроз и их источников на основе национального и международного законодательного опыта. В настоящее время в период бурного развития информационных технологий количество преступлений, совершаемых в киберпространстве, растет пропорционально числу пользователей компьютерных сетей. В исследовании подчеркивается, что взаимное изучение и применение существующих законов и прогрессивных практик в области кибербезопасности служат обеспечению лучшей кибербезопасности.

Киберпреступность – это более широкое понятие, чем «интернет-преступность», так как оно включает в себя возможность совершения преступлений с использованием любых информационных или телекоммуникационных сетей. Киберпреступность – это совокупность преступлений, совершаемых в киберпространстве с помощью или посредством компьютерных систем или компьютерных сетей, а также иных средств доступа к киберпространству, в рамках компьютерных систем или сетей, и против компьютерных систем, компьютерных сетей и компьютерных данных.

Однако вопрос о точном и полном понимании киберпреступности, а также о его законодательном закреплении до сегодняшнего дня остается открытым. Сущность данной проблемы заключается в том, что от правильного понимания киберпреступности зависит эффективность работы правоохранительных органов по предупреждению такого рода преступлений.

Исследование позволило прийти к выводу, что анализ доктринальных подходов не показывает единого мнения среди ученых в определении киберпреступности. Это обусловлено различными трактовками киберпространства и способов использования компьютерных систем при совершении противоправных действий. Несмотря на различия ученые ставят вопрос о соотношении национального и международного законодательства относительно перечня противоправных действий, совершаемым в киберсфере.

Ключевые слова: киберпреступность, правовые аспекты, кибербезопасность, национальное законодательство, международное законодательство, правовая борьба, Азербайджан

Abstract

Cyber crimes: national and international legal-legislative aspects

Zahid Oruj

The article analyzes the legal aspects of various approaches to cybercrime and cybersecurity issues and understanding of possible threats and their sources based on national and international legislative experience. Currently, during the period of rapid development of information technology, the number of crimes committed in cyberspace is growing in proportion to the number of users of computer networks. The study emphasizes that the mutual study and application of existing laws and progressive practices in the field of cybersecurity serve to ensure better cybersecurity.

As a concept, it is noted that cybercrime is a broader concept than "Internet crime", since in the first case it includes the possibility of committing a crime using any information or telecommunication networks. Cybercrime - crimes committed in cyberspace against computer systems or computer networks, as well as computer data stored, announced or transmitted in computer networks using other means of access to cyberspace or through them. However, the issue of an accurate and complete understanding of cybercrime, as well as its modification from the point of view of the legislation in the world, the generally accepted approach and uniform definitions, remains open to this day.

The extremely important significance of this problem lies in the fact that the effectiveness of the activities and mutual cooperation of law enforcement agencies in the direction of preventing such crimes directly depends on the correct understanding of cybercrime, common approaches, and the availability of similar legislation.

The study led to the conclusion that the analysis of doctrinal approaches does not show a consensus among scientists in the definition of cybercrime. This is due to different interpretations of cyberspace and ways of using computer systems when committing illegal acts. Despite the differences, scientists raise the question of the relationship between national and international legislation regarding the list of illegal actions committed in the cyber sphere.

Keywords: cybercrime, legal aspects, cyber security, national legislation, international legislation, legal struggle, Azerbaijan

Məqalə redaksiyaya daxil olmuşdur: 08.01.2024
Təkrar işlənməyə göndərilmişdir: 16.01.2024
Çapa qəbul edilmişdir: 05.02.2024

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 34-44
HƏRBİ NƏZƏRİ ELMLƏR ***MILITARY THEORETICAL SCIENCES***

UOT 327.7 DOI: 10.30546/9878.2024.2.10.0016.

DÖVLƏTİN MİLLİ GÜCÜNÜ QİYMƏTLƏNDİRMƏ METODU

siy.e.ü.f.d., dosent Vüqar Məmmədzadə
https://orcid.org/0000-0002-5381-0387
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
vuqar.zade1982@gmail.com

tex.e.d., dosent Elxan Səbziyev
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
elkhan.sabziev@gmail.com

tex.ü.f. doktoru, professor, 1-ci dərəcəli kapitan Əsəd Rüstəmov
Azərbaycan Texniki Universiteti,
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
asadrustamov1122@gmail.com

polkovnik-leytenant Elcan İmamverdiyev
https://orcid.org/0009-0005-6394-568X
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
i.eljan85@gmail.com

mayor Cəlil Həsənov
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
jalil.hasanov@hotmail.com

Xülasə. Məqalədə dövlətin milli gücünü (MG) və onu formalaşdıran struktur komponentləri olan əhali (Əh), ərazi (Ər), iqtisadiyyat (İq), hərbi güc (HG), elmi-texniki tərəqqi (ETT), siyasi iradə (Sİ) və geosiyasi amillər (GA) təhlil edilir və hesablama qaydaları nəzərdən keçirilərək, düstur formasına salınır. Sadalanan faktorların qiymətləndirilməsi üçün istifadə olunan "yüksək", "orta", "kafi", "zəif" və "çox zəif" linqvistik qiymətlərinə uyğun olaraq, elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə əmsalının qiymətləndirilməsində istifadə olunan "böyük", "yaxşı", "qənaətbəxş", "kiçik" və "çox az" linqvistik qiymətləri ekvivalent kimi götürülür. Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasının milli gücünü qeyri-səlis ədədlər şkalasından istifadə etməklə ekspert rəyi əsasında qiymətləndirməkdir. Məqalədə müvafiq olaraq, aşağıdakı vəzifə qarşıya qoyulur: dövlətin milli gücünü qiymətləndirmə mexanizminin hazırlanması. Tədqiqat metodlarından istifadə edilir: müqayisəli təhlil, analiz-sintez və riyazi modelləşdirmə. Aşağıdakı nəticələr əldə edilmişdir: məqalədə dövlətin milli gücünün formalaşmasının struktur təhlili əsasında milli gücün hesablanmasının daha təkmil düsturu irəli sürülür ($MG = Əh + Ər + ETT \times (İq + HG) + Sİ + GA$) və Azərbaycan Respublikasının gücü qeyri-səlis qiymətləndirmə metodu əsasında qənaətbəxş güc kimi xarakterizə olunur. Yekun nəticə: hər bir dövlətin öz daxili və xarici siyasətini mükəmməlləşdirə və siyasi kursunu daha real əsaslarla effektiv şəkildə gerçəkləşdirə bilməsi üçün real milli gücünü qiymətləndirməsi zəruridir.

Açar sözlər: milli güc, əhali, ərazi, iqtisadiyyat, hərbi güc, siyasi iradə, geosiyasi amil, elmi-texniki tərəqqi, qeyri-səlis qiymətləndirmə

Giriş

Müasir dünya Azərbaycan Respublikası və onun vətəndaşlarının maraqlarına dərindən təsir edən əsaslı və dinamik dəyişikliklər yaşayır. Azərbaycan Respublikası bu prosesin fəal iştirakçısı və bütün sahələrdə mühüm potensiala və resurslara malik olmaqla yanaşı, dünyanın aparıcı dövlətləri ilə intensiv əlaqələr saxlayaraq regionda yeni reallıqların formalaşmasına mühüm təsir göstərir.

Milli maraqların təmin edilməsi üçün güclü təməli olan mili dövlətin mövcudluğu vacib şərtdir. Hər bir dövlətin milli təhlükəsizliyinin təminatı onun milli maraqları ilə, onların formalaşması isə bir çox faktorlarla (xüsusilə, milli dəyərlərlə) birbaşa bağlıdır və onun inkişafı uzun tarixi prosesdir. Milli maraqlar prosesi iqtisadi, sosial, etnopsixologiya və digər amillərin əsasında formalaşır [1, s.65] və dövlətin milli gücü ilə sıx bağlıdır.

Beynəlxalq münasibətlər sistemində hər bir ölkənin digərləri ilə yanaşı yaşamaq və bu zaman milli kimliyini qorumaqla müstəqil inkişafetmə imkanı onun milli gücü ilə şərtlənir. Bu baxımdan ölkənin milli gücünün qiymətləndirilməsi mühüm nəzəri və praktik əhəmiyyətə malikdir.

Digər siyasi-iqtisadi göstəricilər kimi milli gücün də qiymətləndirilməsi üçün müəyyən ölçmə sistemi tətbiq olunmalıdır. Nəzərdən keçirilən ölkənin dünya arenasındakı rolundan və milli təhlükəsizliyə qarşı ehtimal olunan təhdidlərdən çıxış edərək, belə fikir söyləmək olar ki, milli gücün qiymətləndirilməsi lokal və nisbi xarakter daşıya bilər. Yəni dünya hegemonluğuna iddialı dövlətlərin milli gücünün qiymətləndirilməsi onların resurs və potensiallarının ümumdünya göstəriciləri ilə həyata keçirilə bilər (məsələn, ölkənin hərbi xərclərinin dünya ölkələrinin ümumi xərclərində payı və s.).

Bu tədqiqatda həmin amilləri də nəzərə alaraq, milli gücün hesablanmasının daha mükəmməl düsturu təklif edilir:

$$\text{MG} = \text{Əh} + \text{Ər} + \text{ETT} \times (\text{İq} + \text{HG}) + \text{Sİ} + \text{GA}. \quad (1)$$

Burada,
- MG – milli gücü;
- Əh – əhalini;
- Ər – ərazini;
- ETT – elmi-texniki tərəqqini;
- İq – iqtisadiyyatı;
- HG – hərbi gücü;
- Sİ – siyasi iradəni;
- GA – geosiyasi amilləri ifadə edir.

Baxılan düsturda Əh, Ər, İq, HG, ETT, Sİ, GA ilə milli gücün formalaşmasına təsir edən əsas faktorlar sırasında əhalinin, ərazinin, iqtisadiyyatın, hərbi gücün, siyasi iradənin və geosiyasi amillərin aparıcı rola malik olduğu nəzərdə tutulmuşdur. ETT əmsalı elmi-texniki tərəqqinin səviyyəsini səciyyələndirir və göstərir ki, onun qiyməti yüksək olduqda, iqtisadi və hərbi güc faktorları milli gücün qiymətini əhəmiyyətli dərəcədə artırır.

R.S. Klayn [2], Ə. Davudoğlu [3], S. Qasımov [4] və digər alimlərin təklif etdiyi milli gücün düsturları kimi (1) düsturu da fəlsəfi xarakterə malikdir. Qeyd edilməlidir ki, bu düstura daxil olan komponentlərin ədədi qiymətləndirilməsi baxılan ölkənin milli gücünü hesablamağa və digər ölkələrlə müqayisə etməyə imkan verə bilər.

Bu məqalədə milli gücün hesablanması və müqayisəsi üçün qeyri-səlis qiymətləndirmə metodundan (şkalasından) istifadə etməklə müxtəlif faktorların ekspert rəyi əsasında müəyyənləşdirilən qiyməti əsasında milli gücü qiymətləndirmə mexanizmi təklif olunur.

Milli gücə təsir edən amillərin linqvistik dəyişənlərlə qiymətləndirilməsi

Humanitar elmlər sahəsində ənənəvi göstəricilərin ədədi qiymətləndirilməsi aktual olmadığından milli gücün hesablanması məqsədilə qeyri-səlis çoxluqlar nəzəriyyəsinin elementlərindən istifadə edilə bilər (məs., [5; 6]).

Qiymətləndirmə sisteminin əsasını tədqiqat obyektinə uyğun olaraq, miqyas və ya prioritetlər sistemi və onların müəyyənləşdirmə mexanizmi təşkil edir. Qeyri-səlis qiymətləndirmə, ilk növbədə ictimai-siyasi mülahizələrə söykənən məntiq əsasında qiymətləndirmə şkalasının təyin olunmasını nəzərdə tutur. Bu tip şkala universal, yaxud tədqiqat mövzusunun spesifikasına uyğun təyin oluna bilər. Tədqiqat obyektinin mahiyyətindən asılı olaraq, bu şkalanın dərəcələnmə, yaxud səviyyələndirmə şkalası şəklində tərtib edilməsi mümkündür.

Aşağıda (1) düsturuna daxil olan hər bir faktor linqvistik qiymətlər adlanan "yüksək", "orta", "kafi", "zəif" və "çox zəif" kimi beş səviyyə üzrə qiymətləndirilir.

Əhali faktoru. Bu faktorun milli gücə təsiri gənc və əmək qabiliyyətli əhalinin sayı, əhalinin ümumi artımda tempi, nikah və boşanma və s. göstəriciləri əsasında təsbit olunur.

2023-cü ildə Azərbaycan Respublikası əhalisinin sayı 10127.1 nəfər artmışdır. Gənc və əmək qabiliyyətli əhalinin sayında və ümumi artımda inkişaf meyillərinə (təbii artım) baxmayaraq, artım tempində azalma qeydə alınır. Azərbaycan Respublikasının əhalisinə əsas mənfi təsirlər isə nikah və boşanma göstəricilərindədir. Belə ki, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-noyabr ayları ərzində 49549 nikah və 19761 boşanma halı qeydə alınmışdır. Belə ki, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq, 6.2-dən 5.3-ə düşmüş, boşanmaların sayı isə 1.6-dan 2.1-ə qədər artmışdır [7].

2023-cü ilin 9 ayı ərzində ölkəyə 1 milyon 536 min 378 nəfər giriş, 1 milyon 533 min 47 nəfər isə çıxış etmişdir. Bu dövr ərzində 283 min 21 nəfər olduğu yer üzrə qeydiyyata alınmışdır. Məlumata görə, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2023-cü il ölkə üzrə giriş-çıxış və olduğu yer üzrə qeydiyyat göstəricisi azalmışdır [8].

Beləliklə, Azərbaycan Respublikasının milli gücünün formalaşmasına təsir edən əhali faktoru "orta" linqvistik qiyməti ilə xarakterizə oluna bilər.

Ərazi faktoru. Bu faktorun milli gücə təsiri dövlətin geostrateji mövqeyi, nəqliyyat-kommunikasiya imkanları, zəngin yeraltı və yerüstü sərvətlərə malik olması, geosiyasi dəyərinin artması, ərazi və əhalisinin bir qisminin ölkənin materik hissəsi ilə birbaşa əlaqəsinin olmaması, dost olmayan dövlətlərin əhatəsində yerləşməsi kimi göstəricilərin əsasında təsbit olunur.

Azərbaycan Respublikasının geostrateji mövqeyinin əsas göstəriciləri onun 86.6 min kvadrat kilometr quru, 80 min kvadrat kilometr Xəzər dənizindəki milli su sektoruna, Avropa və Asiyanı birləşdirən avtomobil, dəmir yolu və su nəqliyyatı vasitəsilə Rusiya, Türkiyə, İran, Gürcüstan, Ermənistan, Orta Asiya və Qara dəniz bölgəsi ölkələri ilə nəqliyyat-kommunikasiya imkanlarına, həmçinin gözəl təbiətə, əlverişli iqlim şəraitinə, zəngin yeraltı və yerüstü sərvətlərə malik olmasıdır [9]. Qlobal aləmdə gedən son proseslər (Rusiya–Ukrayna müharibəsi) Orta Dəhliz üzərində yerləşən, böyük tarixi coğrafiyasından (Cənubi Azərbaycandan) zorla qoparılan və dünya azərbaycanlılarını bir araya gətirən yeganə vətən torpağı missiyasını yerinə yetirən Azərbaycan Respublikasının geosiyasi dəyərinin artmasına və xarici ölkələrlə münasibətlərinə müsbət təsir göstərən əsas amillərdən sayılır.

Bununla yanaşı, mürəkkəb, qeyri-sabit, dinamik, dəyişən və xarici təsirlərə açıq coğrafiyada yerləşən Azərbaycan Respublikasının dünya okeanlarına birbaşa çıxışının olmaması, kiçik əraziyə malik olması (coğrafi dərinliyinin olmaması), ərazi (5502.75 kvadrat km) və əhalisinin (461.5 min nəfər) (Naxçıvan Muxtar Respublikası) bir qisminin ölkənin materik hissəsi ilə birbaşa əlaqəsinin olmaması, Rusiya, İran və Ermənistan kimi dost olmayan dövlətlərin əhatəsində yerləşməsi həyati vacib çatışmazlıqlarındandır və onun güc faktoruna mənfi təsir göstərən əsas amillərdəndir.

Beləliklə, Azərbaycan Respublikası milli gücünün formalaşmasına təsir edən ərazi faktoru coğrafi güc olaraq, "kafi" linqvistik qiyməti ilə xarakterizə oluna bilər.

İqtisadiyyat faktoru. Bu faktorun milli gücə təsiri ümumi daxili məhsulun (ÜDM) həcmi, bank sektoru, strateji valyuta ehtiyatları, ölkəyə qoyulan investisiyaların ümumi həcmi, əməkhaqqı və pensiya göstəriciləri əsasında təsbit olunur.

Beynəlxalq Valyuta Fondu (BVF) 2023-cü ildə Azərbaycan Respublikasının ÜDM-nin artımını 2.4%, 2024–2028-ci illərdə isə illik 2.3% səviyyəsində proqnozlaşdırsa da [10], 2023-cü ildə ölkədə istehsal edilmiş ÜDM-nin həcmi əvvəlkinə nisbətən 1.1% artaraq, 123 005,5 milyon manat, neft sektorunda istehsalın həcmi 2022-ci illə müqayisədə 1.7% azalaraq, 45 343.7 milyon manat, qeyri-neft sektoru istehsalın həcmi 2022-ci illə müqayisədə 3.7% artaraq, 77 661.8 milyon manat və 2022-ci ildə qeyri-neft sektorunda yaradılmış ÜDM-nin artım tempi 9.1% olmuşdur [11, s.2].

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın bank sektorunun göstəricilərinin davamlı yaxşılaşmasını qeyd edir [12]. Belə ki, 2022-ci ildə bank sektorunda 914.5 milyon, 2023-cü ildə isə 18.5% yəni 1 milyard 84.2 milyon manat xalis mənfəət əldə etmişdir.

2023-cü ilin sonuna Azərbaycan Respublikasının strateji valyuta ehtiyatları 68.5 milyard ABŞ dolları təşkil etmişdir. Bu isə 2022-ci illə müqayisədə 17% çoxdur. 2022-ci il də daxil olmaqla, Azərbaycan Respublikası Mərkəzi Bankının strateji valyuta ehtiyatları 29.1% artaraq, 11.6 milyard ABŞ dollarına çatmışdır [13]. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəyə qoyulan investisiyaların ümumi həcmi 300 milyard dollardan çox olmuşdur ki, bunun da təxminən 200 milyard dollarını qeyri-neft sektoruna qoyulan investisiyalar təşkil etmişdir [14].

Son 5 ildə ölkədə sosial sahədə minimum əməkhaqqı 2.7 dəfə artırılaraq, 130 manatdan 345 manata, minimum pensiya isə 2.5 dəfə artırılaraq, 110 manatdan 280 manata çatdırılmışdır [15]. Ölkədə ehtiyac meyarının 270 AZN olması, həmçinin sadalanan artımlar iqtisadi göstəricilərlə müqayisədə mənfi hal kimi qiymətləndirilə bilər.

Yuxarıda qeyd edilən faktorlarla yanaşı, ölkə iqtisadiyyatının karbohidrogen sektorundan yüksək asılılığının davam etməsi, bank sisteminin yüksək səviyyədə dollarlaşması və iqtisadi siyasətin proqnozlaşdırılmasının qeyri-kafi səviyyəsini mənfi hal kimi qeyd etmək mümkündür [12].

Beləliklə, Azərbaycan Respublikası üzrə milli gücün formalaşmasına təsir edən iqtisadiyyat faktoru "kafi" linqvistik qiyməti ilə xarakterizə oluna bilər.

Hərbi güc faktoru. Bu faktorun milli gücə təsiri orduda əsgər sayı, dövlətin təhlükəsizlik və müdafiə xərcləri (maliyyə vəziyyəti), Hərbi Dəniz Qüvvələri (HDQ) və Hərbi Hava Qüvvələrinin (HHQ) reytinqi, silah sənayesindəki texnoloji inkişafı, maddi-texniki imkanları, çevikliyi və Müdafiə Sənayesi Nazirliyinin hərbi təyinatlı məhsulun istehsalı kimi göstəricilərin əsasında təsbit olunur.

Azərbaycan Ordusu Quru Qoşunları (QQ), HHQ və HDQ-dən təşkil olunmuşdur. Azərbaycan Ordusunun şəxsi heyətinin tərkibi 126 min fəal və 300 min ehtiyatda olan hərbçilərdən ibarətdir [16].

Azərbaycan Respublikası hər il davamlı olaraq təhlükəsizlik və müdafiə xərclərini artırır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutuna (SIPRI) istinadən 2021-ci ildə dünya üzrə Azərbaycan Respublikası ÜDM-də hərbi xərclərin ən yüksək payına malik ölkələr arasında beşinci yerdədir. Belə ki, hazırda SIPRI-nin məlumatına əsasən Azərbaycan Respublikasının hərbi xərclərinin ÜDM-də payı 5.3% təşkil edir [17]. SIPRI-dən hərbi xərclərə dair məlumatlar, sülhməramlı qüvvələr də daxil olmaqla, silahlı qüvvələr üçün bütün cari və əsaslı xərcləri özündə əks etdirən NATO tərifindən əldə edilmişdir.

Beynəlxalq hərbi gücə dair məlumatlar toplayan ABŞ-ın "Global Firepower" saytı 2023-cü il üçün bir çox meyarlar üzrə qiymətləndirmə əsasında hazırladığı siyahıda Azərbaycan Respublikasının HDQ 67-ci [18] və HHQ isə 57-ci yerdə qərarlaşmışdır [19].

"Global Firepower" 2023-cü ildə ən yüksək hərbi gücə malik ölkələrin siyahısında Azərbaycan Respublikasının Silahlı Qüvvələrini 145 ölkə içində 59-cu yerdə qiymətləndirmişdir [20]. Reytinqin tərtib olunması zamanı orduların silah sənayesindəki texnoloji inkişafı, maliyyə vəziyyəti, maddi-texniki imkanları və çevikliyi kimi cəhətlər əsas götürülür.

Hərbi faktorun milli gücə təsirini qiymətləndirmək üçün onu şərtləndirən amillərə diqqət edək. Bu amillər sırasında ölkənin ümumi əhali sayında silahlı qüvvələrin payı, hərbçilər arasında zabitlərin rolu, müasir tank və zirehli texnikanın miqdarı, ümum ordunun şəxsi heyətinin ruh yüksəkliyi, idarəetmə və silah arsenalında müasir texnologiyalarla təchizatın səviyyəsi və digərləri vardır.

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi və hərbi potensialın artırılması ilə bağlı tədbirlərin davam etdirilməsi üçün 2024-cü ilin dövlət büdcəsində 3 milyard manat maliyyə təminatının yaradılması nəzərdə tutulur [21]. Bu ədəd 2023-cü ilə görə 6% çoxdur.

Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyində 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir ki, bu da İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun tələbatının böyük ölçüdə daxili istehsal hesabına təmin edilməsini mümkün etdi və yerli istehsal olan müasir silah-sursat və hərbi texnika, məhz 44 günlük Vətən müharibəsində ilk dəfə real döyüş vəziyyətində uğurla sınaqdan keçdi və Azərbaycan Ordusunun zəfər qazanmasında, həmçinin onun zəngin döyüş təcrübəsi əldə etməsində əhəmiyyətli rol oynadı. Bu faktor ordunun ümumi gücünə müsbət təsir edən vacib amillərdəndir.

Sülhməramlı qüvvələr də daxil olmaqla, silahlı qüvvələr üçün ayrılan bütün cari və əsaslı xərclər, silah sənayesindəki texnoloji inkişaf, maliyyə vəziyyəti, maddi-texniki imkan və çevikliyi kimi cəhətləri qalib Azərbaycan Ordusunun hərbi gücünü "orta" qiymətləndirməyə əsas verir.

Beləliklə, Azərbaycan Respublikası üzrə milli gücün formalaşmasına təsir edən hərbi güc faktoru "orta" linqvistik qiyməti ilə xarakterizə oluna bilər.

Geosiyasi amillər. Bu faktorun milli gücə təsiri Cənubi Qafqazda konfiqurasiyanın dəyişməsi, regionda Türkiyə–Rusiya tandemi, Rusiya–Ukrayna münaqişəsi, Qərbin Rusiya və İrana sanksiyaları, Avropa dövlətlərinin Azərbaycan Respublikasının karbohidrogen resurslarına ehtiyacının artması, dövlətin əsas geosiyasi resursları, diaspora və lobbi fəaliyyəti kimi faktorların əsasında təsbit olunur.
Cənubi Qafqaz regionunda son 30 ildə konfiqurasiyanın dəyişməsi və Türkiyə–Rusiya tandemi Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsində qələbə qazanmasını təmin edən əsas xarici siyasi amil olmuşdur. Əgər bu cütlükdən Rusiya Federasiyası kənarlaşsa, o zaman tandem dağılacaq və bu faktor regionda yeni geosiyasi konfiqurasiyanın yaranmasına səbəb olacaqdır [22].

Rusiya–Ukrayna münaqişəsi, Rusiya və İranın Qərbin ağır sanksiyalarına məruz qalması amilləri geosiyasi sferada Azərbaycan Respublikasının mövqeyini gücləndirir. Belə ki, Qərbin Rusiya və İranın neft-qaz sektoruna tətbiq etdiyi sanksiya və embarqo siyasəti Avropanın Azərbaycan Respublikasının karbohidrogen resurslarına ehtiyacının artması faktoru rəsmi Bakının geosiyasi mövqeyinə müsbət təsir göstərir.

Qlobal layihələrin həyata keçirilməsində və beynəlxalq iqtisadi-siyasi proseslərdə Azərbaycanın aparıcı qüvvəyə çevrilməsi rəsmi Bakının mövqeyinin güclənməsi ilə müşayiət olunur və onu qlobal miqyasda qaz ixrac edən ölkəyə çevirir [23; s.88].

Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatının, Türk Dövlətləri Təşkilatının, Qoşulmama Hərəkatının aktiv iştirakçısı olması, habelə Türkiyə, Pakistan və İsrail kimi müttəfiqlərə malik olması dövlətin əsas geosiyasi resurslarından sayılır.

Azərbaycan Respublikasının xarici ölkələrdə diasporasının yetərli qədər təsirli olmaması, həmçinin coğrafi baxımdan Rusiya, İran və Ermənistan kimi dövlətlərin əhatəsində yerləşməsi dövlətin milli gücünə mənfi təsir edən geosiyasi amillərdən hesab edilir.

Beləliklə, Azərbaycan Respublikası üzrə milli gücün formalaşmasına təsir edən geosiyasi amillərin rolu "orta" linqvistik qiyməti ilə xarakterizə oluna bilər.

Siyasi iradə. Bu faktorun milli gücə təsiri xarici siyasi təzyiq, müstəqil siyasət aparması, işğal faktı ilə barışmaması, ölkə ərazisində uzun müddət mövcud olan separatizmə son qoyması, Azərbaycanın dövlət sərhədlərinin və ərazi bütövlüyünün bərpa etməsi kimi göstəricilərin əsasında təsbit olunur.

Siyasi iradə siyasi şüurun və davranışın təzahür forması, subyektin daxili və xarici maneələri dəf etməklə, şüurlu şəkildə qarşıya qoyulmuş məqsədləri ardıcıl surətdə həyata keçirmək bacarığıdır. Dövlət başçılarının siyasi iradəsinin olmaması çox vaxt siyasi məsələlərin öz həllini tapmamasına səbəb olur.

Dövlətin xarici siyasəti daxili siyasətin davamıdır. Hazırda Azərbaycan Respublikasının xarici siyasəti öz bütövlüyü və müstəqilliyi ilə seçilir. Bunun da əsas səbəbi, təbii ki, güclü siyasi iradə faktorunun olmasıdır [24]. Azərbaycan Respublikası dünyada davam edən barışmaz geosiyasi mübarizə arenasında bütün güc mərkəzlərindən məsafəli qalmaqla, çoxvektorlu və müstəqil siyasət yeridir.

Prezident İlham Əliyevin siyasi iradəsi Azərbaycan Respublikasının Avrasiyanın ən uğurlu ölkələrindən biri kimi formalaşmasında həlledici amil olmuşdur. Bu barədə Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko bildirmişdir: *"Azərbaycan Respublikasına misli görünməmiş xarici siyasi təzyiqlər edilməsinə baxmayaraq, bu cəhdlər uğurlu olmamışdır. Ölkədə vəziyyəti sarsıtmaq, Azərbaycan Respublikasına təsir etmək, Bakını manipulyasiya etmək üçün dövlətin tərkibində separatçı anklavın saxlanmasına yönəlmiş çox güclü mövqelər mövcud olsa da, 19-20 sentyabr 2023-cü ildə 24 saatdan az müddətdə Azərbaycan Respublikası lokal antiterror tədbiri keçirməklə, tam hərbi qələbə əldə etməsi reallığı rəqiblərini rəsmi Bakıya qarşı xarici təsir rıçaqlarından məhrum etdi"* [25].

Azərbaycan Respublikası ərazilərinin 20%-i işğal altında olduğu dövrdə İ. Əliyevə işğal faktı ilə barışın mesajları verilirdi [26]. Lakin o, bütün təzyiqlərə sinə gələrək dövlətin milli maraqlarını güzəştə

getməyərək, prinsipial mövqeyində qalaraq və güclü iradə nümayiş etdirərək, 30 il ərzində həll edilməyən Ermənistan–Azərbaycan münaqişəsini qısa zaman ərzində kökündən həll etmiş və ölkə ərazisində uzun müddət mövcud olan separatizmə son qoymuşdur [27]. Bununla da Azərbaycanın dövlət sərhədlərinin və ərazi bütövlüyünün bərpasına və regionda geosiyasi reallıqların Azərbaycan Respublikasının xeyrinə dəyişməsinə nail olmuşdur.

Beləliklə, Azərbaycan Respublikası üzrə milli gücün formalaşmasına təsir edən siyasi iradənin rolu "yüksək" linqvistik qiyməti ilə xarakterizə oluna bilər.

Elmi-texniki tərəqqi faktorunun milli gücün formalaşmasına təsiri ixtira və patentlərin göstəricilərinin dinamikası, dövlət büdcəsindən təhsil sektoruna ayrılan vəsait, ölkədə professor-müəllim heyətinin sayı, tam və orta təhsilli əhalinin sayı, Azərbaycan Respublikası alimlərinin beynəlxalq indeksli elmi jurnallarda dərc olunan məqalələr üzrə reytinq göstəriciləri əsasında təsbit olunur.

Elmi-texniki tərəqqi – elmin nailiyyətlərindən istifadə etməklə istehsalın texniki səviyyəsinin yüksəldilməsi, istehsal proseslərinin səmərə və keyfiyyətinin artırılması, insanların tələbatlarının daha yaxşı ödənilməsi məqsədilə müxtəlif sahələrdə elm, texnika və texnologiyanın tətbiqidir.

SSRİ-nin süqutundan sonra (xüsusilə, 1990-cı illərdə) alimlərin və yüksəkixtisaslı mütəxəssislərin elmi sferadan uzaqlaşaraq, yüksəkgəlirli başqa fəaliyyət sahələrinə axın etməsi, eyni zamanda beyin axınının xarici ölkələrə miqrasiyası, elmin nüfuzdan düşməsi və elmtutumlu istehsal müəssisələrinin tamamilə və ya qismən fəaliyyətinin dayandırması və s. kimi problemlər ölkədə elmin inkişafına mənfi təsir göstərmişdir.

Lakin 2000-ci ildə bu göstərici Azərbaycan Respublikası üçün 1.8%-ə qədər azalmışdır. Bu səbəbdən Dünya Bankının iqtisadçıları Azərbaycanı Respublikasını beyin axınının ən aşağı səviyyədə reallaşdığı ölkələr siyahısına daxil etmişdir [28].

Hazırda ölkədə ETT-nin yüksək səviyyədə olmamasının əsas səbəbi bu sferada tətbiq edilən stimullaşdırma sisteminin müasir tələblərə cavab verməməsi faktı dayanır. Dövlət büdcəsindən elmin inkişafına ayrılan vəsaitin optimal səviyyədə yüksəldilməsi bu sahənin populyarlaşmasına, elmi-tədqiqat işlərinin kəmiyyət və keyfiyyəti göstəricilərinin yüksəldilməsinə və gənc mütəxəssislər arasında elmə münasibətin radikal şəkildə dəyişməsinə gətirib çıxara bilər.

Azərbaycan Respublikasında 2010-2019-cu illər üzrə ixtiralarla bağlı mütləq göstəricilərin dinamikası düşməkdədir. Qüvvədə olan ixtira patentlərin sayı 2010-cu illə (496) müqayisədə 2019-cu ildə (236) aşağı düşmüşdür ki, bu da ixtiraçıların mühafizə sənədlərinin qüvvədə saxlanılma maraqlarının olmadığını və mövcud patentlərə tələbatın zəif olduğunu göstərir [29, s.16].

2024-cü il dövlət büdcəsindən təhsil bölməsi üzrə 102 tədbiri əhatə edən 10 proqramın həyata keçirilməsi üçün 4549.9 milyon manat məbləğində vəsaitin yönələcəyi proqnozlaşdırılıb. Bu ədəd 2023-cü illə müqayisədə 3.2% çoxdur [30].

Qeyd etmək lazımdır ki, Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2021-2022-ci tədris ili üçün ölkədə professor-müəllim heyətinin sayı 14393 nəfər təşkil edir [31]. 2023-cü il nəticələrinin əsasında Azərbaycan Respublikasının alimləri beynəlxalq indeksli elmi jurnallarda məqalə reytinqinə görə, "Scopus h-index 166, Web of Science h-index 145, Google Scholar h-index186"-cı yerdə qərarlaşmışdır [32]. Azərbaycan Respublikasında 15 və yuxarı yaşda olan əhalinin hər 1000 nəfərdən 974-nün tam və orta təhsilli olması [33] faktoru müsbət göstərici sayılır.

Beləliklə, Azərbaycan Respublikasının iqtisadi və hərbi potensialı üzrə elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə əmsalı "kiçik" linqvistik dəyişəni ilə ifadə oluna bilər.

Milli gücün qeyri-səlis qiymətləndirilməsi

Milli gücün qiymətləndirilməsində yuxarıda təklif olunan (1) düsturuna riyazi məna vermək üçün ilk növbədə linqvistik dəyişənlərə uyğun qeyri-səlis ədədləri qurmaq lazımdır. Bu addım isə qeyri-səlisləşdirmə (fuzzification) adlanır. Mahiyyətinə görə, baxılan bütün faktorlar (əhali, ərazi, iqtisadiyyat, hərbi güc, siyasi iradə, geosiyasi amillər), həmçinin elmi-texniki tərəqqidən istifadə əmsalının daşıyıcısı eyni $[-0.25, +1.25]$ intervalında verilən qeyri-səlis ədədlərlə təyin edilə bilər.

Göstərilən faktorların qiymətləndirilməsində istifadə olunan "yüksək", "orta", "kafi", "zəif" və "çox zəif" linqvistik qiymətlərinə elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə əmsalının qiymətləndirilməsi üçün istifadə olunan "böyük", "yaxşı", "qənaətbəxş", "kiçik" və "çox az" linqvistik qiymətlərini ekvivalent hesab etmək olar. Ona görə də onlara fərq qoymadan sadalanan linqvistik dəyişənlərə uyğun, qeyri-səlis ədədlərin mənsubiyyət funksiyalarını qurmaq mümkündür. Burada sadəlik üçün mənsubiyyət funksiyaları hissə-hissə xətti funksiya kimi verilir.



Şəkil 1. "Kafi" linqvistik qiymətinə uyğun qeyri-səlis ədədin mənsubiyyət funksiyasının qrafiki

"Yüksək" (böyük), "orta" (yaxşı), "kafi" (kafi), "zəif" (kiçik) və "çox zəif" (çox az) linqvistik qiymətlərinə uyğun olaraq, mənsubiyyət funksiyasını $j = 5, 4, 3, 2, 1$ kimi nömrələyirik. j ədədinin mənsubiyyət funksiyası aşağıdakı formada təyin edilir:

$$\mu_j(x) = \begin{cases} 0, & x \le (j-2)/4, \\ 4x + 2 - j, & (j-2)/4 < x \le (j-1)/4, \\ j - 4x, & (j-1)/4 < x \le j/4, \\ 0, & j/4 < x. \end{cases}$$

Nümunə üçün "kafi" qiymətinə uyğun qeyri-səlis ədədin mənsubiyyət funksiyasının qrafiki şəkil 1-də verilmişdir. (1) düsturunun komponentləri üzrə yuxarıda şərh olunmuş ekspert qiymətlərindən çıxış edərək, milli gücün qeyri-səlis ifadəsi üçün aşağıdakı mənsubiyyət funksiyası yazıla bilər:

$$\mu(x) = \mu_4(x) + \mu_3(x) + \mu_2(x) \times [\mu_3(x) + \mu_4(x)] + \mu_4(x) + \mu_5(x). \quad (2)$$

$\mu(x)$ funksiyasının qeyri-səlis ədədlər üzərində hesabi əməliyyatlar qaydasına uyğun olaraq, hesablanmış ifadəsi aşağıdakı şəkildə yazılır [5, s.97]:

$$\mu(x) = \begin{cases} 0, & x \le 2, \\ \sqrt{6.5625 + 8x} - 4.75, & 2 < x \le 3.3125, \\ -\sqrt{6.5625 + 8x} + 6.75, & 3.3125 < x \le 4.875, \\ 0, & 4.875 < x. \end{cases} \quad (3)$$



Şəkil 2. (2) düsturu üzrə hesablanan qeyri-səlis ədədin mənsubiyyət funksiyasının təsviri

Əyanilik üçün onun qrafiki şəkil 2-də verilir və burada görmək olar ki, $\mu(x)$ funksiyalarının daşıyıcısı $[-0.25, +6.25]$ intervalında təyin olunur. Bu intervalı əhatə edən qiymətləndirmə şkalası aşağıdakı kimi daxil edilmişdir:

$$\text{linqvistik dəyişən} = \begin{cases} \text{"çox zəif güc"} & əgər \quad \mu_o \leq 1, \\ \text{"zəif güc"} & əgər \quad 1 < \mu_o \leq 2, \\ \text{"orta güc"} & əgər \quad 2 < \mu_o \leq 3, \\ \text{"qənaətbəxş"} & əgər \quad 3 < \mu_o \leq 4, \\ \text{"yüksək güc"} & əgər \quad 4 < \mu_o \leq 5, \\ \text{"çox yüksək güc"} & əgər \quad 5 < \mu_o, \end{cases} \tag{4}$$

Nəticənin (4) şkalası üzrə linqvistik qiymətlərlə ifadəsi üçün (3) ədədinin defazzifikasiyası həyata keçirilməlidir. Bu məqsədlə mənsubiyyət funksiyasının məhdudlaşdırdığı intervalın mərkəzinə nəzərən defazzifikasiya tətbiq edilsə, (2) üzrə hesablanan ədədə uyğun olaraq, $\mu_o \approx 3.375$ alınır. Bu isə (4) şkalasına uyğun olaraq, qiymətləndirilən "qənaətbəxş" güc kimi xarakterizə olunur.

Beləliklə, milli gücün qiymətləndirilməsi üçün təklif olunan (1) formulu qiymətləndirilmə xarakterinə malik düstur olur.

Nəticə

Məqalədə dövlətin milli gücünün formalaşma strukturu – əhali, ərazi, iqtisadiyyat, hərbi güc, elmi-texniki tərəqqi, siyasi iradə və geosiyasi amillərin təhlili əsasında milli gücün hesablanmasının daha təkmil düsturu irəli sürülür və dövlətin gücü qeyri-səlis qiymətləndirmə metodu əsasında qənaətbəxş güc kimi xarakterizə olunur.

Həmçinin dövlətin milli gücünün əsasını təşkil edən bütün komponentlərin paralel və balanslı inkişafı daxili sabitliyi təmin edir, ölkənin beynəlxalq nüfuzunu möhkəmləndirir, onu regional güc mərkəzinə çevirir və qlobal miqyasdakı rolunu artırır.

Beləliklə, hər bir dövlət milli gücünü qiymətləndirməklə, öz daxili və xarici siyasətini mükəmməlişdirə və siyasi kursunu daha real əsaslarla gerçəkləşdirə bilər. Real milli gücə əsaslanmayan dövlət siyasəti təmin oluna bilməz və onu inkişafa deyil, tənəzzülə sürükləyər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Məmmədzadə, V., İmamverdiyev, E. Milli maraqlar milli təhlükəsizliyin təmin olunması kontekstində // – Bakı: Elmi Əsərlər jurnalı, − 2023. № 3(21).− s. 65-69.
2. Cline, R. World Power Assessment 1977: A Calculus of Strategic Drift // – Colorado: Westview Press, − 1977. − 206 p.
3. Davutoğlu, A. Strateji derinlik. Türkiye'nin uluslararası konumu // – İstanbul: Kurtiş Matbaacılık, – 2010. – 584 s.
4. Qasımov, S. Azərbaycan Respublikasının Milli Maraqları Sistemində geosiyasi amil / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: – 2017. – 29 s.
5. Klir, G.J., Bo, Y.. Fuzzy sets and fuzzy logic: theory and applications // – New Jersey: Prentice hall, –1995. – 574 p.
6. Emami, M.R., Turksen. I.B., Goldenberg, A.A. A unified parameterized formulation of reasoning in fuzzy modeling and control // – Fuzzy Sets and Systems, − 1999. − V. 108, − p. 59-81.
7. 2023-cü ilin 11 ayı ərzində qeydə alınan nikah və boşanmaların sayı bəlli oldu: [Elektron resurs] / – 17 yanvar 2024. URL: https://1news.az/az/news/20240117124439780-2023-cu-ilin-11-ayi-erzinde-qeyde-alinan-nikah-ve-boshanmalarin-sayi-belli-oldu
8. Bu il Azərbaycana giriş və ölkədən çıxış üzrə statistika açıqlanıb: [Elektron resurs] / – 16 noyabr 2023. URL: https://naxcivanxeberleri.com/public/index.php/bloq/bu-il-azerbaycana-giris-ve-olkeden-cixis-uzre-statistika-aciqlanib-24651

9. Həsənov, Ə. Azərbaycanın Milli Dövlət Quruculuğu və Geosiyasi İnkişaf Xarakteristikası: Keçilmiş Yol, Mövcud İmkanlar və Perspektivlər. // – Bakı: Geosiyasət jurnalı, − 2016. № 06 (36). – s.3-13.

10. Azerbaijan Staff Concluding Statement of the 2023 Article IV Mission: [Electronic resource] / – December 11, 2023. URL: https://www.imf.org/en/News/Articles/2023/12/11/mcs121123-azerbaijan-staff-concluding-statement-of-the-2023-article-iv-mission

11. Sənayenin əsas göstəriciləri: [Elektron resurs] / – URL:https://economy.gov.az/storage/files/files/6287/qGBwjvM7XWstYF9PdAnyzDCFxBfmBEKxhpxuMnvp.pdf

12. Fitch подтвердило рейтинг Азербайджана на уровне "BB+": [Электронный ресурс] / – 1 апреля, 2023. URL: https://www.interfax.ru/business/893938

13. Обнародована сумма стратегических валютных резервов Азербайджана: [Электронный ресурс] / – 31 января, 2024. URL: https://report.az/ru/finansy/obnarodovana-summa-strategicheskih-valyutnyh-rezervov-azerbajdzhana/

14. Президент Ильхам Алиев: Общий объем инвестиций в Азербайджан превысил 300 млрд долларов: [Электронный ресурс] / – 26 октябрь, 2023. URL:https://azertag.az/ru/xeber/prezident_ilham_aliev_obshchii_obem_investicii_v_azerbaidzhan_prevysil_300_mlrd_dollarov-2802391

15. Minimum əməkhaqqı 345 manata çatdırıldı, Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı: [Elektron resurs] / – 5 yanvar 2023. URL: https://sosial.gov.az/media/xeberler/Minimum-emekhaqqi-345-manata-catdirildi-Vahid-Tarif-Cedveli-uzre-emekhaqlari-artirildi_644009?hl=az

16. Azerbaijan leader in South Caucasus for military power index: [Electronic resource] / – January 18, 2021. URL: https://www.azernews.az/nation/175160.html

17. SIPRI Fact Sheet. Trends In World Military Expenditure: [Electronic resource] / – April, 2022. URL: https://www.sipri.org/sites/default/files/2022-04/fs_2204_milex_2021_0.pdf

18. Dünyanın ən güclü donanmalarının 2023-cü il siyahısı – Türkiyə və Azərbaycan donanmaları neçənci yerdədir?: [Elektron resurs] / – 6 noyabr 2023. URL: https://ordu.az/az/news/290088/dunyanin-en-guclu-donanmalarinin-2023-cu-il-siyahisi--turkiye-ve-azerbaycan-donanmalari-necenci-yerdedir-

19. Hərbi Hava Qüvvələri Reytinqi: [Elektron resurs] / – 18 avqust 2023. URL: https://transqafqaz.com/h%C9%99rbi-hava-quvv%C9%99l%C9%99ri-reytinqi/

20. 2024 Azerbaijan Military Strength: [Electronic resource] / – May 1, 2024. URL: https://www.globalfirepower.com/country-military-strength-detail.php?country_id=azerbaijan

21. Gələn il üçün müdafiə və milli təhlükəsizlik xərcləri açıqlanıb: [Elektron resurs] / – 21 sentyabr 2023. URL:https://azertag.az/xeber/gelen_il_uchun_mudafie_ve_milli_tehlukesizlik_xercleri_achiqlanib-2757235

22. Türkiyə-Rusiya tandemi, qələbəmizi təmin edən əsas xarici siyasi amil oldu –Tofiq Zülfüqarov: [Elektron resurs] / – 4 yanvar 2021. URL: https://visiontv.az/article/turkiye-rusiya-tandemi-qelebemizi-temin-eden-esas-xarici-siyasi-amil-oldu-tofiq-zulfuqarov

23. 23. Məmmədzadə V., İskəndərov X. Azərbaycanın enerji siyasəti və transregional layihələrinin təhlükəsizliyi // – Bakı: Milli Təhlükəsizlik və Hərbi Elmlər jurnalı, − 2019. № 3. Cild 5, − s. 82-90.

24. Речь Ильхама Алиева на пятом совещании руководителей органов дипломатической службы Азербайджана: [Электронный ресурс] / – 7 июля 2014. URL: https://president.az/ru/articles/view/12392

25. Политическая воля Президента Ильхама Алиева стала решающим фактором в становлении Азербайджана одной из самых успешных стран Евразии – Игорь Коротченко: [Электронный ресурс] / – 7 ноября, 2023. URL: https://turkic.world/ru/articles/politics/166554

26. İlham Əliyev: "Biz istənilən halda axıra qədər gedəcəyik, məqsədimiz dəyişməz qalır": [Elektron resurs] / – 11 oktyabr 2020. URL: https://1news.az/az/news/20201011030745817-Ilham-Eliyev-Biz-istenilen-halda-axira-qeder-gedeceyik-meqsedimiz-deyishmez-qalir

27. Президент: Сепаратизму на наших землях положен конец, это – показатель нашей сильной политической воли: [Электронный ресурс] / – 29 сентября 2023. URL:https://report.az/ru/vnutrennyaya-politika/prezident-separatizmu-na-nashih-zemlyah-polozhen-konec-eto-pokazatel-nashej-silnoj-politicheskoj-voli/

28. Dünyada və Azərbaycanda Beyin Axını (Brain Drain, World and Azerbaijan): [Elektron resurs] / – July, 2018. URL:https://www.researchgate.net/publication/326583840_Dunyada_v_Azrbaycanda_Beyin_Axini_Brain_Drain_World_and_Azerbaijan

29. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi. Azərbaycanda ixtiraçılıq və patent analitikası / – Bakı: – 2020. − 88 s.: [Elektron resurs] / URL:https://copat.gov.az/docs/Nesrler/AZE/%C6%8Fqli%20M%C3%BClkiyy%C9%99t/Ixtira%C3%A7%C4%B1l%C4%B1q_v%C9%99_patent_analitikas%C4%B1_az.pdf?_t=1619523881

30. Azərbaycanda elm və təhsilə ayrılan vəsait ilbəil artır. "Davamlı Artım Ölkədə Bu Sahənin Prioritet Olduğunu Göstərir": [Elektron resurs] / – 27 oktyabr, 2023. URL: https://525.az/news/240533-azerbaycanda-elm-ve-tehsile-ayrilan-vesait-ilbeil-artir

31. On dörd mindən çox professor olan ölkədə elmin səviyyəsi – Yeni qaydalar nəyi dəyişəcək: [Elektron resurs] / – 9 yanvar 2023. URL: https://sputnik.az/20230109/on-dord-minden-cox-professor-olan-olkede-elmin-seviyyesi---yeni-qaydalar-neyi-deyisecek-450282645.html

32. Azerbaijan National H-index Ranking 2023: [Electronic resource] / URL: https://az.h-index.com/az

33. Əhali. Azərbaycanın demoqrafik göstəriciləri: [Elektron resurs] / – 28 noyabr 2023. URL: https://stat.gov.az/source/demoqraphy/

Аннотация

Метод оценки национальной мощи государства

Вугар Мамедзаде, Эльхан Сабзиев, Асад Рустамов,
Эльджан Имамвердиев, Джалил Гасанов

В статье анализируются национальная мощь (НМ) государства и его формирующие структурные компоненты, включающее в себя население (Нас), территория (Терр), экономика (Экон), военная мощь (ВМ), научно-технический прогресс (НТП), политическая воля (ПВ) и геополитический фактор (ГФ). Согласно правилам, проводится оценка национальной мощи государства и предлагается его новая формула. Для перечисленных факторов, используемых по языковым значениям оценки - «высокий», «умеренный», «достаточный», «слабый» и «очень слабый», эквивалентно принимаются как лингвистическая оценка «отличный», «хороший», «удовлетворительный» «слабый» и «очень слабый». Целью исследования является оценка национальной мощи на основе экспертного мнения Азербайджанской Республики с использованием шкалы нечетких чисел. Соответственно, в статье ставится следующая задача: разработка механизма оценки национальной мощи государства. Использованы методы исследования: сравнительный анализ, анализ-синтез и математическое моделирование. Были получены следующие результаты: в статье на основе структурного анализа формирования национальной мощи государства предложена более совершенная формула расчета национальной мощи ($НМ = Нас + Терр + НТП \times (Экон + ВМ) + ПВ + ГФ$) Азербайджанской Республики характеризуется как удовлетворительная сила на основе нечеткого метода оценки. Вывод: каждому государству необходимо оценить свою реальную национальную мощь, чтобы усовершенствовать свою внутреннюю и внешнюю политику и эффективно реализовать свой политический курс на более реалистичной основе.

Ключевые слова: национальная мощь, население, территория, экономика, военная сила, политическая воля, геополитический фактор, научно-технический прогресс, метод нечеткой оценки

Abstract
Method for Assessing the National Power of the State
Vugar Mammadzada, Elkhan Sabziyev, Asad Rustamov,
Eljan Imamverdiyev, Jalil Hasanov

In the article, the national power (NP) of the state and the structural components that form it are population (Pop), territory (Terr), economy (Econ), military power (MP), scientific and technical progress (STP), political will (PW) and geopolitical factors (GF) is analyzed and put into the form of a formula by considering the rules of calculation. According to the "high", "moderate", "sufficient", "weak" and "very weak" linguistic values used for the evaluation of the listed factors, "great", "good", "satisfactory" used in the evaluation of the coefficient of use of the achievements of scientific and technical progress ", "small" and "very small" linguistic values are taken as equivalent. The purpose of the research work is to evaluate the national power of the Republic of Azerbaijan on the basis of expert opinion using a scale of fuzzy numbers. Accordingly, the following task is set in the article: development of a mechanism for assessing the national power of the state. Research methods are used: comparative analysis, analysis-synthesis, mathematical modeling. The following results were obtained: the article proposes a more advanced formula for calculating national power based on the structural analysis of the formation of the state's national power ($NP = Pop + Terr + STP \times (Econ + MP) + PW + GF$) and the power of the Republic of Azerbaijan as a satisfactory power based on the fuzzy assessment method it is characterized. The bottom line: each state needs to assess its real national power in order to perfect its domestic and foreign policy and effectively implement its political course on a more realistic basis.

Keywords: national power, population, territory, economy, military power, political will, geopolitical factor, scientific and technical progress, fuzzy evaluation method

Məqalə redaksiyaya daxil olmuşdur: 29.02.2024
Təkrar işlənməyə göndərilmişdir: 11.03.2023
Çapa qəbul edilmişdir: 08.04.2024

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 45-51
HƏRBİ NƏZƏRİ ELMLƏR ***MILITARY THEORETICAL SCIENCES***

UOT 351/354 DOI: 10.30546/9878.2024.2.10.0017.

THE WAY OF ACHIEVING STRATEGIC ENDS IN THE COMPLEX ENVIRONMENT – POSITIONAL SUPERIORITY MODEL

Colonel Elnur Alasgarli
National Defence University
elnuralasgarli@yahoo.com

Abstract. The changing, uncertain, complex and ambiguous characteristics of the strategic environment in the modern era often lead to the failure of activities carried out to achieve strategic goals. This requires the review of approaches to strategy formulation, including the strategy model, which is used as a tool for achieving strategic goals. Given the interconnectedness of strategies with the environment in which they are implemented, a new approach and model is required to reflect the characteristics of the modern strategic environment and allow the actor's flexible actions.

The similarity of the characteristics of the virtual environment formed in the game of chess and the real security environment shows that this game can be considered for the formulation of a new strategy model. In addition, in the game of chess, the focus of the main efforts is not on the strategic goal, but on the superior position that helps to achieve it, the consistent application of strategy and tactics, and the possibility of changing the initial strategic goal in the course of the game can play an important role in ensuring the flexibility of the model to be developed.

In the preparation of the model, the activities carried out by the Republic of Azerbaijan on the restoration of its territorial integrity are used as an example. This shows the possibility of applying the mentioned model in the formulation of a real strategy.

Keywords: national security, strategy, tactics, positional superiority, global security environment

Introduction

Every country implements strategic activities based on different approaches to ensure its security and sustainable development within the framework of its national interests. One of them is strategy. With optimal management, a well-designed strategy can concentrate common efforts on the main goal, use resources efficiently and purposefully, and provide conditions for strategic impact at the right time. In addition, having a strategy allows actors to anticipate and respond to changes in the competitive environment.

However, a strategy is implemented in an environment that contains factors beyond the control of those who develop it. For this reason, in order to be successful, a developed strategy must meet the characteristics of the environment formed by those factors. Constantly increasing complexity of the environment can be considered one of the biggest obstacles to development and implementation of the strategy.

Important changes are currently taking place in the global security environment. The number of actors and trends affecting the security environment in the world is increasing day by day. Strategic processes such as globalization, rapid technological development and the increasing irregularity of relations between the world's leading states that influence each other, further complicates the global security environment by increasing uncertainty. It is not a coincidence that the Secretary General of the United Nations, A. Guterres, noted at the Environmental Security Conference that a more complex and dangerous environment is being formed in the world [1].

The increasing level of complexity of the security environment negatively affects [2, p.52] the implementation of strategies developed based on the traditional "Ends, Ways, Means" strategy-making model. This approach is basically designed for clear or complicated environments rather than complex ones. Recent events show that the traditional strategy-making model based on goal-oriented, linear approach has limitations in coping with modern challenges [3, p.38].

Due to the complexity of the security environment, tactical actions are increasingly being used as another approach to achieve the ultimate goals, nowadays. However, they bring more short-term solutions, which are insufficient in achieving long-term strategic goals, and do not provide a comprehensive and systematic approach to the issue.

In general, the abovementioned approaches are accompanied by significant weaknesses either by not reflecting the dynamic and increasingly complex nature of the current environment [4, p.8] or by not being sufficient in achieving long-term strategic goals in the modern era. Each environment-specific problem becomes increasingly difficult to answer with the strategy-making approach used for a simpler environment.

The current state of the modern security environment requires the application of flexible approaches to the implementation of strategic activities.

The continuous complication of the global security environment and its complex character requires the application of more flexible approaches to achieve the strategic ends.

I. The basis of a new approach

To develop a strategy that reflects the characteristics of a complex security environment the game theory, especially the game of chess, which has been successfully tested in virtual practice to make a strategy, can be used as a new model. Its strategy-making philosophy based on the concept of "positional advantage" [5, p.32], the method of achieving the end state can provide prominent ways in this regard.

4. Yeni dünya nizamında Azərbaycan regional güc və birləşdirici amil kimi: [Elektron resurs] / – 22 oktyabr, 2022. URL: https://musavat.com/news/yeni-dunya-nizaminda-azerbaycan-regional-guc-ve-birlesdirici-amil-kimi_930621.html

5. Əliyev, N.A. Cənubi Qafqazda geotəhlükəsizlik mühiti və Azərbaycan postmüharibə dövründə. Dərs vəsaiti. / N.A.Əliyev, V.M.Məmmədzadə – Bakı: AfpoliqrAF – 2023. – 112 s.

6. Бжезинский, З. Великая шахматная доска. / З. Бжезинский, – Москва – 1999, – 256 с.

7. Дугин, А. Основы геополитики. / А.Дугин – Москва. – 1999. – 608 с.

8. Азербайджан укрепляет позиции в международных транспортных потоках – новые перспективы для экономического развития: [Электронный ресурс] / – 12 июля, 2023. URL: https://news.day.az/politics/1580779.html

9. Orta Dəhliz Layihəsi kritik əhəmiyyət kəsb edir – Bəs optimallaşdırma necə aparılır? [Elektron resurs] / – 25 avqust, 2022. URL: https://ordu.az/az/news/228915/orta-dehliz-layihesi-kritik-ehemiyyet-kesb-edir-bes-optimallasdirma-nece-aparilir

10. Чавушоглу рассказал о внешнеполитических приоритетах на всех континентах: [Электронный ресурс] / 1 ноября, – 2022. URL: https://vestikavkaza.ru/analytics/cavusoglu-rasskazal-o-vnesnepoliticeskih-prioritetah-na-vseh-kontinentah.html

11. Yaremenko, B. Military build-up of Crimea / B.Yaremenko, T.Huchakova, A. Klymenko, O.Korbut, Y.Smelianskyi // Black Sea Security. – Kyiv: – 2017. № 2(30). – p. 14-34.

12. Qaribaşvili Rusiya-Ukrayna müharibəsinin səbəbini açıqlayıb: [Elektron resurs] / – [Elektron resurs] / – 30 may, 2023. URL: https://ikisahil.az/post/424599-qaribashvili-rusiya-ukrayna-muharibesinin-sebebini-achiqlayib

13. Ukrayna yoxsa Rusiya?: [Elektron resurs] / – 3 aprel, – 2021. URL: https://teref.az/siyaset/186984-ukrayna-yoxsa-rusiya-siyasi-tehlil.html

14. Wiegrefe, K."NATO's Eastward Expansion: Is Vladimir Putin Right?". [Electronic resource] / – 15 February – 2022. URL: https://spiegelşde/international/world/nato-s-eastward-expansion-is-vladimir-putin-right-a-bf318d2c-7aeb-4b59-8d5f-1d8c94e1964d

15. Rusiya Ukrayna müharibəsində nüvə silahından istifadə edə bilər?: [Elektron resurs] / – 05 iyul, 2023. URL: https://ordu.az/az/news/271990/rusiya-ukrayna-muharibesinde-nuve-silahindan-istifade-ede-biler—-analiz-

16. Ukraynanın gələcəyi NATO-dadır və bu müzakirə mövzusu deyil: [Elektron resurs] / – 16 iyul, 2023. URL: https://modern.az/dunya/422057/ukraynanin-geleceyi-nato-dadir-ve-bu-muzakire-mvzusu-deyil-sallivan/

17. 2023-cü ildə geosiyasi münaqişələr dünya üçün hansı təhlükələri yaradacaq?: [Elektron resurs] / – 09 yanvar, 2023. URL: https://ordu.az/az/news/247294/2023-cu-ilde-geosiyasi-munaqiseler-dunya-ucun-hansi-tehlukeleri-yaradacaq-

18. Xersonda Rusiya Ukraynaya məxsus 3 kateri batırıb: [Elektron resurs] / – 15 iyul, 2023. URL: https://ikisahil.az/post/438647-xersonda-rusiya-ukraynaya-mexsus-3-kateri-batirib

19. Rusiya-Ukrayna müharibəsinin görünməyən tərəfləri – Amerikalı eksperti: [Elektron resurs] / – 13 iyul, – 2022. URL: https://oxu.az/world/622344

20. Məmmədli, M. Rusiya–Ukrayna müharibəsinin yaratdığı hərbi-siyasi reallıqlarda NATO-nun təhlükəsizlik siyasətinin əsas aspektləri / M.Məmmədli. – Bakı: «Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi», – iyun, – 2023.

21. Abdullayev, M. Rusiya–Ukrayna müharibəsi: yeni dağıntılar və itkilər // Xalq qəzeti. – 2023,10 avqust, – səh.5

Xülasə

Rusiya–Ukrayna müharibəsinin geosiyasi və hərbi-strateji aspektləri

Nurulla Əliyev, Anar Musayev

Məqalədə bəşər sivilizasiyasının tarixi inkişafı ilə Qara dəniz–Xəzər regionunun artan əhəmiyyəti və bu regionda geostrateji maraqları kəsişən aparıcı dünya dövlətlərinin mübarizə tarixi göstərilir. Qara dəniz–Xəzər hövzəsində vəziyyətə nəzarət hüququ uğrunda formalaşan müasir geostrateji mərkəzlər arasında geosiyasi rəqabət dəyərləndirilir. Məqalədə Rusiya–Ukrayna müharibəsi şəraitində hərbi-siyasi hadisələr təhlil edilir, onun geosiyasi və hərbi-strateji aspektləri üzə çıxarılır. Tədqiqatın məqsədi regiondan keçən neft-qaz kəmərlərinə, nəqliyyat dəhlizlərinə və kommunikasiya xətlərinə nəzarət uğrunda geosiyasi sferanı və geosiyasi mübarizə üsullarını qiymətləndirməkdir. Bu problemin öyrənilməsi zamanı əsas vəzifələr Qara dəniz–Xəzər regionunda baş verən geosiyasi proseslərin və onun tarixi aspektlərinin təhlili, Rusiya–Ukrayna müharibəsində aparıcı dünya dövlətləri arasında rəqabətin əsas məqsədləri olmuşdur. Məqalədə qoyulan problemi üzə çıxarmaq üçün tarixi, xronoloji və müqayisəli tədqiqat metodlarından istifadə edilmişdir. Məqalənin yekun hissəsində yeni dünya düzəninin formalaşmasında amil kimi çıxış edən Rusiya–Ukrayna müharibəsinin qüvvələr balansının geosiyasi mərkəzlər arasında bölüşdürülməsinə imkan verəcəyi proqnozlaşdırılır. Güman edilir ki, müharibədən sonra Rusiyanın mövcud nəqliyyat dəhlizlərinə çıxışı məhdudlaşdırılacaq, təbii və karbohidrogen ehtiyatlarının Ukrayna ərazisindən daşınması dayandırılacaqdır. Bu da mərkəzləşdirilmiş iqtisadi və maliyyə sisteminin zəifləməsinə gətirib çıxaracaq, eləcə də qlobal restrukturizasiya və dünya nizamının yeni çoxqütblü sisteminin formalaşması üçün əsas yaradacaqdır.

Açar sözlər: müasir dünya nizamı, regional təhlükəsizlik, təbii sərvətlər, ictimai-siyasi sistem

Аннотация

Геополитические и военно-стратегические аспекты Российско-Украинской войны

Нурулла Алиев, Анар Мусаев

В статье показано возрастающее значение Черноморско–Каспийского региона по мере исторического развития человеческой цивилизации, изложена история борьбы ведущих мировых держав, геостратегические интересы которых пересекались в этом регионе. Дана оценка геополитического соперничества между современными формирующимися геостратегическими центрами в Черноморско-Каспийском бассейне за право контролировать ситуацию в нём. В статье проведён анализ военно-политических событий в условиях Российско-Украинской войны, раскрывается его геополитические и военно-стратегические аспекты. Цель исследования является оценка геополитической сферы и методы геополитической борьбы за обладанием контроля над проходящими в регионе нефтегазовыми трубопроводами, транспортными коридорами и коммуникационными линиями. В ходе исследования данной проблемы основными обязанностями были анализ происходящих в Черноморско-Каспийском регионе геополитических процессов и его исторические аспекты, основные цели соперничества ведущих мировых держав в Российско-Украинской войне. В статье для раскрытия поставленной проблемы использовалось историко-хронологический и сравнительный методы исследования. В заключительной части статьи прогнозируется, что Российско-Украинская война, выступая как фактор формирования нового мирового порядка позволит распределить соотношение сил между геополитическими центрами. Предполагается, что после войны доступ России к существующим транспортным коридорам будет ограничено, в том числе приостановка использования украинской территории для транспортировки природных и карбогидрогенных ресурсов приведёт к ослаблению централизованной системы экономическо-финансовой структуры, а также глобальной реструктуризации и основы для формирования новой многополярной системы миропорядка.

Ключевые слова: современный миропорядок, региональная безопасность, природные ресурсы, общественно-политическая система

Məqalə redaksiyaya daxil olmuşdur:17.04.2024
Təkrar işlənməyə göndərilmişdir: 29.04.2024
Çapa qəbul edilmişdir:14.05.2024

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 62-69
HƏRBİ NƏZƏRİ ELMLƏR ***MILITARY THEORETICAL SCIENCES***

UOT 371 DOI: 10.30546/9878.2024.2.10.0023.

HƏRBİ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MÜHƏNDİS HAZIRLIĞININ DİDAKTİK LAYİHƏLƏNDİRİLMƏSİNİN ƏSASLARI

e.o. kapitan Amil Dadaşov
Heydər Əliyev adına Hərbi İnstitut
amilodas@gmail.com

Xülasə. Məqalədə hərbi ali təhsil müəssisələrində mühəndis hazırlığının didaktik layihələndirilməsinin əsasları və bu əsaslar üzrə həyata keçirilən işlərin məzmunu araşdırılır. Tədqiqat işinin məqsədi hərbi mühəndis hazırlığı üzrə didaktik layihələndirmənin nəzəri əsaslarını, didaktik yanaşmanın hərbi elmi-pedaqoji təhlilinin xüsusiyyətlərini və didaktik layihələndirmədə sistemli yanaşmanı vurğulamaqdır. Hərbi ali təhsil müəssisələri potensial çağırışları qabaqlaya və təlim proqramlarını vaxtında uyğunlaşdıra bilərlər. Bu məqsədlə yeni yaranan texnologiyalar, inkişaf edən təhdidlər və dəyişən əməliyyat tələblərini müəyyən etmək üçün mövcud vəziyyət hərtərəfli tədqiqat və təhlillərin aparılmasını aktuallaşdırır. Məqalədə, həmçinin didaktik layihələndirmə prosesinin elmi pedaqoji cəhətdən səmərəliliyinin elmi fikir və müddəalarla müəyyən edilməsi üsullarına nəzər salınır. Problemin araşdırılmasında nəzəri təhlil tədqiqat metodundan istifadə edilmişdir. Əldə olunan nəticəyə görə didaktik layihələndirmə təlim proqramının mahiyyətini, məzmun və strukturunu özündə ehtiva edir. Bu proses, verilən təhsilin səmərəliliyinin yüksəldilməsində həlledici rol oynayır. Məqalədə yer alan elmi fikirlər və müddəalar hərbi ali təhsil müəssisələrində mühəndis hazırlığının didaktik layihələndirmə prosesinin mahiyyətini, məzmun və strukturunun əhəmiyyətini, eyni zamanda rasionallığını əsaslandırmağa imkan verir.

Açar sözlər: hərbi təhsil, təlim prosesi, hərbi institut, mühəndis hazırlığı, didaktik əsaslar

Giriş

Didaktik layihələndirmə prosesi hərbi ali təhsil müəssisələrində (HATM) mühəndis hazırlığının vacib tərkib hissəsidir. Bu prosesin mahiyyət, məzmun və strukturunun əsasını təlim məqsədlərinin hərbi tələblərə uyğunlaşdırılması və fəal təlimi təşviq edən pedaqoji yanaşmalar da daxil olmaqla, hərtərəfli qiymətləndirmə strategiyalarının hazırlanması təşkil edir. HATM-lər yaxşı hazırlanmış didaktik prosesi həyata keçirməklə, mühəndis hazırlığı proqramlarının hərbi mühəndislik sahəsinin xüsusi əhəmiyyətli vəzifələrinin icrasına və mürəkkəb problemlərin həllinə qadir olan, səriştəli, eyni zamanda uyğunlaşmağı bacaran hərbi mühəndislərin hazırlanmasına nail ola bilər.

Mühəndislik təhsilinin didaktik layihələndirilməsi işinin icrasında mühüm olan ilk element fənn proqramının (kurikulumun) strukturudur. Hərbi mühəndislər üçün təlim proqramlarının tərtibi pedaqoji prinsiplərin, ixtisas sahəsinin vəzifə və öhdəliklərinin diqqətlə nəzərdən keçirilməsini tələb edir. Mükəmməl tərtib edilmiş fənn proqramı hərbi ixtisasın tələblərini nəzərə almaqla, göstərilən əsas məqsədləri təmin etməlidir: təməl mühəndislik elminin nəzəriyyəsini; hərbi ehtiyaclara uyğunluğu; hərtərəfli praktiki tətbiqləri [1]. Fənn proqramları nəzəri biliklər və praktiki təcrübələr arasında balans yaratmalı, ixtisas üzrə təhsilalanları real mühəndislik problemlərinin öhdəsindən gəlməyə hazırlamalıdır [2]. Bu istiqamətdə görülən işlər çərçivəsində Azərbaycanın milli təhlükəsizlik və xüsusi hərbi elm sahələrini, hərbi elm təhsil sistemini gücləndirmək üçün beynəlxalq əməkdaşlığa və inteqrasiyaya mühüm yer verilməkdədir. Ötən illərdə görülən işlərin nəticəsinə əsasən Türkiyə, NATO və digər beynəlxalq təşkilatlarla hərbi və çoxşaxəli əməkdaşlıq təkcə hərbi təhsil sistemində müasir elmi nailiyyətlərə aparan bilik mübadiləsinə, fənn proqramlarının hazırlanmasına və fakültə hazırlığına əsaslı töhfələr vermişdir [3]. Müasir ali pedaqoji fəaliyyət planı, yalnız müvafiq bilik və bacarıqlara malik şəxsiyyət yox, həm də müasir tələblərə cavab verməyə qadir müasir nəsil və dünyagörüşü formalaşdırmağa yönəldilməli, bu tendensiyalarla gələcəyə doğru irəliləməlidir [4].

Daha yaxşı nəticələrə nail olmaq üçün ali hərbi təhsil müəssisələrində tədris prosesinin təşkili onun optimallığını təmin etməlidir. Pedaqoji işin elmi təşkilinə əsaslanmaqla həll edilməli olan məsələlər arasında təlim və tədrisin layihələndirilməsi və didaktik layihələndirmə aparıcı rol oynayır. Elmi pedaqogikada təlim və tədrisin layihələndirilməsi sahəsində müxtəlif tədqiqatçı alimlərin istifadə etdiyi konseptual fikirlər mövcuddur. "Bloom"un yenilənmiş təhsil məqsədləri taksonomiyasına əsaslansaq, layihələndirmə prosesinin düşüncənin təkmilləşdirmə, yaratma və yenidən hazırlama, yadda saxlama, anlama, tətbiqetmə, təhliletmə, qiymətləndirmə və ixtira da daxil olmaqla bütün idrak fəaliyyətləri ilə əhatələndiyinə əmin olarıq [5]. Müasir pedaqogika elminin banisi L.S.Vıqotski iddia edir: *"Pedaqogika insan inkişafının dünənki deyil, sabahkı gününə istiqamətlənməlidir"*. Pedaqoji cəhətdən professional layihələndirmə elmi fənnin layihələndirilməsi prosesi kimi (Instructional Design), daha effektiv, rasional və rahat tədris üsul, metod və sistemlərinin işlənib hazırlanmasına əsaslanır [6]. Hərbi mühəndislik pedaqogikası təbiət elmləri, humanitar elmlər və tətbiqi biliklər arasında spesifik qarşılıqlı əlaqəni özündə əks etdirən metodoloji əsaslı sistemdir. Bəzi mənbələrdə mühəndis pedaqogikasının, həm də fundamental və tətbiqi elm olduğu qeyd edilir, çünki onun kateqoriyaları və konsepsiyaları elmi statusa malikdir və mühəndis kadrlarının hazırlanması üçün metodoloji əsas rolunu oynaya bilər [7]. Qeyd edildiyi kimi, bu fikirlər hərbi mühəndislərin hazırlanması və didaktik layihələndirmə prosesinin məzmun xəttinin genişləndirilməsi üçün faydalı hesab olunur.

HATM-lərdə mühəndis hazırlığı proqramı silahlı qüvvələrin müdafiə sektorunda üzləşdiyi müxtəlif mühəndislik problemlərinə adekvat kadrların hazırlanmasında mühüm əhəmiyyətə malikdir. Bu təlim proqramı üzrə didaktik layihələndirmə, biliklərin ötürülməsinin effektivliyinə, bacarıqların inkişafına və hərbi mühəndislərin ümumi səriştəsinə müsbət təsir göstərir. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, xüsusi hərbi elmi sahəsində (hərbi mühəndislik) potensial töhfələrə diqqət yetirilir, HATM-də mühəndis hazırlığının didaktik layihələndirilməsinin nəzəri əsasları-vurğulanır.

Mühəndis hazırlığının didaktik layihələndirilməsinin nəzəri əsasları

HATM-də hərbi mühəndislik təhsili bərpa quruculuq işlərinin yerinə yetirilməsi, işğaldan azad olunmuş ərazilərin tam təmizlənməsi, ordunun mühəndis cəhətdən təminatı kimi mühüm vəzifələrin və müxtəlif sahələrdə mürəkkəb problemlərin öhdəsindən gəlməyə qadir olan yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının əsasını təşkil edir [8]. Hərbi kontekstdə mühəndislik işi silahlı qüvvələrin mühəndis təminatının təşkili, daha çox qabaqcıl mühəndis silahlandırma vasitələrinin və silah sistemlərinin tətbiqi, hərbi infrastrukturun qurulması və əməliyyatların aparılması üçün olduqca vacibdir. Hərtərəfli nəzəri biliklərə, praktiki bacarıq və tənqidi düşünmə qabiliyyətinə, eləcə də liderlik keyfiyyətlərinə malik mühəndis ixtisaslı zabitlərin hazırlanması ilə hərbi institutlar, həm də onların formalaşan əməliyyat bacarıqları sayəsində gələcəkdə baş verə biləcək təhlükələri effektiv həll edə bilməsinə nail olar. Hərbi mühəndislik peşə sahəsi xüsusi təlim yanaşmaları tələb edən xüsusi sənət növü olmaqla, unikal problemlərin həllinə kömək edir. Mülki mühəndislikdən fərqli olaraq, hərbi mühəndislik: sahə bilikləri və bacarıqlarına yiyələnmiş; uyğunlaşmaya, komanda tərkibində fəaliyyət göstərməyə (bölmə, qrup), inteqrasiyaya; liderliyə və yüksəkstressli mühitlərdə işləmək qabiliyyətinə malik güclü əzm, iradə və s. xüsusiyyətlərin olmasını tələb edir. İnsan faktorlarını araşdıran mütəxəssislər mühəndis hazırlığının didaktik layihələndirilməsi və ixtisasçı kadrların peşə sahəsinə hazırlanması zamanı hərbi mühəndis vəzifələrinin nəzərə alınmasında mühüm olan xüsusiyyətləri qeyd edirlər [9]. Bu xüsusiyyətlərə daxildir:

- yüksək texnoloji sistemlərdə ixtisas təcrübələri;
- stressli iş şəraiti;
- sərt ekoloji ekstremal şərait;
- tez-tez icra ediləcək tapşırıqlarla həddindən artıq yüklənməsi şəraiti;
- tez və dəqiq qərar qəbuletmə tələbi;
- həssas şəraitdə davranış tərzləri;
- operativlik.

HATM-də mühəndis hazırlığı üçün didaktik layihələndirmə prosesində qarşıya qoyulan tapşırıqların icrası zamanı hərbi əməliyyatların mürəkkəbliyi və çətinliyini nəzərə alaraq, müvafiq mühəndis təminatı biliklərinin aşılanması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan peşə vəzifələrinin öhdəsindən gələ biləcək mühəndislər hazırlamaq üçün qeyd edilən fərqli tələb və vəzifələr nəzərə alınmalıdır [10].

Didaktik layihələndirmə prosesinin mahiyyəti isə onun mühəndislik təhsilinə strukturlaşdırılmış və sistemli yanaşma qabiliyyətindən ibarətdir. Bu qabiliyyətlər hərtərəfli hərbi mühəndislərin hazırlanması üçün həm nəzəri bilikləri, həm də praktik vərdişləri özündə ehtiva etməlidir. Ali təhsil proqramlarının layihələndirilməsi təhsilalanların ixtisas sahəsinə və xarakteristikasına müvafiq olaraq, ali təhsil pilləsi üzrə hərbi institutların kafedralarında tədris planı əsasında hazırlanır [11].

Didaktik layihələndirmə prosesinin anlamaq üçün aşağıdakı amillərə üstünlük verməlidir:

1. Hərbi mühəndislik üzrə ixtisas proqramının (kurikulumun) inkişafı üçün milli kurikulumun məzmunu. Bunun üçün zəruri olan mühəndislik bacarıqlarının formalaşdırılması vacib hesab edilir. Çünki milli kurikulum mühəndislik prinsiplərini və hərbi xüsusi fənləri özündə birləşdirən xüsusi hərbi məqsədlərə uyğunlaşdırılmalıdır. Hərbi mühəndis hazırlığı ixtisasına yiyələnmədə informasiya texnologiyaları, elektronika və telekommunikasiya, hərbi əməliyyatların idarə edilməsi, hərbi coğrafi sistemlər, mühəndis texnologiyaları, idarəetmə, logistika və strateji planlaşdırma kimi xüsusi və fundamental fənlərin inteqrasiyası mövcuddur.

2. Aktiv öyrənmə və praktik təlim modelləri üzrə metodologiyanın yaradılması. Didaktik layihələndirmə prosesində akademik heyət, təhsilalanların problemlərini (tapşırıqları) həll etmək üçün ilk növbədə onun metodoloji əsaslarını müəyyənləşdirməli və bu metodoloji əsaslar üzrə fəaliyyətini davam etdirməlidir. HATM-nin kursantlarına verilən məlumatlar müəyyən edilmiş tədris işinin növlərinə və metodoloji əsasların modellərinə istinad etməklə tətbiq olunmalıdır. Aktiv öyrənmədə tənqidi düşünmə və qərar qəbuletmə fəaliyyətlərinə təşviq edən fəal təlim metodologiyalarına diqqət yetirməlidir. Praktik təlimdə isə hərbi texnika, sahə təlimləri və simulyasiyalarla praktiki təcrübə təmin etmək çox vacibdir. Real həyat ssenarilərini daxil etməklə, kursantlar hərbi mühəndislikdə tələb olunan zəruri bacarıqları, praktiki və qərar qəbuletmə bacarıqlarını inkişaf etdirə bilərlər [12].

3. Liderlik, əməkdaşlıq və komanda işi üzrə fəaliyyət modelinin tətbiqi. Bu model üzrə verilən biliklər sayəsində hərbi mühəndislər arasında liderlik, idarəetmə, əməkdaşlıq və komanda işi olmaqla, bir sıra bacarıqların formalaşdırılmasına və səmərəli inkişafına nail olmaq mümkündür. Qrup layihələri üzrə verilən tapşırıqlar və komanda əsaslı fəaliyyətlər təhsilalanlara effektiv ünsiyyət, koordinasiya və liderlik qabiliyyətlərini inkişaf etdirməyə imkan verir. Bu bacarıqlar mühəndisləri tez-tez digər hərbi müəssisə və qurumlarla, mütəxəssislərlə, eyni zamanda sənaye ilə sıx əməkdaşlıq etməyə istiqamətləndirir və mühəndislik üçün yeni innovasiyaların tətbiqi təcrübələrini qazandırır.

4. Hərbi dəyərlərin, etik normaların və mənəvi keyfiyyətlərin formalaşdırılması. HATM-nin kursantlarının peşə sahələrində müvəffəqiyyətli olması üçün etik normaların, əxlaqi-mənəvi keyfiyyətlərin aşılanması da mühüm əhəmiyyət kəsb edir. Peşə və texniki bacarıqlara əlavə olaraq didaktik prosesdə etik və əxlaqi təlim də vurğulanmalıdır. Hərbi dəyərlərin aşılanması mühəndislərin yüksək etik və ictimai davranış, peşəkarlıq və dürüstlük standartlarına riayət etmələrini şərtləndirir. Gələcəyin komandirlərinin qərar qəbuletmə prosesinə etika təlimləri və praktiki ssenarilərin daxil edilməsi hərbi mühəndislikdə tələb olunan dəyərləri aşılamağa kömək edəcəkdir. Hərbi pedaqogikanın predmeti olan hərbi etika yüksək mənəvi dəyərlərə sahib, dünyagörüşlü zabitlərin və hərbi liderlərin hazırlanmasında mühüm rol oynayır. Etika və əxlaq normalarına sahib hərbi rəhbərlər qoşunların rifahını yüksəldir və qanunsuzluqların, çatışmazlıqların qarşısını alır. Əlbəttə, ilkin mərhələdə planlaşdırılıb keçirildikdə, hərbi liderlərin formalaşdırılmasına kömək edir və təlimin növbəti mərhələlərində vəzifələrin uğurla yerinə yetirilməsi üçün vacibdir [13].

Didaktik yanaşmanın hərbi elmi-pedaqoji təhlilinin xüsusiyyətləri

Müstəqillik qazandığımız ilk dövrlərdən hazırkı dövrə qədər olan müddətdə fənn modullarının və işçi tədris planlarının hazırlanması, həmçinin didaktik layihələndirmənin müxtəlif mərhələlərlə təkmilləşməsi prosesinə nəzər salsaq, oxşar və fərqli cəhətlərin olduğunu görərik [3]. Ümumilikdə elmi pedaqoji təkamülün akademik göstəricilərinin təhlilindən aydın olur ki, ötən dövrlərdə didaktik yanaşmaların metodologiyasında, milli və ümumbəşəri dəyərlərin əks etdirilməsində ciddi dəyişiklər baş vermişdir. Azərbaycanda hərb təhsilinin dünya hərb təhsilinə – NATO və Türkiyə modelinə inteqrasiyası baxımından fənn modullarının tərtib edilməsi və tətbiqi müsbət qiymətləndirilir. Məlumdur ki, hərb elmi və hərbi təhsilin modernləşdirilməsi və inkişafı istiqamətində hazırda ciddi işlər görülür. Bu da hərbi təhsilin bütün pillələrində təlimin qanun və qanunauyğunluqlarına, prinsiplərinə, metodlarına, təşkili formalarına, bütövlükdə didaktik əsasların qoyuluşu və tətbiqinə yeni müasir mövqedən yanaşmanı tələb edir. Didaktik yanaşmaların təkmilləşdirilməsi isə təhsilalanların hərbi təlimə olan maraqlarını və meyillərini artırmış olur [14].

Mühəndis hazırlığı ixtisası üzrə xüsusi hərb elminin mənimsənilməsi üçün bir sıra elm sahələri üzrə fənlərin tədrisi zəruridir. Bunun üçün əsas mühəndislik fənləri sırasına riyaziyyat, fizika, mexanika, elektronika, materialşünaslıq və kompüter elmləri kimi fundamental mühəndislik fənləri ilə yanaşı, sosialyönümlü, humanitar və milli təhlükəsizlik sahələrinin fənn modulları daxil edilməlidir. Ona görə ki, bu fənlər qabaqcıl mühəndislik bilikləri ilə inteqrasiya üçün vacib hesab edilir. Eyni zamanda hazırkı proqramlarda hərbi mühəndislik biliklərinin tədrisində bir sıra dəstəkləyici və hərəkətverici fənn mövzularına üstünlük verilmişdir. Bura daxildir: döyüş mühəndisliyi, hərbi əməliyyatların idarə edilməsi, informasiya texnologiyaları, elektronika və telekommunikasiya, hərbi coğrafi sistemlər, mühəndis texnologiyaları, mühəndis qrafikası, idarəetmə, logistika və onun əsasları, strateji planlaşdırma.

Bu fənlər mühəndisləri hərbi vəzifələrinin səmərəli icrası üçün zəruri olan xüsusi bilik və bacarıqlarla təchiz edir.

Fənlərarası tədqiqatların aparılması çox faydalıdır. Belə ki, mühəndislik proqramının layihələndirmə prosesində fənlərarası əlaqələrin tədqiqi, inteqrasiyası hərbi mühəndislərin psixologiya, sosiologiya, siyasi elmlər və iqtisadiyyat kimi digər sahələrə olan maraqlarını artırmış olur. Bu isə daha geniş perspektivdə mühəndislik işlərinin sosial, siyasi və iqtisadi nəticələrini başa düşməyə imkan verir.

Hərbi mühəndislər üçün peşəkarlığın inkişaf etdirilməsi onların hərbi xidməti sahəsindəki qazana biləcəyi uğurlarında faydalı olacaqdır. Çünki peşəkarlığın artırılması mühəndislərin komandalara rəhbərlik etmək, effektiv ünsiyyət qurmaq, layihələri idarə etmək və etik problemləri həll etmək bacarığını formalaşdırır.

HATM-də mühəndis hazırlığı üçün didaktik layihələndirmə prosesi aşağıdakı elementləri özündə birləşdirir:

1. Ehtiyacların qiymətləndirilməsi. Proqramların tərtib edilməsindən əvvəl HATM-nin xüsusi tələblərini və hərbi mühəndislərin arzuolunan bacarıq və səriştələrini müəyyən etmək üçün ehtiyacların hərtərəfli qiymətləndirilməsi aparılmalıdır. Bu qiymətləndirmə təlim prosesini HATM-nin məqsədlərinə uyğunlaşdırmağa kömək edir və fənn proqramlarının buna uyğun tərtib olunmasını təmin edir.

2. Öyrənmə məqsədləri. Layihələndirmə prosesinə rəhbərlik etmək üçün aydın və ölçülə bilən təlim məqsədləri müəyyənləşdirilməlidir. Bu məqsədlər kursantların təlim proqramını başa vurduqdan sonra əldə etməli olduqları bilik, bacarıq və münasibətləri ifadə etməlidir.

3. Tədris strategiyaları. Tədris strategiyalarının tərkib hissələrindən biri olan fənn proqramlarının layihələndirmə prosesi fənlərin keçirilmə formasını – mühazirələr, müzakirələr, laboratoriya işləri, real nümunələr, simulyasiyalar və praktiki sahə məşqləri də daxil olmaqla, müxtəlif tədris strategiyalarını özündə birləşdirməlidir. Bu strategiyalar müxtəlif öyrənmə üslublarına uyğunlaşır və aktiv əlaqəni təşviq edir.

4. Qiymətləndirmə metodları. Kursantların materialı başa düşməsini, tətbiq etməsini və mənimsəməsini qiymətləndirmək üçün imtahanlar, layihələr, təqdimatlar, praktiki nümayişlər və fəaliyyətin qiymətləndirilməsi də daxil olmaqla, bir sıra metodlardan istifadə olunmalıdır.

5. Davamlı inkişaf. Didaktik işin layihələndirilməsi prosesi davamlı təkmilləşdirmə mexanizmlərini özündə birləşdirməlidir. Təhsilalanlardan, təlimatçılardan və hərbi mütəxəssislərdən mütəmadi rəylər toplanmalı, sorğu və müsahibələr keçirilməlidir. Əldə olunan nəticələrin təhlili tədris planının və təlim metodlarının təkmilləşdirilməsi üçün istifadə olunmalı, təlimin aktuallığı təmin edilməlidir.

Didaktik layihələndirmədə sistemli yanaşma

Didaktik layihələndirmə prosesi təhsilverənlərin fəaliyyətlərinin optimallaşdırılmasını, təhsilalanların isə bilik və bacarıqlarının mənimsənilməsini asanlaşdırmaq və praktik vərdişlərini inkişaf etdirmək üçün qəbul edilmiş sistematik yanaşmaya aiddir. O, təhlil, layihələndirmə, həyata keçirmə və qiymətləndirmə daxil olmaqla, bir-biri ilə əlaqəli olan bir sıra mərhələləri əhatə edir. HATM-də mühəndis hazırlığı kontekstində didaktik layihələndirmə prosesi hərbi mühəndislərin unikal ehtiyac və tələblərinə uyğunlaşdırılır.

Təhlil: bu mərhələ, mühəndis hazırlığı proqramının məqsədləri, vəzifələri və məhdudiyyətlərinin, eyni zamanda çətinliklərinin müəyyən edildiyi didaktik layihələndirmə prosesinin ilkin mərhələsidir. Hərbi kontekstdə bu mərhələ hərbi mühəndislərin öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmələri üçün tələb olunan bacarıq, bilik və səriştələrin hərtərəfli qiymətləndirilməsini nəzərdə tutur. Təhlil mərhələsi, həmçinin hərbi mühəndislərin üzləşdiyi xüsusi əməliyyat kontekstlərini və çətinlikləri nəzərə alır, təlim proqramının real dünya ssenarilərinə uyğun olmasını təmin edir.

Tərtibat: didaktik layihələndirmə prosesinin tərtibetmə mərhələsi təhsilalanlara müəyyən edilmiş məqsədlərə nail olmağa imkan verir və didaktik fəaliyyətlərinin strukturlaşdırılmasını təmin edir. Mühəndis hazırlığında bu mərhələ nəzəri bilikləri, praktiki bacarıqları və praktiki təcrübəni əhatə edən əlaqəli işçi proqramların hazırlanmasını nəzərdə tutur. Tərtibetmə mərhələsi, həmçinin təlim nəticələrini optimallaşdırmaq üçün müvafiq təlim strategiyalarının, resurslarının və qiymətləndirmə metodlarının seçilməsini özündə birləşdirir.

Tətbiq: icra mərhələsi, hazırlanmış işçi proqramların hərəkətə gətirilməsi və birbaşa tətbiqinin aparılmasıdır. Mühəndis hazırlığında bu mərhələ mühazirələrin, praktiki məşğələlərin, simulyasiyaların və sahə təlimlərinin xüsusi ayrılmış siniflərdə, auditoriya və təlim mərkəzli laboratoriya və sahələrdə keçirilməsini nəzərdə tutur. Tətbiq mərhələsi, həmçinin öyrənmə təcrübəsini artırmaq üçün virtual reallıq və ya kompüter əsaslı təlim sistemləri kimi qabaqcıl texnologiyaların istifadəsini əhatə edə bilər. Bundan əlavə, icra mərhələsi hərbi mühəndislik sahəsində həm akademik biliklərə, həm də praktik təcrübəyə malik ixtisaslı professor-müəllim və təlimçilərin fəaliyyətini nəzərdə tutur.

Qiymətləndirmə: nəticələrin əldə edilməsi, səmərəliliyin yoxlanması mərhələsi mühəndis hazırlığı proqramının effektivliyinin ölçülməsində, qiymətləndirilməsində və lazımi təkmilləşdirmələrin aparılmasında mühüm əhəmiyyət kəsb edir. Bu mərhələdə kursantların müəyyən edilmiş məqsədlərə nail olmasını ölçmək üçün yazılı imtahanlar, klassik, praktiki və sahələr üzrə fəaliyyətin yoxlanılması kimi müxtəlif qiymətləndirmə üsullarından istifadə edilir. Qiymətləndirmə həm öyrənənlər, həm də müəllim-professor, təlimatçılar tərəfindən rəy bildirməyə imkan verir. Bütün zamanlarda olduğu kimi, qiymətləndirmələr həm tədris və təlimin formal təkmilləşdirilməsi, həm də təhsilverənlərin, HATM-lərin və onlara rəhbərliyi həyata keçirənlərin yekun hesabatının qiymətləndirilməsi üçün dəstək funksiyasını icra edir. Həmçinin təlim proqramının davamlı təkmilləşdirilməsinə kömək edir və nəticədə əlavə diqqət tələb edən sahələri müəyyənləşdirir [15].

Bütün bunlar deməyə əsas verir ki, didaktik işin layihələndirilməsi prosesinin bir sıra üstünlükləri vardır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Tədris məqsədlərinə uyğunlaşma: didaktik layihələndirmə prosesinin strukturlaşdırılmış xarakteri mühəndis hazırlığı proqramının hərbi mühəndislərin xüsusi təlim məqsədlərinə uyğun olmasını təmin edir. Təlim proqramı zəruri bacarıq və bilikləri müəyyən etməklə, hərbi əməliyyatların və infrastrukturun inkişafının tələblərini səmərəli şəkildə həll edə bilər.

2. Kontekstlə əlaqəlilik: didaktik layihələndirmə prosesi hərbi mühəndislərin üzləşdiyi real ssenarilərin və problemlərin inteqrasiyasına imkan verir. Bu, təlim proqramını öyrənənlərin gələcək tapşırıqların mürəkkəbliyi və tələblərinə hazırlığını, həmçinin əməliyyat hazırlığını təmin edir.

3. Resurslardan optimal istifadə: diqqətli təhlil və layihələndirmə vasitəsilə didaktik layihələndirmə prosesi resurslardan, o cümlədən hərbi mütəxəssislərdən, təlimatçılardan, qurğulardan və avadanlıqlardan səmərəli istifadəyə imkan verir. Əlavə olaraq, HATM-lərə büdcə məhdudiyyətləri daxilində effektiv təlimlərin keçirilməsini təmin edir.

4. Davamlı təkmilləşdirmə: didaktik layihələndirmə prosesinin qiymətləndirmə mərhələsi mühəndis hazırlığında davamlı təkmilləşmə mədəniyyətini təşviq edir. Təlim proqramlarının nəticələrinin, güclü və zəif tərəflərinin müntəzəm olaraq qiymətləndirilməsi, çatışmazlıqların aşkarlanaraq aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Göründüyü kimi, HATM-də mühəndis hazırlığının didaktik layihələndirilməsi prosesi, hərbi mühəndislər tərəfindən bilik və bacarıqların səmərəli şəkildə mənimsənilməsini təmin edən strukturlaşdırılmış və sistemli yanaşma fəaliyyətidir. Təhlil, layihələndirmə, həyata keçirmə və qiymətləndirmə mərhələləri vasitəsilə bu proses təlim proqramlarının təlimin məqsədlərinə, kontekstlə uyğunlaşdırılmasına, resursların optimal istifadəsinə və davamlı təkmilləşdirilməsinə imkan verir.

Nəticə

Hərbi ali təhsil müəssisələrində mühəndis hazırlığının didaktik layihələndirilməsi işinin məqsədyönlü və mütəşəkkil həyata keçirilməsi, hərbi pedaqoji işin elmi təşkili prosesinin davamlı təkmilləşdirilməsini təmin etmiş olar. Bu prosesin səmərəli təşkili və keçirilməsi, bacarıqlı və peşəkar hərbi mühəndislərin hazırlanması üçün çox vacibdir. Hərbi ali təhsil müəssisələrində mühəndis hazırlığının didaktik layihələndirilməsinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri strukturlaşmış fəaliyyətlərin aparılması və tətbiqini ehtiva edir. Layihələndirmə prosesinin davamlı tətbiqi və təkmilləşdirilməsi mühəndis hazırlığının səmərəliliyinin artırılmasında və cari vəzifələrin ordunun inkişaf edən ehtiyaclarına uyğunluğunun təmin edilməsində mühüm rol oynayır. Eyni zamanda bu proses mühəndis kadrlarını hərbi mühəndislik peşəsinin unikal çağırışlarına cavab verməyə hazırlayır. Fənn proqramlarının didaktik layihələndirməsi aktiv öyrənmə, əməkdaşlıq, etik təlim, strukturlaşdırılmış təlimatlara və əsasnamələrə diqqət yetirməklə təmin oluna bilər. Vurğulanan elmi yanaşmalar HATM-lərə öz təlim proqramlarını optimallaşdırmağa və onların inkişaf edən ehtiyaclarının və problemlərinin həllində effektivliyini təmin etməyə imkan verir. Layihələndirilmə prosesinin tətbiqi ilə HATM-lər mühəndis hazırlığının müasir təlim texnologiyalarının mənimsənilməsinə, ordunun inkişaf edən ehtiyaclara uyğunlaşmasına və səmərəliliyini artırılmasına nail ola bilərlər. Məqalənin məzmunu, orada yer alan fikirlər və əsas elmi ideyalardan HATM-nin bakalavriat, magistratura pilləsində təhsil alanlar, doktorantlar (adyunkt) və müəllimlər istifadə edərək faydalana bilərlər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Dadaşov, A.S., Designing military engineering training based on the model of didactic justification / Journal of Defense Resources Management 14:2(2023): 87-96.
URL: http://www.jodrm.eu/issues/Volume14_issue2/8_dadashov.pdf

2. Dadaşov, A.S., Hərbi institutda mühəndis hazırlığının didaktik layihələndirilməsi vəziyyətinin təhlili // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2023, №4, -s. 47-51.

3. Dadaşov, A.S., Azərbaycan Respublikasında hərbi – mühəndis təhsili tarixinin – pedaqoji təhlili // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri – 2023. №6. – s. 227-231.

4. Bəşirov, V. Pedaqoji fəaliyyətin hədəfləri: [Elektron resurs] / Azərbaycan müəllimi – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı / – Online qəzet.– 6 sentyabr, 2019. URL: https://muallim.edu.az/news.php?id=7240

5. Anderson, L. W. and Krathwohl, D. R. A Taxonomy for Learning, Teaching, and Assessing: A Revision of Bloom's Taxonomy of Educational Objectives. – MA Boston: Allyn & Bacon. – 2001, p.7: [Electronic resource] / URL:https://quincycollege.edu/wp-content/uploads/Anderson-and-Krathwohl_Revised-Blooms-Taxonomy.pdf

6. Məhsimova, S. Tədrisdə universal layihələndirmə: [Elektron resurs] / Azərbaycan müəllimi-Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı / – Online qəzet.– 19 oktyabr, 2018. URL: https://muallim.edu.az/news.php?id=2713

7. Кондратьев, В.В. Инженерная педагогика как основа системы подготовки преподавателей технических университетов // Москва: Высшее образование в России. – 2018. №2. (220). – с. 29-38.

8. Azərbaycan Respublikası Müdafiə Nazirliyi Azərbaycan Ordusunun hərbi elm və təhsil sistemi (14 yanvar 2024-ci il): [Elektron resurs] / URL:https://mod.gov.az/az/azerbaycan-ordusunun-herbi-elm-ve-tehsil-sistemi-326/

9. Gerald, P.K. Military Engineering Psychology: Setting the Pace for Exceptional Performance: [Electronic resource] / – January, 2012. URL:https://www.researchgate.net/publication/282932688_Military_Engineering_Psychology_Setting_the_Pace_for_Exceptional_Performance

10. Silahlı Qüvvələrdə mühəndis təminatı üzrə Təlimat // – Bakı: Hərbi Nəşriyyat – 2015. – 228 s.

11. Xüsusi təyinatlı təhsil müəssisələrinin təhsil fəaliyyətinin təşkili haqqında Təlimat // – Bakı: Hərbi Nəşriyyat, – 2015. – 90 s.

12. Piriyev, H. Hərbi təhsildə təlim metodları. Metodiki vəsait / H.K.Piriyev, M.P.Həmidov, E.Q.Həşimov // – Bakı: Hərbi Nəşriyyat, – 2017. – 52 s.

13. Piriyev, H.K. The role of military ethics and morale as a subject of pedagogy in the leadership training of officers for multinational environment / Romania: Journal of Defense Resources Management – 2019. 10:2: – p.21-29: [Electronic resource] / URL:http://www.jodrm.eu/issues/Volume10_issue2/02_military%20ethics%20_Heydar%20Piriyev_AZE.pdf

14. Sadıqov, F.B. Didaktika. Ali məktəblər üçün dərs vəsaiti. / F.B.Sadıqov, Q.Q.Həsənli – Bakı: Elm və Təhsil – 2015. – 269 s.

15. Brown, G.T. The past, present and future of educational assessment: [Electronic resource] / – A transdisciplinary perspective. Frontiers Education-Conceptual analysis. November 11, 2022. DOİ: https://doi.org/10.3389/feduc.2022.1060633

Аннотация

Сущность, содержание, цели и обязанности дидактического проектирования инженерной подготовки в военном институте

Амиль Дадашов

В статье рассмотрены основы дидактического проектирования инженерной подготовки в военных вузах и содержание работ, проводимых на этих основах. Цель научно-исследовательской работы - подчеркнуть теоретические основы дидактического проектирования подготовки военных инженеров, особенности военного научно-педагогического анализа дидактического подхода и системного подхода в дидактическом проектировании. Военные высшие учебные заведения могут предвидеть потенциальные проблемы и вовремя адаптировать программы обучения. С этой целью текущая ситуация требует комплексных исследований и анализа для выявления новых технологий, развивающихся угроз и меняющихся оперативных требований. В статье говорится об основах дидактического проектирования инженерной подготовки в военных вузах и содержании работ, проводимых на этих основах. Также в статье рассматриваются способы определения эффективности научно-педагогической деятельности

процесса дидактического проектирования с использованием научных идей и положений. При исследовании проблемы был использован метод теоретического анализа. По полученному результату показано, что дидактический проект содержит сущность, содержание и структуру программы обучения. Этот процесс играет решающую роль в повышении эффективности предоставляемого образования. Научные идеи и положения, содержащиеся в статье, призваны обосновать важность и рациональность дидактического проектирования процесса инженерной подготовки в военных вузах.

Ключевые слова: военное образование, учебный процесс, военный институт, инженерная подготовка, основы дидактики

Abstract
Principles of didactic design of engineer training
in military higher education institutions
Amil Dadashov

In the article, the basics of the didactic design of engineering training in military higher education institutions and the content of the works carried out on these bases were examined. The purpose of the research work is to emphasize the theoretical foundations of didactic design for military engineer training, the features of the military scientific-pedagogical analysis of the didactic approach, and the systematic approach in didactic design. Military higher education institutions can anticipate potential challenges and adapt training programs in time. To this end, the current situation calls for comprehensive research and analysis to identify emerging technologies, evolving threats, and changing operational requirements. The article talks about the basics of the didactic design of engineering training in military higher education institutions and the content of the works carried out on these bases. The article also looks at the ways of determining the efficiency of the scientific pedagogical activity of the didactic design process with scientific ideas and provisions. The theoretical analysis research method was used in the investigation of the problem. According to the obtained result, it is shown that didactic design contains the essence, content and structure of the training program. This process plays a crucial role in improving the efficiency of the education provided. The scientific ideas and propositions contained in the article try to justify the importance and rationality of the didactic design process of engineering training in military higher education institutions.

Keywords: military education, training process, military institute, engineer training, didactic basics

Məqalə redaksiyaya daxil olmuşdur:26.02.2024
Təkrar işlənməyə göndərilmişdir: 05.03.2024
Çapa qəbul edilmişdir:02.04.2024

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 70-82
HƏRBİ XÜSUSİ ELMLƏR ***MILITARY SPECIAL SCIENCES***

UOT 93/94 DOI: 10.30546/9878.2024.2.10.0025.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ HƏRBİ DİPLOMATİYA

Mehman Süleymanov
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
smehman@mail.ru

Xülasə. Ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qarşısında duran başlıca vəzifələrdən biri də beynəlxalq hərbi əməkdaşlığın qurulması idi. 23 ay davam edən müstəqillik illərində Cümhuriyyət hökuməti bu istiqamətdə bir sıra işlər görməyə müvəffəq oldu. İlk növbədə Osmanlı Türkiyəsi ilə hərbi əməkdaşlıq sahəsində praktiki tədbirlər həyata keçirildi. Mövcud olan təhlükənin aradan qaldırılması, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı bu əməkdaşlıq səmərəli nəticələr verdi. Bu mövzu kifayət qədər geniş mövzu olsa da, onun müəyyən tərəfləri məqalədə öz əksini tapmışdır. Məqalədə, eyni zamanda Gürcüstanla qurulan beynəlxalq hərbi əməkdaşlıq sahəsində təhlil aparılmışdır. Xüsusilə Osmanlı hərbi qüvvələrinin Azərbaycanı tərk etməsindən sonra Gürcüstanla hərbi əməkdaşlığın genişləndirilməsinə diqqət artırıldı. Məqalədə, həmçinin Böyük Britaniya və Avropanın digər dövlətləri, o cümlədən İtaliya və Fransa ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında qurulan hərbi əməkdaşlıq məsələlərinə də toxunulmuşdur. Cümhuriyyət dövründə hərbi diplomatiyanın ümumiləşdirilmiş şəkildə araşdırılması ilk dəfədir ki, tədqiqat mövzusuna çevrilmişdir. Bu mənada əldə edilmiş nəticələr də mövzu baxımından yenidir.

Açar sözlər: cümhuriyyət, müstəqillik, milli ordu, hərbi siyasət, hərbi əməkdaşlıq

Giriş

Birinci Dünya müharibəsinin hərbi-siyasi nəticələri, çar Rusiyasının süqutu Cənubi Qafqaz bölgəsində, o cümlədən Azərbaycan hüdudlarında mürəkkəb bir şəraitin meydana gəlməsinə yol açdı. Bölgə ilə bağlı geosiyasi və iqtisadi maraqlarını təmin etməyə çalışan böyük dövlətlərin, böyük güclərə arxalanaraq kütləvi şəkildə silahlanan və yad ərazilərdə öz dövlətini qurmaq istəyən erməni millətçi təcavüzkar dairələrinin bölgədə fəallaşması Azərbaycan xalqının mövcudluğuna ciddi təhlükə yaratdı. Ona görə Azərbaycanın milli-azadlıq hərəkatının liderləri və fəalları bu təhlükədən xilas olmaq və etibarlı müdafiə imkanlarına malik müstəqil bir dövlət qurmaq üçün səmərəli yollar axtarmağa başladılar. Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra isə hökumət tərəfindən təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlığın qurulması istiqamətində səmərəli siyasət həyata keçirilməyə başlandı. Bu istiqamətdə hökumət tərəfindən prioritetlər müəyyənləşdirildi, Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi üçün hökumət və parlament tərəfindən razılaşdırılmış bir siyasət ortaya qoyuldu. Belə bir siyasətin uğurlu şəkildə həyata keçirilməsi həm beynəlxalq təcrübənin öyrənilməsi, həm də ordunun texniki təchizatının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Türkiyə ilə hərbi əməkdaşlıq

Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycan hökumətinin hərbi əməkdaşlıq qurmağa çalışdığı ilk dövlətlərdən biri Türkiyə idi və bu münasibətlərin əsası 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti arasında imzalanan müqavilə ilə qoyuldu. Həmin müqavilənin 4-cü maddəsində bildirilirdi ki, ölkə daxilində nizam və asayişin yaradılması üçün müraciət edildiyi təqdirdə, Osmanlı dövləti Azərbaycana hərbi yardım göstərə bilər [1, v.43-45].

Azərbaycan hökuməti də bu imkandan istifadə edərək dərhal hərbi kömək üçün Osmanlı dövlətinə müraciət etdi. Həmin müraciət əsasında ilkin olaraq, Osmanlı Ordusunun 5-ci Qafqaz piyada diviziyası Azərbaycana gəldi. Azərbaycanın milli hərbi qüvvələri ilə Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı və türk zabiti general-leytenant Nuru paşa bu ordunun komandanı təyin edildi. Mövcud tarixi şəraitin xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan hökumətinin qərarına əsasən

Cümhuriyyət Ordusunun formalaşdırılmasına rəhbərlik də Qafqaz İslam Ordusu komandanına həvalə edildi.

1918-ci ilin iyulunda Azərbaycanla Osmanlı Türkiyəsi arasında uzunmüddətli hərbi ittifaqın yaradılması haqqında da müqavilə layihələri hazırlanmışdı [2, s.555; 3, s.290-295]. Bu layihələr iki variantda idi və hər ikisi "Mukavile-i Askeriyye" adlanırdı. 14 maddədən ibarət olan birinci müqavilənin 90, 8 maddədən ibarət olan ikinci müqavilənin isə 20 illik müddətə bağlanması nəzərdə tutulmuşdu. Həmin müqavilələrin əsas məzmunu ondan ibarət idi ki, Azərbaycanın Milli Ordusu bütünlüklə Osmanlı hərbi qüvvələrinin əməliyyat tabeliyinə verilməli, Osmanlı dövləti isə Azərbaycan Milli Ordusunun təchizatını, onun kadr hazırlığını öz üzərinə götürməli idi [4, s.295]. Lakin bu müqavilələr imzalanmadı. Çox güman ki, buna səbəb beynəlxalq vəziyyətin dəyişməsi və tezliklə Qafqaz İslam Ordusunun ləğv edilməsi olmuşdu.

Azərbaycanla Türkiyə arasında mövcud hərbi əməkdaşlığın ən mühüm tarixi nəticəsi, sözsüz ki, müştərək hərbi qüvvələrin iştirakı ilə 1918-ci il sentyabrın 15-də Bakı şəhərinin və sonrakı ay isə Azərbaycanın Qarabağ bölgəsinin bolşevik-daşnak işğalından azad edilməsi oldu. Nəzərdə tutulmuşdu ki, Qafqaz İslam Ordusu qüvvələrinin köməyi ilə Azərbaycanın cənubunda da respublikanın suverenliyi təmin edilsin və həmin bölgə orada nəzarəti ələ keçirmiş ağqvardiyaçı qüvvələrdən təmizlənsin. Bu məsələ 1918-ci il noyabrın 1-də Bakıda Nuru paşanın Lənkəran bölgəsi əhalisinin nümayəndələri ilə görüşündə də müzakirə edilmişdi [5]. Lakin tezliklə türk hərbi qüvvələrinin Azərbaycanı tərk etməsi səbəbindən Lənkəran bölgəsində respublika hakimiyyətinin bərqərar edilməsi təxirə salınmalı oldu.

Milli Ordunun təşkilatlanması sahəsində hərbi əməkdaşlığın nəticələrinə gəlincə isə milli zabit kadrlarının yetişdirilməsində, ordu hissələrinin hərbi-texniki təchizində, hərbi strukturların yaxşılaşdırılmasında Türkiyə tərəfindən Azərbaycana böyük kömək göstərildi. Belə ki, Qafqaz İslam Ordusu komandanının əmrinə əsasən, 1918-ci il avqust ayının 13-də Əlahiddə Azərbaycan Korpusunun yenidən qurulmasına başlanıldı [6, s.185]. Azərbaycan korpusunun təşkilatlanması və qısa zamanda döyüşə hazır vəziyyətə gətirilməsi üçün onun tərkibinə daxil olan hissələrin Azərbaycan–Türk hərbi qüvvələrindən komplektləşdirilməsi qərara alındı[7, s.303]. Nuru paşa Azərbaycan hökumətinə göndərdiyi raportlardan birində bildirirdi ki, qarışıq tərkibdə yaradılmış hərbi strukturların sıravi heyətinin yarısı, zabit heyətinin isə böyük hissəsi türk hərbçiləridir. Həmin raportda həmçinin qeyd edilir ki, türk hərbçilərinin köməyi ilə Azərbaycanda iki diviziyadan ibarət bir korpus, dörd alaydan ibarət bir süvari diviziyası, Zəngəzurda əlahiddə atlı bölüyü, Gəncədə bir təlim taboru və bir pulemyot təlim taboru, üç tabordan ibarət bir sərhəd alayı, Ordubadda bir piyada taboru və bir topçu taqımı təşkil olunmuşdur [8, s.396].

Gəncədə açılmış olan Milli Hərbiyyə Məktəbinə rəhbərlik təcrübəli türk zabiti olan qayməqam Atıf bəyə tapşırılmışdı və 1918-ci il oktyabrın 27-də bu məktəbin ilk buraxılışı oldu [9]. Cümhuriyyət Ordusu hissələrinin hərbi-texniki təchizatının daha da yaxşılaşdırılması üçün Türkiyədən xeyli sayda silah və sursat Azərbaycana göndərildi. Bu sahədə əməkdaşlığın gələcəkdə də davam etdirilməsi planlaşdırılmışdı [10, s.279].

1918-ci il oktyabrın 30-da Egey dənizinin Lemnos adasının Mundoros limanında Osmanlı Türkiyəsi ilə Böyük Britaniya arasında Birinci Dünya müharibəsinin nəticələrini özündə əks etdirən barışığa görə Osmanlı Türkiyəsinin məğlubiyyəti rəsmiləşdirildi. Həmin barışığın 11-ci və 15-ci maddələrinə əsasən Osmanlı dövləti öz qoşunlarını Azərbaycandan çıxardı və Azərbaycan ingilis qoşunlarının nəzarətinə keçdi [11, s.170; 12, s.157-158].

Osmanlı hərbi qüvvələrinin Azərbaycanı tərk etməsi və Qafqaz İslam Ordusunun ləğv edilməsi reallığa çevriləndə Nuru paşa 1918-ci il noyabrın 4-də Qafqaz İslam Ordusunun ləğv edilməsi və onun Azərbaycan Ordusu adlandırılması haqqında xüsusi bir əmr imzaladı. Həmin gün imzaladığı digər bir əmrdə isə Nuru paşa özünü Azərbaycan Ordusunun komandanı kimi təqdim etdi [13, s.365-366]: yəni 1918-ci il noyabrın 4-dən etibarən Nuru paşa Qafqaz İslam Ordusunun deyil, Azərbaycan Ordusunun komandanı olaraq fəaliyyətini davam etdirəcəkdi.

Noyabrın 4-də Nuru paşa bu ad altında həm də "Azərbaycan hökuməti ilə burada qalacaq zabitan üçün əqd edilən müqavilə şəraiti" adlı bir müqavilə layihəsini imzaladı. Bu müqavilədə onun özü də

daxil olmaqla, könüllü olaraq Azərbaycanda qalıb Azərbaycan Ordusunda xidmət edəcək türk hərbçilərinin hüquq və səlahiyyətləri təsbit olunmuşdu [13, s.365-366].

Azərbaycan Ordusu komandanlığı elan ediləndə əlahiddə Azərbaycan korpusu ləğv edilməmişdi [14, s.373]. Ona görə də ilk baxışdan belə bir qənaətə gəlinir ki, Nuru paşa Azərbaycan korpusunu və əlavə olaraq Azərbaycanda qalacaq türk hərbçilərindən təşkil edilmiş bölmələrdən formalaşdırılan ümumi bir Azərbaycan Ordusunun komandanı vəzifəsini öz üzərinə götürmüşdü. Amma Azərbaycan Ordusu strukturu ilə 1918-ci il noyabrın 1-də bərpa edilmiş Hərbi Nazirlik arasındakı əlaqə, yəni Azərbaycan Ordusunun Hərbi Nazirliyə paralel, yoxsa onun tabeliyində bir struktur olduğu haqqında dəqiq bir fikir söyləmək hələlik çətindir.

Nuru paşa Osmanlı Hərbi Nazirliyinə ünvanladığı 12 noyabr 1918-ci il tarixli məktubunda Azərbaycan Ordusunun komandanı vəzifəsində Azərbaycan hökumətinin xidmətinə daxil olduğunu bildirirdi[15, s.403]. Bu məlumata əsasən Nuru paşanın Azərbaycan Ordusunun komandanı təyin edilməsinin Azərbaycan hökumətinin razılığı ilə olduğu ehtimal edilir. 1918-ci il noyabrın 23-də imzaladığı bir əmrdə Nuru paşa Azərbaycan Ordusunun komandanı kimi Gəncədə fəaliyyətini davam etdirdiyini yazırdı. Buradan belə bir qənaətə gəlmək olar ki, Azərbaycan Ordusunun komandanlığının qərargahı Gəncədə təsis edilmişdi [16, s.416]. Bir gün sonra, yəni noyabrın 24-də imzalanmış əmrdə isə Nuru paşa artıq Azərbaycan Ordusunun deyil, Azərbaycandakı Osmanlı Qüvvələrinin komandanı kimi fəaliyyətini davam etdirməyə başlamışdı [17, s.418]. Həmin əmrdə Nuru paşa aydın şəkildə yazırdı ki, müttəfiq dövlətlər adından Azərbaycana gəlmiş ingilis hərbi qüvvələrinin rəhbərliyi türk hərbçilərinin heç bir halda Azərbaycanda qalmasına icazə verməmişdir. Buradan belə nəticəyə gəlinir ki, Nuru paşa və digər türk hərbçiləri Azərbaycan Ordusu tərkibində xidmət edə bilməzdilər. Ona görə də Nuru paşa Azərbaycan Ordusunun komandanı vəzifəsindən kənarlaşmağa məcbur oldu.

Beləliklə, sənədlərə görə Nuru paşa 20 gün ərzində Azərbaycan Ordusunun komandanı oldu. Lakin bu müddət ərzində onun hansı səlahiyyətlərə malik olması, bu strukturla Hərbi Nazirlik arasındakı münasibətlərin necə qurulması haqqında yetərli məlumat mövcud deyil. Hər bir halda Cümhuriyyət Ordusunun tarixində türk hərbçilərinin rəhbərliyi altında belə bir strukturun olması maraqlı bir faktdır və heç şübhəsiz ki, gələcəkdə elmi dövriyyəyə gətirilə biləcək yeni sənədlər bu faktla bağlı daha yetərli fikir söyləməyə imkan verəcəkdir.

Bununla belə, mövcud məlumatlar onu göstərir ki, türk hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra bir neçə türk kiçik zabit milli ordu sıralarında qalmağa nail olmuşdu. 1918-ci ilin dekabrın son günlərində Cümhuriyyət Ordusunun Ağdamda yerləşən 1-ci piyada diviziyasının bəzi bölmələrində hərbi rəhbərliyə qarşı bir itaətsizlik halı baş vermişdi. Hərbi nazir Səməd bəy Mehmandarovun 1919-cu il fevralın 25-də Azərbaycan parlamentində etdiyi çıxışı zamanı bu itaətsizlik hadisəsində 10-a yaxın türk əsilli kiçik zabitin də iştirak etdiyini bildirirdi [18, s.92]. Bu türk zabitlərinin sonrakı taleyi haqqında konkret məlumat olmasa da, intizamsızlıqlarına görə milli ordu sıralarından kənarlaşdırıldıqları ehtimal oluna bilər. Çünki 1920-ci ilin əvvəllərinə aid olan məlumatlarda Cümhuriyyət Ordusunda 6 nəfər türk əsilli zabitin xidmət etməsi haqqında məlumat vardır, onlar isə kiçik zabitlər deyildilər. Bu zabitlərin Azərbaycan Ordusuna gəlməsi Türkiyədə yaranmış mürəkkəb tarixi şəraitlə bağlı idi. Belə ki, Birinci Dünya müharibəsində məğlub olan Türkiyə Ordusunun hərbi qulluqçuları müttəfiq dövlətlər tərəfindən ciddi təqiblərə məruz qalmışdılar. Onların müəyyən hissəsi Azərbaycana sığınmaq qərarına gəlmişdilər. Bu zabitlərin bir neçəsi Cümhuriyyət Ordusunda xidmətə qəbul edilmişdilər. Həmin zabitlər kornet Faik Cevdetoğlu (parlament mühafizə bölüyü), kapitan Nüsrət bəy (7-ci Şirvan piyada alayı), podporuçik İbrahim İsmayıloğlu (İstehkam məktəbi), kapitan Məcid Seyidoğlu (8-ci Ağdaş piyada alayı), ştabs-kapitan Necət Mustafa (6-cı Göyçay piyada alayı) və podporuçik Məhəmməd Şefik Taksinoğlu (3-cü Gəncə piyada alayı) idilər [19, s.764].

Türkiyədən Azərbaycana pənah gətirən türk hərbçilərinin sayı çoxaldıqda Azərbaycan hökuməti 1920-ci ilin əvvəllərində Hərbi Nazirliyin tabeliyində onlardan ibarət yardım alayı adlı bir hissənin təşkilinə qərar verdi. Lakin sonradan bu alay Daxili İşlər Nazirliyinin tabeliyinə keçirildi.

Bu hərbçilərin maliyyə təminatı Azərbaycan hökuməti tərəfindən həyata keçirilirdi. Azərbaycan hökuməti, hətta xidmətə alınmayan türk zabitlərini hərtərəfli qayğı ilə əhatə etməyə çalışır və onlara

aylıq maliyyə vəsaitləri ayırırdı [20, s.269]. Lakin məlumdur ki, bu alayın şəxsi heyəti sonradan güclü bolşevik təbliğatına məruz qaldı və Azərbaycanın bolşevik qoşunları tərəfindən işğal edilməsi bu alay tərəfindən də dəstəkləndi.

Azərbaycan–Böyük Britaniya hərbi əməkdaşlığı

Mundoros müqaviləsinin şərtlərinə əsasən, Cənubi Qafqaz, o cümlədən də Azərbaycan müttəfiq dövlətlərinin nəzarəti altına düşməli idi. Adı çəkilən müqavilənin imzalanmasından bir gün sonra, yəni 1918-ci il oktyabrın 31-də Böyük Britaniyanın Hərbi Nazirliyi Mesopotamiyada yerləşən ingilis qüvvələri komandanlığına Bakı şəhərinin dərhal işğal edilməsi barəsində əmr göndərdi. Bu əmrə əsasən Bakı şəhərinin işğal edilməsi, o zaman İranın şimalında dislokasiya olunmuş ingilis qüvvələrinin komandanı general-mayor V.Tomsona həvalə olundu [21, s.21]. General V.Tomsonun rəhbərliyi altında Bakıda hərbi idarəçilik yaradılmalı və o, Bakının general-qubernatoru elan edilməli idi. Yeni şəraitdə Azərbaycanın müstəqilliyinin qorunmasına və tanınmasına nail olmaq üçün general V.Tomson, hələ İranda olarkən, onun yanına Azərbaycan hökumətinin rəsmi nümayəndə heyəti göndərildi. Amma bu heyətlə general V.Tomson arasında aparılan danışıqlar gözlənilən nəticəni vermədi. General V.Tomson Bakı şəhərinin işğal olunacağını, Azərbaycanın müstəqilliyinin tanınmayacağını, Azərbaycan xalqının iradəsi ilə yaradılmış bir respublikanın mövcud olmadığını və Azərbaycan hökumətinin Türkiyə hərbi qüvvələrinin intriqaları ilə yaradılmış bir hökumət olduğunu birmənalı şəkildə bəyan etdi [11, s.171; 21, s.21; 22, s.278].

General V.Tomson onu müşayiət edən hərbi qüvvələrlə 1918-ci il noyabrın ayının 17-də Bakıya daxil oldu. Mövcud məlumata görə, onun rəhbərliyi altında Bakıya 5 min nəfərlik ingilis hərbi qüvvələri gətirildi və onlar Bakı şəhərini bütünlüklə nəzarət altına aldılar [23, s.119].

Bakı üzərində nəzarəti gücləndirmək üçün V.Tomson şəhərdə olan bütün milli hərbi qüvvələrin, onların idarəetmə orqanlarının Bakı şəhərini tərk etməsini tələb etdi. Bunun nəticəsi idi ki, Hərbi Nazirlik Bakı şəhərini tərk etdi və Gəncə şəhərinə yerləşdi. Bundan başqa, Azərbaycan hökumətinə məxsus olan "Qars", "Ərdəhan" kanoner gəmiləri və digər hərbi gəmilər Denikinin rəhbərliyi altında olan qüvvələrin sərəncamına verildi. Bildirildi ki, bu qərar bolşevizmin qarşısının alınması üçün Denikin rəhbərliyi altında olan qüvvələrin möhkəmləndirilməsi üçün edilmişdir.

Azərbaycan hökuməti general V.Tomson administrasiyası ilə fəal siyasət aparırdı və bunun nəticəsi idi ki, general V.Tomson Azərbaycan hökumətinin doğrudan da Azərbaycan xalqının iradəsini əks etdirdiyini və bu hökumətin real müstəqilliyə malik olduğunu gördü. Ona görə tezliklə V.Tomsonun Azərbaycanın müstəqilliyinə münasibəti dəyişdi və tərəflər arasında daha faydalı əməkdaşlığın qurulmasına başlandı.

Bu əməkdaşlığın bir istiqamətini də hərbi sahədə anlaşmanın və qarşılıqlı fəaliyyətin yaradılması təşkil edirdi. Bu əməkdaşlığın düzgün qurulmasının nəticəsi idi ki, 1919-cu ilin fevral ayında artıq V.Tomson məhdud sayda milli hərbi qüvvələrin Bakıya qayıtmasına etiraz etmədi [24, s.467]. Ona görə də 1919-cu il aprelin 5-də Azərbaycanın məhdud sayda hərbi qüvvələri Bakı şəhərinə daxil oldular [25, v.53].

Hərbi əməkdaşlıq sahəsində qarşılıqlı münasibətlərin düzgün qurulmasının nəticəsi idi ki, ingilis qüvvələri Azərbaycanı tərk etmədən əvvəl Azərbaycanın Hərbi Nazirliyi, Baş Qərargah və digər hərbi idarəetmə strukturları 1919-cu ilin yayında Bakıya qayıtdılar, Bakı şəhərində bir piyada diviziyasının yerləşdirilməsinə icazə verildi və Bakıda Azərbaycan hökumətinin hərbi fəaliyyəti tam şəkildə bərpa edildi.

Azərbaycan hökuməti ilə ingilis komandanlığı arasında Azərbaycana məxsus hərbi gəmilərin geri qaytarılmaması ilə bağlı bir qarşıdurma yaransa da, ingilis komandanlığı bu məsələyə Böyük Britaniyanın bölgədəki ümumi siyasəti çərçivəsindən yanaşırdı. Bu siyasətin mahiyyəti isə general Denikinin rəhbərliyi altında olan hərbi qüvvələrə kömək etməklə, Rusiyanın bolşevikləşməsinin qarşısını almaq idi. Azərbaycanın hərbi gəmiləri də bu siyasətin həyata keçirilməsi üçün Denikin qüvvələrinin tabeliyinə verilmişdi [21, s.33].

Bütün bunlara baxmayaraq, hərbi sahədə fəal əlaqələrin yaradılması ingilis komandanlığının

Azərbaycanın müstəqilliyinə daha loyal münasibət bəsləməsinə yol açdı. İngilis komandanlığının Denikinçi qüvvələri dəstəkləməsinə baxmayaraq, Azərbaycan hökuməti Denikin qoşunlarının respublikaya müdaxilə planlarının qarşısının alınması üçün ingilis komandanlığının imkanlarından da istifadə etməyə çalışırdı. Bunun nəticəsi idi ki, Denikin qoşunlarının Azərbaycan üzərinə hücum etməyəcəyinə bir ümid də yaranmışdı. Azərbaycan hökumətinin müraciətindən sonra ingilis komandanlığının səyləri ilə Denikin qoşunları və Azərbaycan arasında demarkasiya xətti müəyyənləşdirildi. Böyük Britaniya hökumətinin razılığı ilə müəyyənləşdirilmiş həmin demarkasiya xətti Dağıstan ərazisində Petrovsk şəhərinin 5 mil cənubundan keçirdi. İngilis komandanlığı ilə razılaşdırılmışdı ki, Böyük Britaniya ilə sıx əlaqədə olan Denikin qoşunları bu demarkasiya xəttindən cənuba, yəni Azərbaycan istiqamətinə hərəkət etməyəcəklər [22, s.305]. Əslində, ilkin olaraq, demarkasiya xəttinin bir qədər də şimalda müəyyənləşdirilməsi qərara alınmışdı. Lakin Denikinçi qoşunlar bu tələbə əməl etmədilər və onlar Dağıstanın cənubuna, yəni Azərbaycan sərhədlərinə doğru irəliləməyə başladılar.

Azərbaycan hökumətinin apardığı müzakirələrdən sonra ingilis komandanlığı 1919-cu ilin avqustunda yeni demarkasiya xəttini razılaşdırdı. Bu xətt Azərbaycanın şimal sərhədi boyunca keçirdi [21, s.33]. Bununla, Denikin qoşunları Azərbaycan sərhədinə daha da yaxınlaşmaq imkanı əldə etdi. Lakin ingilis komandanlığı Azərbaycan hökumətinə bəyan etdi ki, bu qoşunlar Azərbaycan sərhədlərinə təcavüz etməyəcək.

Respublika daxilində hərbi-siyasi şəraitin sabitləşməsi üçün ingilis komandanlığı ilə yaxşı münasibətlər qurulmuşdu. Belə ki, müstəqilliyin elan edilməsindən sonra da Azərbaycan türklərinin qədim yurdu İrəvan ərazisində respublika yaradılmasına nail olan Ermənistan hökuməti Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməyə davam edirdi. Həm Ermənistanın hökumət qüvvələri, həm də qeyri-hökumət silahlı dəstələri Azərbaycanın Zəngəzur və Qarabağ bölgəsinə silahlı basqınlar edir, azərbaycanlı əhalini sıxışdıraraq, bu bölgələri Ermənistana birləşdirmək istəyirdilər. Məsələnin mahiyyəti ilə bağlı Azərbaycan hökuməti ingilis komandanlığı ilə müzakirələr apardı. Azərbaycan ərazilərinin və əhalisinin erməni silahlı dəstələrinin qanunsuz və haqsız təcavüzünə məruz qalması ingilis komandanlığının, xüsusən general Tomsonun diqqətinə çatdırıldı. General Tomson dərhal silahsız azərbaycanlı əhalini erməni silahlı dəstələrinin basqınlarından qorumaq üçün qətiyyətli mövqe nümayiş etdirərək, azərbaycanlılar yaşayan məntəqələr üzərinə daha çox basqınlar edən, erməni silahlı dəstələrindən birinin rəhbəri Andronikə teleqram göndərdi və onu silahlı basqınlardan çəkindirməyə çalışdı. General Tomsonun razılığı ilə Azərbaycan hökuməti Qarabağ bölgəsini əhatə edən Qarabağ general-qubernatorluğu yaratdı. Bu general-qubernatorluğun nəzdində ingilis hərbçilərindən ibarət bir nəzarət missiyası da təşkil edildi və həmin missiyaya rəhbərlik mayor Monk-Mezona tapşırıldı. Ermənistan hökumətinin bu qərara etirazı ilə qarşılaşan Bakıda yerləşən ingilis komandanlığı xüsusi bir bəyanatla çıxış etdi. İngilis qüvvələrinin Bakıdakı komandanı, polkovnik Şatelvort bəyanatında bildirirdi: *"İngilis komandanlığı Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının əhalisinə məcburi icra üçün aşağıdakıları elan edir:*

1. Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il tarixli qərarına əsasən doktor Sultanov Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının general-qubernatoru təyin olunub və o, ingilis komandanlığının dəstəyinə malikdir.
2. Mövcud qanunlara görə, bütün əhalinin ehtiyaclarının ödənməsi üçün general-qubernator yanında 6 nəfər hadisələrdən məlumatlı erməni və müsəlmandan ibarət şura yaradılır.
3. İngilis komandanlığının nümayəndəsi kimi şuraya bir nəfər ingilis missiyasının zabiti daxil ola bilər.
4. General-qubernatorluq daxilində bütün işçilərin maaşı və başqa xərcləri Azərbaycan xəzinəsindən ödənilir.
5. Bütün mübahisəli məsələlər öz qəti həllini sülh konfransında tapacaq.
6. General-qubernatorluq daxilində hərbi hissələrin hər cür yerdəyişməsi haqqında əvvəlcədən ingilis missiyasının diqqətinə çatdırılmalıdır.

7. Bu müraciətlə ingilis komandanlığı bildirir ki, general-qubernatorluq hüdudlarında qanunçuluq və sakitliyin yaradılması üçün general-qubernatora həvalə olunan vəzifələrin icrası zamanı general-qubernator və onun orqanlarına aid olan bütün sərəncamlar və tədbirlər sözsüz icra olunmalıdır. İngilis komandanlığı bütün qanuni fəaliyyətə tam dəstək verir" [26, s.295].

Yəni ingilis komandanlığı bir tərəfdən Azərbaycan hökumətinin Qarabağda vəziyyətin sabitləşdirilməsi üçün izlədiyi siyasəti dəstəklədiyini bildirir, digər tərəfdən də ərazi mübahisələri ilə bağlı məsələlərin həllinin Paris sülh konfransının öhdəsinə buraxılmasını lazım bilirdi.

1919-cu ilin avqustunda Böyük Britaniya hökuməti ingilis hərbi qüvvələrinin Azərbaycandan çıxarılması haqqında qərar qəbul etdi. Qeyd edildiyi kimi, müəyyən məsələlərdə, o cümlədən Azərbaycanın hərbi gəmilərinin Denikinin tabeliyinə verilməsində, denikinçi zabitlərin Azərbaycan daxilində ingilislər tərəfindən himayə olunmasında Azərbaycan hökuməti ilə ingilis hərbi komandanlığı arasında bir anlaşılmazlıq qalmaqda idi. Bununla belə, Azərbaycanın müstəqilliyinin müdafiəsi sahəsində tərəflər arasında faydalı əməkdaşlıq yaradıldığından Azərbaycan hökuməti ingilis hərbi qüvvələrinin Azərbaycanı tərk etməsini istəmirdi. Buna görə də Azərbaycan hökuməti ingilis hərbi qüvvələrinin Azərbaycandan çıxarılmaması ilə bağlı Böyük Britaniya hökumətinə müraciət etmək haqqında qərar qəbul etdi və Azərbaycanın xarici işlər naziri olan Məmməd Yusif Cəfərov bu qərarı Böyük Britaniya hökumətinə göndərdi. Eyni zamanda o, hərbi qüvvələrin Bakıdan çıxarılması ilə bağlı qərara yenidən baxılması üçün ingilis hərbi qüvvələrinin Bakıdakı yeni komandanı polkovnik Şatelvorta məktub göndərdi [22, s.308]. Lakin yaranmış tarixi şəraitlə əlaqədar olaraq, Böyük Britaniya hökuməti ingilis hərbi qüvvələrinin Azərbaycandan çıxarılması qərarını dəyişmədi.

İngiltərədən silah, sursat və hərbi geyim alınması məsələsini müzakirə etmək üçün Hərb naziri S.Mehmandarov 1919-cu ilin payızında İngiltərənin Bakıdakı Ali Komissarının siyasi nümayəndəsi polkovnik Stoksla görüşdü. Bu görüş zamanı İ.Usubovun rəhbərliyi altında Azərbaycan nümayəndə heyətinin İtaliyaya yollanmasına işarə edən S.Mehmandarov İngiltərə tərəfinin Azərbaycanla hərbi əməkdaşlığa razı olacağı təqdirdə, İtaliya ilə əldə edilə biləcək bütün razılaşmalara yenidən baxılacağını Stoksa bildirdi [27, s.113].

Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Fətəli xan Xoyski də 1920-ci il yanvar ayının 7-də İngiltərənin Ali Komissarlığının Bakıda olan siyasi nümayəndəsi polkovnik Stoksla görüşərək, Azərbaycana silah və hərbi geyim yardımı göstərilməsi məsələsini müzakirə etdi. Polkovnik Stoks Azərbaycan tərəfinin müraciətlərinə rəğbətlə yanaşaraq, İngiltərənin ali hakimiyyət orqanları qarşısında Azərbaycana silah və hərbi geyim yardımı edilməsinin vacibliyi məsələsini qaldırdı [27, s.78].

İngiltərənin hərbi-siyasi rəhbərliyi də bolşevik qoşunlarının Cənubi Qafqaza müdaxiləsinin qarşısının alınması üçün Azərbaycanın hərbi qüvvələrinə yardım göstərilməsini vacib hesab edirdi. Bununla bağlı İngiltərənin hərbi komandanlığı bu ölkənin Aralıq dənizində yerləşən hərbi dəniz qüvvələrinin komandanına Xəzər buxtasındakı topların çatışmayan ehtiyat hissələri ilə təmin edilməsi barədə göstəriş verdi[27, s.85].

Paris sülh konfransının müzakirələrində iştirak edən Azərbaycan nümayəndə heyətinin müraciətindən sonra Antanta ölkələrinin Ali Hərbi Şurası da 1920-ci ilin yanvar ayında Cənubi Qafqaz respublikalarına, o cümlədən Azərbaycana hərbi yardım göstərilməsi məsələsini müzakirə etdi. Bu məsələ ilə bağlı Ali Hərbi Şuraya təqdim olunmuş memorandumda da Cənubi Qafqaz respublikaları ilə yanaşı, Azərbaycana da ərzaq və hərbi yardımın göstərilməsi məqsədəuyğun sayılırdı. Eyni zamanda konfransda Denikin Ordusunun təmini üçün nəzərdə tutulmuş silah-sursatın da Cənubi Qafqaz respublikalarına verilməsi təklifi irəli sürüldü [27, s.86-87].

1920-ci ilin fevralında İngiltərənin hərbi nümayəndələri mövcud hərbi ehtiyacların müəyyənləşdirilməsi üçün Cənubi Qafqaza, o cümlədən də Azərbaycana səfər etdilər. Onlar lazım olan məlumatları topladıqdan sonra İstanbuldan keçməklə geri qayıtdılar. Aparılan danışıqlardan sonra bir sıra özəl ingilis şirkətləri Azərbaycanla əməkdaşlıq etmək niyyətində olduqlarını bildirdilər. Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin üzvlərinin verdiyi məlumata görə, bu şirkətlərlə müvafiq müqavilələrin imzalanması üçün İtaliyada olan Azərbaycanın hərbi nümayəndə heyətinin rəhbəri general İ.Usubovun İngiltərəyə gedərək zəruri olan təchizatın müəyyənləşdirməsinə ehtiyac var

idi. Lakin 1920-ci ilin fevralından başlayaraq Qarabağda hərbi vəziyyətin mürəkkəbləşməsi, Azərbaycanın müharibə vəziyyətinə olması, habelə bölgədə cərəyan edən hərbi-siyasi proseslər İngiltərə ilə hərbi əməkdaşlıq sahəsində müvafiq sənədlərin imzalanmasına imkan vermədi [27, s.114].

Gürcüstanla hərbi əməkdaşlıq

Müdafiə qüvvələrinin təşkilatlandırılması istiqamətində Azərbaycanla qonşu Gürcüstan arasında qurulmuş hərbi əməkdaşlıq da Cümhuriyyət Ordu quruculuğu üçün xüsusi əhəmiyyət daşıyırdı. Yaranmış tarixi şəraitdən irəli gələrək eyni vaxtda dövlət müstəqilliklərini elan etmiş Azərbaycanla Gürcüstan arasında qarşılıqlı dostluq münasibətlərinin bərqərar olması Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

Azərbaycan və Gürcüstan arasında hərbi əlaqələrin tənzimlənməsi üçün 1919-cu ilin yazında Tiflisdə Azərbaycanın hərbi attaşeliyi təsis edildi və polkovnik-leytenant Məmməd bəy Əliyev bu vəzifəyə təyin edildi [28, s.32]. Həmin ilin avqust ayında isə Gürcüstanın Azərbaycanda Hərbi Attaşeliyi təsis edildi və polkovnik Navasalov bu vəzifəyə təyin olundu [29, s.132].

Hərbi əməkdaşlığın qarşılıqlı fayda üzərində daha da genişləndirilməsi üçün 1919-cu il iyunun 16-da Azərbaycanla Gürcüstan arasında hərbi saziş imzalandı. Sazişi Azərbaycan hökuməti tərəfindən Xarici İşlər naziri M.Cəfərov, hərbi nazir S.Mehmandarov və Baş Qərargah rəisi M.Sulkeviç imzaladılar. Tiflisdə üç il müddətinə imzalanmış həmin sazişin əsas mahiyyəti ondan ibarət idi ki, respublikaların hər hansı birinə xarici müdaxilə olacağı halda, digər respublika ona hərbi kömək göstərsin [30, s.105-106].

Bu sazişin imzalanması Azərbaycanın dövlət və hökumət rəhbərliyi, habelə siyasətçiləri tərəfindən son dərəcə yüksək qiymətləndirildi. 1919-cu il iyunun 27-də parlamentin fövqəladə iclasında həmin saziş ratifikasiya olundu. Bununla bağlı çıxış edən parlament üzvləri və xarici işlər naziri M.Cəfərov Azərbaycanın və bütünlükdə bölgənin təhlükəsizliyinin təmin edilməsində sazişin əhəmiyyətini vurğulayaraq, bu günü hər iki respublikanın tarixində önəmli bir gün kimi xarakterizə etdilər. Xarici işlər naziri M.Cəfərovun fikrincə, həmin saziş Cənubi Qafqaz üçün real təhlükə sayılan Denikin təcavüzünün qarşısının alınmasında təsirli bir addım olmaqla, həm də Cənubi Qafqaz xalqlarının birliyi istiqamətində imzalanmış tarixi bir anlaşma idi. Sazişin hər iki xalqın həyatındakı praktiki əhəmiyyəti nəzərə alındığı üçün parlamentin müzakirələrində Gürcüstanın nümayəndə heyəti də iştirak edirdi.

Bu sazişə əlavə olaraq, iki dövlət arasında hərbi-texniki əməkdaşlıq haqqında da sənəd imzalandı ki, həmin sənədə müvafiq olaraq, Gürcüstan həm hərbi-texniki və sursat sahəsində, həm də hərbi kadrların hazırlanması istiqamətində Azərbaycana kömək göstərməli idi. Adları çəkilən sənədlər imzalandıqdan dərhal sonra onların icrasına başlanıldı. Bu da Azərbaycanın qoşun hissələrinin, o cümlədən Denikin təhlükəsinə qarşı şimal sərhədləri boyunca yerləşdirilmiş bölmələrin maddi-texniki təchizatını xeyli yaxşılaşdırdı.

Gürcüstandan alınacaq hərbi əmlakın qəbul edilməsi üçün Azərbaycanın Hərbi Nazirliyində xüsusi komissiya yaradıldı və general-mayor M.Tlexas bu komissiyanın rəhbəri təyin edildi [31, s.7]. General Tlexasın rəhbərlik etdiyi komissiyanın səmərəli fəaliyyəti nəticəsində Azərbaycan Ordusunun təchizatı üçün böyük əhəmiyyət kəsb edən iki eşelon hərbi-texniki vasitə və ərzaq 1919-cu il iyulun 11-də Azərbaycana göndərildi. Bu eşelonlarda 12 ədəd dağ topu, dağ topları üçün 10 yeşik partladıcı maddə, 1500 ədəd tüfəng, toplar və tüfənglər üçün böyük sayda ehtiyat detallar var idi. İyulun 19-da yola salınan digər eşelonda isə 8 ədəd yüngül top, toplar üçün 16 ədəd partladıcı maddə, 1500 ədəd tüfəng, toplar və tüfənglər üçün ehtiyat detallar, 12885 rubl məbləğində dərman və tibb ləvazimatı, habelə topoqrafiya əşyaları var idi. İyulun 21-də bir eşelon, əsasən, mühəndis- istehkam ləvazimatı Tiflisdən Gəncəyə göndərildi [32, s.237].

İyulun 18-dən etibarən komissiya çoxlu sayda mətbəx arabalarının, dördçarxlı arabaların qəbuluna başladı. Şəxsi adamlardan 20 min rubl həcmində çoxlu sayda top detalları alındı. Bütün əmlak üçün gürcü tərəfinə 80 min rubl avans verildi. Gürcüstandan alınacaq hərbi əmlakın dəyərinin bir hissəsinin neftlə ödənilməsi haqqında da razılıq əldə edildi [33, s.174].

Gürcüstanla 1919-cu il iyun ayının 16-da imzalanmış "Hərbi-müdafiə" sazişinə əsasən tərəflər bütün silahlı qüvvələri və hərbi vasitələri ilə razılığa gələn respublikaların birinin və ya hər ikisinin müstəqilliyini və ya ərazi bütövlüyünü təhdid edən hər hansı hücuma qarşı birgə çıxış etməyi öhdələrinə götürmüşdülər. Zərurət yarandığı halda, Gürcüstana belə bir köməyin göstərilməsi üçün Azərbaycan tərəfindən qüvvə və vəsaitlər ayrılmış, onların Gürcüstan ərazisinə çatdırılması planları hazırlanmışdı. Bu plana əsasən nəzərdə tutulurdu ki, Gürcüstan hərbi müdaxiləyə məruz qalsa, onun köməyinə bir piyada diviziyası və bir süvari briqadası göndərilsin. Piyada diviziyası kimi 1-ci piyada diviziyasının Gürcüstana göndərilməsi planlaşdırılırdı. Diviziyanın 1-ci Cavanşir alayı Xankəndindən, 2-ci Zaqatala alayı Zaqataladan, 3-cü Gəncə alayı Gəncədən, 1-ci topçu briqadasının 1-ci batareyası Xankəndindən, 2-ci və 3-cü batareyaları Gəncədən, 4-cü batareyası isə Xankəndindən Gürcüstana yola salınmalı idi. Gürcüstana göndərilməli olan süvari briqadası isə mövcud süvari diviziyasının bazasında formalaşdırılmalı idi. Bu briqadanın tərkibinə 2-ci Qarabağ süvari alayının, 3-cü Şəki süvari alayının və dağ-atlı batareyasının verilməsi planlaşdırılırdı. Bu qüvvələrin Gürcüstana çatdırılması onların səfər hazırlığından və daşınmaların təşkilindən asılı idi. Xüsusən, daşınmalar üçün zəruri olan vaqonların vaxtında ayrılması planlaşdırılan işlərin icrası üçün xüsusi əhəmiyyət kəsb edirdi. Gürcüstana göndərilməli olan hissələrdən yalnız 2-ci Zaqatala piyada alayı piyada olaraq qonşu respublikanın ərazisinə keçməli idi. Çünki Gürcüstan sərhədinə yaxınlıq buna imkan verirdi. Digər hissə və bölmələr isə dəmir yolu ilə daşınmalı idi. Aparılan hesablamalara görə, hərbi yardım üçün nəzərdə tutulmuş qüvvə və vasitələrin daşınması üçün 940 ədəd vaqon lazım idi. Əldə edilən məlumata görə, respublikada kifayət qədər vaqon olsa da, bütün yükləri götürə biləcək 10 eşelonun hərəkətə gətirilməsi üçün kifayət qədər parovoz yox idi. Bu məsələ həll olunacağı təqdirdə nəzərdə tutulan bütün qüvvə və vasitələrin 4 gün ərzində Gürcüstan ərazisinə çatdırılması mümkün idi. Belə bir hazırlıq işləri Gürcüstan tərəfindən də aparılmışdı və Azərbaycan üzərinə hərbi müdaxilə olacağı təqdirdə Gürcüstan tərəfindən Azərbaycana müvafiq hərbi kömək göstərməli idi [34, s.370-371].

İki ölkə arasında hərbi əməkdaşlığın uğurlu davamı kimi, 1920-ci il yanvarın 20-də Azərbaycan və Gürcüstan arasında müştərək Hərbi Şura təsis edildi. Bu müştərək Hərbi Şura hər iki ölkə üçün ehtimal olunan düşmənləri və hərbi əməliyyatlar rayonunu öyrənməli, məqsədəuyğun müdafiə və dislokasiya planını hazırlamalı, hər iki ölkənin hərbi qüvvələrinin döyüş hazırlığı vəziyyətini nəzarət altında saxlamalı idi.

Hərbi Şuraya hər tərəfdən iki nəfər daxil etməli və hökumətlərin qarşılıqlı razılaşması əsasında onlardan biri Şuranın sədri seçilməli idi. Şuranın iclaslarına hər iki respublikanın məsul vəzifəli şəxsləri dəvət oluna bilərdilər. Bu orqanın qəbul etdiyi strateji və hərbi-texniki yönümlü qərarların icrası hər iki tərəf üçün məcburi xarakter daşımalı idi. Hər hansı bir qərarın qəbulundan sonra onun icrası ilə bağlı zəruri hallarda işçi iclasları keçirilə və bu iclaslarda qəbul olunmuş qərarların icra mexanizmi müəyyənləşdirilə bilərdi. Belə iclaslarda fikir ayrılığı yarandığı halda, bu hala səbəb olmuş məsələ hökumət rəhbərlərinə məruzə olunmalı və onların iştirakı ilə razılıq əldə edilməli idi [35, s.18].

Qeyd etmək lazımdır ki, Azərbaycan tərəfdən bu Şuraya artilleriya generalı Əliağa Şıxlinski və Baş Qərargah rəisi Məmməd bəy Sulkeviç, Gürcüstan tərəfindən isə N.Odoşelidze və Kutetaladze seçilmişdilər [36, s.25].

İki dövlət arasında imzalanan sənədlərə uyğun olaraq, hərbi mütəxəssislərin hazırlanması üçün Gürcüstana azərbaycanlı hərbi qulluqçular ezam olundular. Onlardan 6 zabit təyyarəçilik kurslarında, 4 zabit və 10 nəfər əsgər isə radioteleqraf kurslarında hazırlıq keçməli idilər.

Eyni zamanda 14 gürcü zabit hərbi nazirin 1919-cu il 15 iyul tarixli əmri ilə Cümhuriyyət Ordusu sıralarına qəbul edildi [37, s.27-28]. Bu proses sonralar da davam etdirilmişdi.

Azərbaycanda milli zabit kadrlarının çatışmadığı bir vaxtda gürcü zabitlərindən istifadə edilməsi qoşun hissələrinin formalaşdırılmasında mühüm rol oynayırdı Qarşılıqlı razılaşmaya əsasən gürcü zabitlər Azərbaycan Ordusunda xidmət edə bilsələr də, Azərbaycan ərazisində aparılan döyüşlərdə iştiraketmə hüququna malik deyildilər. Razılaşmaya əsasən, Cümhuriyyət Ordusu sıralarında xidmət edərkən gürcü zabitlərin əvvəlki imtiyazları, o cümlədən onların rütbələri, iş stajları və bundan irəli gələn imtiyazlar saxlanılırdı.

Xidmət təcrübələri nəzərə alınmaqla, çox sayda gürcü zabiti Cümhuriyyət Ordusu sıralarında çox məsul vəzifələrə təyin olunmuşdular. Məsələn, podpolkovnik Svanadze Gəncə şəhərinin komendantı vəzifəsinə, polkovnik Çxeidze əvvəlcə 4-cü Quba piyada alayının komandiri olmuş, sonradan isə Hərbiyyə Məktəbinin rəisi təyin edilmişdi. Cümhuriyyət Ordusu sıralarında gürcü millətindən olan beş nəfər general xidmət edirdi: general-mayor Amaşukeli, general-mayor Sisianov, general-mayor Purseladze, general-mayor Karqaleteli və general-mayor Çxeidze. Karqaleteli və Çxeidze Azərbaycan hökumətinin qərarı ilə bu ali hərbi rütbəyə layiq görülmüş son Cümhuriyyət generalları idilər.

Adları çəkilən gürcü generalların hər birinin Cümhuriyyətin ordu quruculuğunda böyük rolu vardır. Hərbi nazir Səməd bəy Mehmandarov onlardan biri olan general-mayor Amaşukelinin Cümhuriyyət Ordusu sıralarındakı xidmətini belə qiymətləndirirdi: *"Süvari diviziyasının komandiri vəzifəsini icra edən, diviziyanın qərargah rəisi general Amaşukelidən daxil olan vəsatətə görə, o, öz arzusu ilə xidməti tərk edir və qoşunların siyahısından çıxarılır. 7 ay əvvəl orduda quruculuq işlərinin çox gərgin vaxtında süvari diviziyasının qərargah rəisi vəzifəsinə qəbul edilən general Amaşukeli, əslində, beş aydan çox diviziya komandir vəzifəsini icra etmişdi. Hərb işini yaxşı bilən və onu sevən general Amaşukeli hərbi hissələrdə xidmətin tələblərini həyata keçirməkdə enerjisi və xüsusi qətiyyətliliyi ilə fərqlənirdi və işə böyük xeyir gətirirdi. General Amaşukeli ilə təəssüflə vidalaşaraq, ona ordu sıralarındakı əla və səmərəli xidmətlərinə görə öz səmimi minnətdarlığımı bildirirəm"* [38, s.121].

Gürcü hərbi mütəxəssisləri, həmçinin konkret məsələlər üzrə məsləhətlərin alınması məqsədilə Azərbaycana dəvət edilirdilər. Məsələn, general-leytenant M.Sulkeviçin xahişi ilə 1919-cu il avqustun sonunda gürcü generalları Kutalaşvili və Takayşvili Bakıya gəldilər [39, s.20]. Bu təcrübəli generallar Bakı şəhərinin müdafiə sisteminin qurulması ilə bağlı öz yardımlarını göstərdilər.

General Takayşvilinin rəhbərliyi altında Bakı və onun ətrafının müdafiəsi planı hazırlandı. Bu plan iki hissədən ibarət idi: birincisi – Abşeron yarımadasının müdafiəsi, ikincisi – Bakı şəhərinin müdafiəsinin mühəndis-istehkam işlərinin təşkili. Abşeron yarımadasının müdafiəsi üçün görülməli olan istehkam işləri Badamdardan Masazır gölünə qədər uzanırdı. Bu xətt üzrə 7 dayaq müdafiə qrupu yerləşdirilməli idi. İkinci müdafiə xətti isə Biləcəri–Böyük Şor–Razin dağı–Əhmədli ərazisi boyunca keçməli idi. Bu xətt boyunca 6 dayaq müdafiə qrupu yerləşdirilməli idi [40, s.61-62].

1919-cu ilin noyabr ayında general Takayşvili yenidən Bakıya gəldi. O, Bakının və Abşeron yarımadasının müdafiəsinin təşkili ilə bağlı hazırladığı planın icrası ilə tanış oldu. Gürcü generalı müdafiə işlərinin sürətini və keyfiyyətini artırmaq üçün tövsiyələrini hazırlayıb Azərbaycanın Hərbi Nazirliyinin rəhbərliyinə təqdim etdi.

Gürcü zabitlərinin bir qrupu da şimal sərhədlərinin müdafiəsinin gücləndirilməsi məqsədilə aparılan mühəndis-istehkam işlərinin icrasında iştirak edirdilər. Bu istiqamətdə aparılan mühəndis-istehkam işlərinə ştabs-kapitan Sereteli rəhbərlik edirdi. Həmin işlərin aparılması ilə bağlı ştabs-kapitan Sereteli çox müfəssəl bir raport hazırlayıb Hərbi Nazirliyə təqdim etmişdi [41, s.8-9].

Gürcüstandan olan zabitlərinin məişət qayğılarının daha yaxşı həlli üçün hərbi naziri S.Mehmandarovun 28 fevral 1920-ci il tarixli əmri ilə onlara ayrılan ezamiyyət pullarının miqdarı da artırıldı. Hərbi Nazirliyin rəhbərliyi çalışırdı ki, bu zabitlər Azərbaycanda heç bir çətinliklə rastlaşmadan xidmət etsinlər. Qeyd etmək lazımdır ki, bu zabitlərin köməyi ilə qısa müddət ərzində xeyli işlər görülmüş və Denikin təhlükəsinə qarşı Azərbaycanda çox güclü müdafiə sistemi yaradılmışdı.

İtaliya və Fransa ilə hərbi əməkdaşlıq məsələləri

Ölkənin müdafiə qüdrətinin artırılması və ordunun təchizat səviyyəsinin daha da yaxşılaşdırılması üçün Azərbaycan hökumətinin və Hərbi Nazirliyinin beynəlxalq fəaliyyətinin mühüm istiqamətlərindən birini də inkişaf etmiş Avropa dövlətləri ilə hərbi əməkdaşlığın yaradılması təşkil edirdi. Belə bir əməkdaşlığın uğurla qurulması Cümhuriyyət Ordusu üçün zəruri olan keyfiyyətli təchizatın əldə edilməsinə imkan verə bilərdi. Həmin istiqamətdə atılan addımlardan biri də İtaliya ilə hərbi əməkdaşlığın yaradılmasına göstərilən cəhd idi. Bu məqsədlə xüsusi komissiya təşkil edildi. Komissiyaya 2-ci piyada diviziyasının komandiri general İbrahim ağa Usubov rəhbərlik edirdi. Hərbi Nazirliyin rəhbərliyi, xüsusən general Usubov İtaliyanın Soloniki şəhərinə yollanmalı və orada

İtaliyanın Hərbi Nazirliyi ilə Cümhuriyyət Ordusu üçün zəruri olan topçu, istehkam, tibb, geyim və s. əşyaların əldə edilməsi üçün müzakirələr aparmalı idi. İtaliyadan 25 min dəst hərbi geyim alınması və Azərbaycana gətirilməsi nəzərdə tutulmuşdu [36, s.159].

1919-cu ilin oktyabrında İtaliyaya yola düşən general İ.Usubovun rəhbərlik etdiyi komissiya Romada İtaliyanın Hərbi Nazirliyi ilə danışıqlara başladı. Hərbi Nazirliyin Azərbaycan tərəfinin tələbini ödəyəcək məhsulları təmin etmək imkanında olmadığı məlum olduqda İtaliyanın özəl şirkətləri ilə müzakirələrə başlanıldı. 1919-cu ilin noyabr ayı ərzində Genuya, Milan, Turin, Verona və Triento şəhərlərinin şirkətləri ilə danışıqlar aparıldı və nəticədə Kiono, Qello və Ko şirkətləri ilə müvafiq razılaşma əldə edildi. Bu şirkətlərin rəhbərliyi anbarlarında 20 min dəst hazır hərbi geyim olduğunu bildirdi və az bir vaxta daha 5 min dəst hərbi geyim, habelə general və zabitlər üçün 500 dəst geyim hazırlayacaqlarını vəd etdi. 1919-cu il noyabrın 23-də Azərbaycan heyəti ilə adı çəkilən şirkətlər arasında razılaşdırılmış təchizatın satın alınması haqqında müqavilə imzalandı. Həmin müqaviləyə əsasən hərbi geyim əşyalarının 1919-cu il dekabrın 20-də İtaliyanın Turin şəhərindən Bakıya yola salınması nəzərdə tutulmuşdu [36, s.159].

Lakin İtaliyada mövcud olan ictimai-siyasi vəziyyətin mürəkkəbləşməsi səbəbindən bu ölkədən alınmış hərbi əmlakın Azərbaycana vaxtında göndərilməsi mümkün olmadı. Nəticədə İtaliyadan göndərilən hərbi təchizat Cümhuriyyətin süqutu ərəfəsində Azərbaycana çatdı və həmin əmlak Azərbaycana müdaxilə etmiş bolşevik ordusunun əlinə keçdi [42, s.42].

Cümhuriyyət Ordusunun hərbi təchizatla təminatının yüksəldilməsi üçün Antanta hərbi qüvvələrinin komandanlığı ilə əlaqə yaradılması cəhdləri haqqında da məlumatlar mövcuddur. Həmin məlumatlara əsasən, İtaliyaya göndərilmiş nümayəndə heyətinin rəhbəri general-mayor İ.Usubov Avropada olarkən, Antanta qüvvələrinin komandanlığı ilə də əlaqə saxlamış, Antanta ölkələrinin hərbi rəhbərliyi Cümhuriyyətin Hərbi Nazirliklə əməkdaşlıq etməkdən imtina etməmişdi. Lakin Antantanın hərbi anbarlarında olan hərbi geyim ehtiyatları rumın, çex və polyak hərbi qüvvələrinə paylandığından çox az miqdarda qalmışdı və bu miqdar Azərbaycan tərəfini qane etmədiyindən İ.Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya ilə əməkdaşlığa üstünlük verdi·

Azərbaycan hökuməti və Hərbi Nazirliyin rəhbərliyi ordunun təchizatının daha da yaxşılaşdırılması üçün Fransa ilə də əlaqələr yaratmağa cəhd göstərdi. Bunun nəticəsi kimi, tərəflər arasında aparılan danışıqlardan sonra 1920-ci il martın 9–12-də fransalı zabitlər mayor Nonankur və dəniz qüvvələri leytenantı Deforj da Bakıda olmuş və Azərbaycana hərbi yardım göstərilməsi imkanlarını araşdırmışlar. Adları çəkilən zabitlər Azərbaycanın hərbi-dəniz qüvvələrinin mövcud imkanlarını nəzərdən keçirmişlər. Öz rəhbərliklərinə göndərdikləri raportda həmin zabitlər bildirirdilər ki, Azərbaycanın hərbi dəniz qüvvələrinin yaxşılaşdırılması üçün buraya hərbi əmlakla yanaşı, həm də hərbi təlimatçıların göndərilməsinə ehtiyac vardır [27, s.121-123].

Lakin 1920-ci il aprel ayının sonlarında bolşevik qoşunları Azərbaycana daxil olduqdan sonra hərbi sahədə Avropa ölkələri ilə planlaşdırılan əməkdaşlıq məsələlərinin həyata keçirilməsi mümkün olmadı.

Nəticə

Azərbaycan xalqının XX əsrin əvvəllərində yaratdığı ilk respublika cəmi 23 ay mövcud oldu. Bölgədə və dünyada gedən siyasi proseslər səbəbindən Azərbaycanın müstəqilliyini qorumaq mümkün olmadı və 1920-ci il aprel ayının 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olundu. Mövcud olduğu dövr ərzində Azərbaycan Xalq Cümhuriyyətinin əldə etdiyi mühüm nəticələrdən biri də yetərli döyüş qabiliyyətinə malik olan milli ordunun yaradılması oldu. Qısa müddət ərzində Azərbaycan hökuməti ölkənin daxili imkanlarını səfərbərliyə almaqla bərabər, həm də dünya dövlətləri ilə hərbi əməkdaşlıq sahəsində səmərəli bir siyasət həyata keçirə bildi. Müasir və demokratik dəyərlərə üstünlük verən Azərbaycan hökuməti hərbi sahədə də səmərəli bir siyasət yeritməyə çalışırdı. Bu siyasət beynəlxalq normalara, eyni zamanda milli maraqlara cavab verirdi. Nəticədə həm ordunun, həm də ölkənin möhkəmləndirilməsi istiqamətində səmərəli işlər görmək mümkün oldu. Ən əsası isə cümhuriyyət dövründə Azərbaycanın hərbi diplomatiyasının əsası qoyuldu.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Osmanlı imperator hökuməti və Azərbaycan Respublikası arasında dostluq müqaviləsi // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond № 277, siyahı № 2, iş № 9.
2. Birinci Dünya harbinde türk harbi Kafkas cebhesi 3ncü ordu harekatı. – Ankara: Genelkurmay basım evi, – cilt II. – 1995, – 686 s.
3. Osmanlı-Azərbaycan hərbi müqavilə layihələri / V.Qafarov, Q.Şükürov. Azərbaycan Cümhuriyyəti tarixi (1918-1920-ci illər) // Osmanlı arxiv sənədləri əsasında, Elmin inkişaf fondu, – 2017, – 520 s.
4. Azərbaycan Cümhuriyyəti tarixi. 1918-1920-ci illər / V.V.Qafarov, Q.E.Şükürov (Osmanlı arxiv sənədləri əsasında). Bakı, Elmin İnkişafı Fondu – 2017. – 520 s.
5. Nuri paşa həzrətləri hüzurunda Lənkəran nümayəndəsi // Azərbaycan qəzeti – 1918, 3 noyabr. № 29.
6. Təmim. // – Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı) – 2020.№ 148, – 472 s.
7. Ordu əmr-i yevmisi. Numro 28. Kafkas İslam Ordusu (Azerbaycan harekatı) // – Ankara Askeri tarih belgeleri dergisi. – 2020. № 148, – 472 s.
8. Azerbaycan Hükumeti Heyeti Vükəla Riyasst-i Aliyyesinez. // – Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı) – 2020. №148. – 472 s.
9. Elçi. Gəncədə milli zabitan təftiş və imtahan mərasimi // Azərbaycan qəzeti, – 1918, 5 noyabr. – s. 2.
10. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. // (Redaktorlar M. Rıhtım və M. Süleymanov) – Bakı: Nurlar, –2008, – 696 s.
11. İsgenderli, A. Realities of Azerbaijan: 1917-1920 / A.İsgenderli, – USA: Xlibris Corporation – 2011, – 370 s.
12. Yüceer, N. Birinci Dünya savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan harekatı./ N.Yüceer, – Ankara: Genelkurmay Basım evi, – 1996 – 202 s.
13. Azerbaycan Hükûmeti ile burada kalacak zâbitân için akd edilen mukavele şerâiti // –Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). – 2020.№148, – 472 s.
14. Azerbaycan Kolordusu Kumandanlığına // – Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). – 2020.№148 – 472 s.
15. Ordu Dâiresine // – Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). – 2020.№148, – 472 s.
16. Şimâlî Kafkas Kumandanlığına ve Reîs-i Cumhûr Abdülmecîd Çermoyef Hazretlerine // – Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). – 2020.№148, – 472 s.
17. Gence'den Başkumandanlık Vekâlet-i Celîlesi Erkân-ı Harbiyye-i Umûmiyye Riyâsetine / – Ankara: Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). Askeri tarih belgeleri dergisi. Kafkas İslam Ordusu (Azerbaycan harekatı). – 2020.№148, – 472 s.
18. Süleymanov, M.S. Səməd bəy Mehmandarov / M.S. Süleymanov, – Bakı: Hərbi Nəşriyyat, – 2000, – 376 s.
19. Azərbaycan Cümhuriyyəti Ordusunun zabit və məmurları / A.Şahbazov, – Bakı: Maarif, – 2020. – 814 s.
20. Baykara, H. Azərbaycan istiqlal mübarizəsi tarixi. / H.Baykara, – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1992. – 276 s.
21. Юсифзаде, С. Азербайджано-британское отношения в начале XX века. / С.Юсифзаде, – Баку: Тахсил, –2008, –128 s.
22. Azərbaycan tarixi. [8 cilddə].. – Bakı: Elm, – c.5 – 2008, – 696 s.
23. Azərbaycan Cümhuriyyəti (1918-1920). / – Bakı: Elm, –1998, – 336 s.

24. Qafqaz və Bakı ərazisinə dair məlumatlardan çıxarışlar / Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. Üç hissədə. III hissə. – Bakı – 2004. –532 s.

25. Отношение М.Сулькевича С.Агабекову об организации контрразведки в Баку в связи с прибытием азербайджанских войск. №1539, Гянджа 31 марта 1919 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №894, siyahı №2, iş №88

26. Нагорный Карабах в международном праве и мировой политике. Документы и комментарий (Составитель проф. Ю.Г. Барсегян). [В двух томах] – Москва: Круг –т.1. – 2008. – 944 s.

27. Топчубаши, А.М. Парижский архив. В четырех книгах. Книга первая. 1919-1921. – Москва: Художественная литература, – 2016, – 568 s.

28. Приказ по военному ведомству Азербайджанской Республики, № 148, 26 марта 1919 года // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond № 2894, siyahı №1, iş №3

29. Приказ по военному ведомству Азербайджанской Республики, №365, 17 августа 1919 года // Azərbaycan Respublikasının Dövlət Arxivi. Fond №2894, siyahı №1, iş №40

30. Военно-оборонительное соглашение, заключенное между правительствами Азербайджана и Грузии и утвержденное парламентом 27 июня 1919 г. Азербайджанская Демократическая Республика (1918-1920) /– Баку, – 1998, – 440 s.

31. Приказ С.С.Мехмандарова об объявлении благодарности членам комиссии, приобретшим вооружение и военное имущество в Республике Грузии, №421, 19 сентября 1919 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №2900, siyahı №1, iş № 1

32. Süleymanov, M. Azərbaycan Ordusu (1918-1920). / M.Süleymanov, – Bakı: Hərbi nəşriyyat, – 1998. – 488 s.

33. Süleymanov, M. Azərbaycan Ordusunun tarixi: [5 cilddə]. / M.Süleymanov,– Bakı: Maarif – c.2. – 2018. – 728 s.

34. Süleymanov, M. Hərb tarixindən. / M.Süleymanov, – Bakı: Maarif, – 2020, – 608 s.

35. Положение о Союзном военном совете республик Азербайджана и Грузии. 18 января 1920 г.//Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №970, siyahı №.1, iş №64

36. Süleymanov, M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi. [2 cilddə] / M.Süleymanov, – Tehran: Firuzan, – c.2. – 2014. – 696 s.

37. Приказ по военному ведомству Азербайджанской Республики, № 323, 15 июля 1919 года // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №2894, siyahı №1, iş №5

38. Приказ по военному ведомству Азербайджанской Республики, № 347, 03 августа 1919 года // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №2894, siyahı 1, iş №24

39. Сообщение военного инженера ген.-м. Такаишвили В. к Д.Каргалетели о необходимых мерах для начала работ по укреплению обороны Баку. Август 1919 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond 2898, siyahı №1, iş №13

40. Доклад М.А.Сулькевича С.С.Мехмандарову о мерах, необходимых для укрепления подступом к Баку с моря. Август 1919 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, iş 13

41. Доклад шт.-кап. В.Церетели к Д.Каргалетели о ходе работ по инженерному оборудованию позиций на северной границе Азербайджана. 29 августа 1919 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond 2898, siyahı №1, iş №6

42. Стеклов, А.А. Армия мусаватского Азербайджана. /А.А.Стеклов, – Баку: Азгосиздат, – 1928. – 52 s.

Аннотация
Военная дипломатия в период
Азербайджанской Демократической Республики
Мехман Сулейманов

Одной из основных задач, стоящих перед правительством Азербайджанской Демократической Республики в области обеспечения военной безопасности страны, было налаживание международного военного сотрудничества. За 23 месяца независимости правительству республики удалось провести плодотворную политику в этом направлении. Прежде всего, удалось достичь хорошие результаты в области военного сотрудничества с Османской Турцией. Это сотрудничество дало эффективные результаты в деле устранения существующей угрозы, обеспечения независимости и территориальной целостности Азербайджана. Хотя эта тема достаточно широка, в статье отражены отдельные ее аспекты. В статье также проанализирована сфера международного военного сотрудничества, сложившаяся с Грузией. В частности, после того как турецкие военные силы покинули Азербайджан, было усилено внимание на расширение военного сотрудничества с Грузией В статье также затронуты вопросы военного сотрудничества, установившегося между Великобританией и другими европейскими государствами, в том числе Италией и Францией, и Азербайджанской Демократической Республикой.

Ключевые слова: Азербайджан, независимость, национальная армия, военная политика, военное сотрудничество

Abstract
Military diplomacy during the period of the
Azerbaijan Democratic Republic
Mehman Suleymanov

One of the main tasks facing the government of the Azerbaijan Democratic Republic in the field of ensuring the military security of the country was the establishment of international military cooperation. Over the 23 months of independence, the government of the republic managed to pursue a fruitful policy in this direction. First of all, good results were achieved in the field of military cooperation with Ottoman Turkey. This cooperation has produced effective results in eliminating the existing threat, ensuring the independence and territorial integrity of Azerbaijan.

Although this topic is quite broad, the article reflects some of its aspects. The article also analyzes the sphere of international military cooperation that has developed with Georgia. In particular, after Turkish military forces left Azerbaijan, there was an increased focus on expanding military cooperation with Georgia. The article also touches on the issues of military cooperation established between Great Britain and other European states, including Italy and France and the Azerbaijan Democratic Republic.

Keywords: Azerbaijan, independence, national army, military policy, military cooperation

Məqalə redaksiyaya daxil olmuşdur: 18.04.2024
Təkrar işlənməyə göndərilmişdir: 22.04.2023
Çapa qəbul edilmişdir: 06.05.2024

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 83-93
HƏRBİ XÜSUSİ ELMLƏR ***MILITARY SPECIAL SCIENCES***

UOT 629.076:623.426 DOI: 10.30546/9878.2024.2.10.0027.

ANALYSIS OF THE PROPERTIES OF MILITARY VEHICLES

PhD in technical sciences, Associate Professor Anatoly Kovtun
National Guard Military Academy of Ukraine

PhD in technical sciences, Associate Professor Volodymyr Tabunenko
National Air Force University Ivan Kozhedub Kharkiv, Ukraine
tabunenko55@ukr.net

PhD in technical sciences, Associate Professor Sergey Nesterenko
National Aerospace University ("KhAI"), Ukraine
nesterenko.geo@gmail.com

Konstantin Borisenko
National Air Force University Ivan Kozhedub Kharkiv, Ukraine
kostya.bo.bo.01@gmail.com

Abstract. With the beginning of military aggression, the arsenal of military vehicles of the Armed Forces of Ukraine was replenished with modern and highly effective models from NATO countries. Current documents on the organization and operation of military vehicles need to determine some of the indicators for the use of vehicles. The indicators used do not allow us to assess the degree of combat effectiveness of vehicles during combat operations. The article analyzes various types (modifications) of the main properties of military vehicles and obtains dependencies to assess their combat capability when performing assigned tasks in the conduct of combat operations. The essence and content of the category of "combat capability of military automotive equipment" are defined and a common understanding of the properties included in this category has been developed. The paper proposes mathematical dependencies to determine the indicators of individual properties of the combat capability of military vehicles, which allows to create a mathematical apparatus for its assessment and forecasting, which makes it possible to build mathematical models of combat (operation) that will correspond to the real processes of armed struggle as much as possible. The objective of the study is to determine the indicators of the main properties of new models of military vehicles. The following theories were used as a research method for assessing the level of combat capability of military vehicles: the reliability of weapons and military vehicles, the effectiveness of the use of military vehicles, the survivability of military vehicles, the technical operation of military vehicles, probabilities and mathematical statistics.

Keywords: military automotive equipment, efficiency of application weapon systems, basic properties and combat capability of automotive equipment.

Introduction

Since the beginning of Russia’s full-scale invasion of Ukraine, the arsenal of the Armed Forces of Ukraine (AFU) has been replenished with modern high-performance models of military vehicles. These means are designed to dramatically increase the effectiveness of the use of weapons systems of military formations of the security and defense sector of Ukraine, reduce the aggressor's capabilities, and force the enemy to be defeated on the battlefield.

Military vehicles are the most popular means of equipment in the army and, thanks to their technical capabilities, ensure the fulfillment of assigned tasks at the tactical and operational levels. The need to provide military units of the Armed Forces of Ukraine with modern automotive equipment is associated with the increase in the tasks assigned to the troops.

With the help of military automotive equipment (MAE), various combat missions are solved:

– effective use of weapons placed on vehicles;

– ensuring fast transportation of personnel;
– delivery of ammunition, petroleum products and other material resources;
– evacuation, towing and repair of military equipment and weapons;
– placement of means of engineering support, communication, electronic warfare, protection and defense of areas;
– conducting reconnaissance;
– medical support and others.

To accomplish these tasks, there is a need to create various modifications of MAE. There is a need to adapt MAE samples to changes on the battlefield. At the same time, it is necessary to ensure the justification of the requirements for MAE in the changed conditions. Current documents on the organization and operation of automotive equipment need to determine some of the indicators of the use of MAE, namely:

– coefficient of technical readiness of machines;
– fleet utilization rate,
– load capacity utilization rate,
– mileage utilization rate, etc.

However, these indicators do not make it possible to assess the degree of combat capability of the automotive equipment of the military unit (subdivision).

Therefore, determining the indicators of the main properties of new MAE models for the Armed Forces of Ukraine (AFU) for further modernization of vehicles in order to meet the needs of military units is an urgent task.

Analysis of the latest research and publications. The scientific basis for research on the assessment of the level of combat capability of are the theories of reliability of weapons and military equipment, effectiveness of the use of MAE, survivability of military equipment, technical operation of combat vehicles, probabilities and mathematical statistics [1-5]. The basic terms and definitions of equipment reliability and reliability forecasting based on the results of testing and operation of equipment are given in the works [1; 2]. The papers [6-11] provide methodological bases for the development of models for assessing the expected effectiveness of performance of service and combat tasks by military units and subdivisions and features of assessing the effectiveness of systems in combat operations using probabilistic models.

The paper [12] analyzes the renewal of the fleet of wheeled vehicles of the armies of NATO member states from 2012 to 2022. The paper [13] substantiates the tactical and technical requirements for the development of promising models of "light" armored vehicles.

However, the results presented in the considered works do not make it possible to assess the combat capability of military vehicles during the performance of assigned tasks in the conduct of hostilities.

framework in the above area, analyzes priority development sectors, along with innovations. Separately, a brief overview of the steps taken in the sectors of e-government, digitalization, cybersecurity, military industry and space activities is given. The article ends with a description of the current government program 2021-2026 and the steps planned to be implement by the Armenian government. The analysis allows us to conclude that the Armenian government is overly interested in various sectors of information technology, since legislation is a clear instance of this. As a result of strengthening the legislative framework, Armenia strives to achieve job creation, an innovative and competitive economy, an influx of investments, and the development of scientific and technical potential that can affect the quality of the armed forces and the improvement of the military industry.

Keywords: information technology, cybersecurity, military industry, Armenia, regulatory framework, law

Məqalə redaksiyaya daxil olmuşdur: 19.01.2024
Təkrar işlənməyə göndərilmişdir: 24.04.2024
Çapa qəbul edilmişdir: 25.04.2024

Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences
№2(10)/2024, səh. 141-148

HƏRBİ TƏBABƏT ***MILITARY MEDICINE***

UOT 578; 579 DOI: 10.30546/9878.2024.2.10.0037.

BAĞIRSAQ MİKROBİOTASININ ƏHƏMİYYƏTİ VƏ MÜASİR DİAQNOSTİKA ÜSULLARI

t.ü.f.d. Hafizə Mansurova
ATU Tibbi mikrobiologiya və immunologiya kafedrası
departament.microbiology@amu.edu.az

t.ü.f.d. Səidə Hacıyeva
ATU Tibbi mikrobiologiya və immunologiya kafedrası
saida.hadjiyeva@gmail.com

b.e.d. prof. Gülər Seyidova
ATU Tibbi mikrobiologiya və immunologiya kafedrası
departament.microbiology@amu.edu.az

b.e.d. prof. Emma Ağayeva
ATU Tibbi mikrobiologiya və immunologiya kafedrası
departament.microbiology@amu.edu.az

b.ü.f.d. Yeganə Baxışova
ATU Tibbi mikrobiologiya və immunologiya kafedrası
departament.microbiology@amu.edu.az

tibb xidməti polkovniki Şahin Süleymanov
Hərbi tibb fakültəsinin Tibbi profilaktika kafedrası
departament_medical_prophylaxis@amu.edu.az

Xülasə. Məqalədə bağırsaq mikrobiotasının insan orqanizmi üçün əhəmiyyəti və helikobakter pilorinin eradikasiya terapiyasından (HPET) sonra onda baş verən dəyişikliklər araşdırılır. Bağırsaq mikrobiotası immun sistemin formalaşması, aminturşu və vitamin sintezi, həzmi stimullaşdırmaq, patogen mikroorqanizmlərə qarşı kolonizasiya rezistentliyi və s. yaratmaqla insan sağlamlığı üçün zəruri olan bir çox fizioloji proseslərdə iştirak edir. Mikrobiomanın tərkibi metagenomik analiz üsulları – hədəflənmiş metagenomika (16s rRNT, 18s rRNT, ITS təyin olunur), ov tüfəngi metagenomikası, YNS və s. ilə öyrənildikdən sonra bu nəticəyə gəlinmişdir ki, HPET-dən sonra antibiotiklərin təsirindən bağırsaq mikrobiotasının tərkibində obliqat anaerobların (actinobacteria, bacteroides, akkermansia muciniphila, faecalibacterium prausnitzii və s.) sayının azalması və fakültativ aerob mikroorqanizmlərin artımında dəyişikliklər yaranır və disbioz baş verir. HP-nin rasional eradikasiya müalicəsi, alternativ fitopreparatlar, faq və ya probiotiklərlə aparılarsa, disbioz problemi vaxtında müəyyən edilərək aradan qaldırıla bilər.

Aparılmış araşdırmada HP infeksiyalarının antibiotik müalicəsindən bağırsaq mikroflorasının tərkibində bakteriyaların nisbi miqdarı sekvenirləşmə üsulu ilə əldə edilən məlumatlar əsasında müəyyən edilmişdir. Bifidobacterium, lactobacillus, escherichia və clostridium cinslərinin nümayəndələrinə təsirini müəyyən etmək üçün klinik materialın metagenomik analizindən istifadə edilmişdir. Məlum olmuşdur ki, bağırsağın mikrob tərkibi lactobacillus, escherichia və clostridium cinsinə aid olan bakteriyaların müalicədən sonra müvafiq olaraq xəstələrin 76,5%, 51,3% və 55,2%-də, yəni cəmi 0,5% dəyişiklik baş vermişdir. Bifidobacterium miqdarı xəstələrin 60,5%-də əhəmiyyətli dərəcədə azalmışdır. HPET bağırsaq mikroflorasında "açar" bakteriyalar olan əsas nümayəndələrinin sayına çoxistiqamətli təsir göstərir,bu baxımından müalicənin nəticələrinin risklərini proqnozlaşdırarkən antibiotiklərin istifadəsi zamanı nəzərə alınmalıdır.

Açar sözlər: bağırsaq mikrobiotası, microbioma, Helicobacter pylori, eradikasiya müalicəsi, metagenomik analiz

Giriş

Mikroorqanizmlər insan orqanizminin biokütləsinin əhəmiyyətli hissəsini təşkil edərək, onunla mürəkkəb simbiotik ekosistem yaradır. Bağırsaq mikrobiotasının normal tərkibi və funksiyası immun sistemin formalaşması, stimullaşması (bağırsağın selikli qişasının gücləndirilməsi/ß-defensin istehsalı), vitamin sintezi (B1, B2, B6, B12 və K), həzmi dəstəkləmək (həzm olunması çətin olan liflərin və karbohidratları parçalanması), bağırsağın epitel hüceyrələrində enerji mənbəyi kimi qısa zəncirli yağ turşularının (asetat və butirat) sintezi, iltihab əleyhinə və selikli qişalara qoruyucu (butiratlar və s.), detoksifikasiya (ekzogen maddələrin parçalanması və çıxarılması), aminturşu sintezi, patogen mikroorqanizmlərə qarşı kolonizasiya rezistentliyi və s. təsirlərlə insan sağlamlığı üçün zəruri olan bir çox fizioloji proseslərdə iştirak edir. Çox hissəsi bakteriyalar, göbələk, virus və protozoalardan ibarət olan bu populyasiya insan hüceyrələrindən 10 dəfə çox mikrob hüceyrəsinə, insan genomundan 150 qat daha çox genə malikdir. İnsan orqanizmində yaşayan kommensal, simbiotik mikroorqanizmlərin yaratdığı bu ekoloji birliyə "mikrobiota", bu mühitdə yaşayan "mikrobiota"nın sahib olduğu genetik materiala isə "mikrobioma" deyilir. Mikroorqanizmlərin stabil tərkibi bir yaşından sonra formalaşır. Onun tərkibinə ətraf mühit faktorları, antibiotiklər, pəhriz, genetika, iltihab, gigiyenik aspektlər, həyat tərzi və s. təsir göstərir. Onu da qeyd etmək lazımdır ki, bu gün ənənəvi nəcis analizlərini əvəz edən müasir molekulyar-genetik üsullarla bağırsaq mikrobiotasının tərkibini öyrənmək mümkündür. Bu analizlərlə mikrobiomanın hər bir fərd üçün spesifik və nisbi stabil olması müəyyən edilmişdir. "İnsanın mikrobiom proyekti" (Human Microbiome Project, 2007) sayəsində insanın sağlamlığında çox əhəmiyyətli rolu olan mikrobiota daim hərtərəfli öyrənilməkdədir [1; 2; 3; 4].

Mikrobiotanın taksonomiyası 5 əsas tipdən (phylum) – aktinobakteria (5%), proteobakteria (8%), firmicutes (>250 cins, 40-65%; lactobacillus, mycoplasma, bacillus, clostridium), bacteroides (~20 cins, 25-60%), verrucomicrobia (1%) ibarətdir. Fərdlərdə mikrobiotada rast gəlinən 160 bakteriya növündən 124-ü tədqiq edilmişdir [5].

Helikobakter pilori bakteriyası dünya əhalisinin təxminən yarısında mədədə bakteriya gəzdiriciliyə səbəb olur. Bu bakteriya qastrit, mədə xorası, adenokarsinoma və mədə selikli qişası ilə əlaqəli limfoid toxuma limfoması **(**mucosa-associated lymphoid tissue – MALT lymphoma) kimi xəstəliklərə səbəb olur. Dünya miqyasında yayılan patogen olmaqla yanaşı, H. pylori getdikcə daha yüksək antibiotiklərə davamlılıq nümayiş etdirir və bu bakteriyaya qarşı yeni terapevtik strategiyaların işlənib hazırlanması zərurətini yaradır. H. pylori-nin eradikasiya terapiyası (HPET) infeksiyadan dərhal sonra başlansa, mədə selikli qişasının zədələnməsi və yetkinlik dövründə mədə xərçənginin yaranma riski azala bilər. Bunu nəzərə alaraq, bir çox ölkələrdə ilkin profilaktik tədbir kimi gənclər arasında H.pylori-nin skrininqinə başlanılmışdır [6, 7].

HPET Maastrixt Konsensusunun protokoluna uyğun olaraq, kompleks bir sxemə əsaslanan amoksisillin 1000 mq, klaritromisin 500 mq, o cümlədən proton pompası inhibitoru və vismut subsalisilatının istifadəsi ilə həyata keçirilir. HPET tərkibində olan antibiotiklər bağırsaq mikrobiotasına təsir göstərərək onun tərkibinin kəmiyyət və keyfiyyətcə dəyişməsinə səbəb olur. Bu müalicənın bağırsaq mikrobiotasına təsirini müəyyən etmək üçün faydalı (obliqat, autoxton) və patogen bağırsaq mikroflorasının sayının qiymətləndirilməsi lazımdır [8; 9].

HPET aparılmış xəstələrdə diqqət bağırsaq mikroflorasının əsas nümayəndələrinin kəmiyyətcə miqdarına yönəldilir – bifidobacterium, lactobacillus, escherichia və clostridium – bakteriya cinsləri bağırsaq mikrobiotasının əhəmiyyətli hissəsini təşkil edir. Eyni zamanda faecalibacterium prausnitzii və akkermansia muciniphila kimi anaerob bakteriyalar mikrobiotanın ən böyük populyasiyasını təşkil edən növlərdir, adi üsullarla aşkarlana bilməsələr də, metabolik funksiyalarına və genoma görə ayırd edilirlər [10;11; 12, 13].

HPET sonra baş vermiş disbiozun diaqnostikası üçün əvvəllər istifadə edilən, klassik üsul bağırsaq tərkibinin (nəcisin) kultivasiyası aparılaraq öyrənilirdi. Lakin bağırsaqda yaşayan əksər mikroorqanizmlərin kultivasiyası üçün uyğun şərait yaratmaq mümkün olmadığından (xüsusilə, anaeroblar üçün) bu üsulun geniş istifadəsi mümkün deyil. Hazırda müasir molekulyar genetik

analizlərdən istifadə edərək, bağırsaq mikrobiotasında çoxlu sayda aerob və anaerob bakteriyaları və metabolik əlaqəli qruplarını müəyyən etmək mümkündür [14; 15; 16].

Tədqiqat işində tərəfimizdən H.pylori-nin eradikasiya terapiyasından sonra xəstələrdə bağırsaq mikrobiotasının tərkibindəki dəyişikliklər araşdırılmışdır.

Material və təhlil metodları

Bağırsaq mikrobiotasının tərkibini müəyyənləşdirmək üçün xəstələrdən 200 mq çəkidə nəcis nümunələri toplanılır və müxtəlif üsullarla müayinə edilir. Bu məqsədlə mikroskopik, kultural (aerob/anaerob NextGen kullturası), molekulyar-genetik (ZPR və s.), metabolit zülalların təyini (MS, ELISA), molekulyar texniki (Sanger, NGS) üsullar istifadə olunur. Metagenomik analizlərdən (MA) istifadə edərək, nümunələrdə mikrobiomanın tərkibindəki mikroorqanizmlərinin kultivasiya aparmadan nuklein turşusunu təyin etməklə birbaşa identifikasiyası mümkündür. Bu üsullardan istifadənin səbəblərindən biri mikrobiotada mövcud olan çoxlu sayda anaerob bakteriyalar qrupunun kultivasiya yolu ilə aşkarlanmasının çox zəhmətli və əksər hallarda mümkün olmamasıdır. Mikrobiomanın tərkibi aşağıdakı müasir üsullarla öyrənilir: mikrobiomun profilləşdirilməsi (16S rRNA, 18S rRNA, ITS2, funksional marker genləri), proqnozlaşdırılan funksional profilləşdirmə (16S rRNT gen məlumatlarına əsaslanaraq), ov tüfənginin metagenomikası, metatranskriptomika, filogenetik analiz. Nəcisdə yüksək miqdarda DNT izolyasiya inhibitorlarının olması səbəbindən DNT təcrid proseduru üçün adətən, xüsusi ekstraksiya dəsti (QIAmp DNA Stool Mini Kit, QIAgen, GERMANY) istifadə olunur. Mikrobiom məlumatlarının təhlili nümunələrdə metagenomik analizlər, müqayisəli taksonomik və funksional profillər öyrənilərək aparılır. Mikrob metatranskriptomikası – kompleks nümunə daxilində bir qrup mikroorqanizm tərəfindən kodlanan bütün RNT-lərin təhlilidir. Hədəflənmiş metagenomikada müəyyən konservativ (qorunan) bölgələr (16s rRNT, 18s rRNT, ITS (Internal Transcribed Spacer – Daxili transkripsiya aralığı)) zəncirvari polimeraza reaksiyası (ZPR) praymerləri ilə amplifikasiya olunur və ardıcıllıq təyin edilir. ~1500 bp uzunluğunda 16S rRNT geni ilə bakteriyaların identifikasiyası hazırda standartlaşdırılmış bir prosedurdur. Tək genin müxtəlifliyinə əsaslanan unimodal filogenetik analizdən fərqli olaraq, 16S rRNT geni, metagenomik analizi mikrob populyasiyasının multimodal genetik tərkibini sistemləşdirir və beləliklə, daha düzgün taksonomik təyin və genomik məlumat verir. Metagenomika mikrob populyasiyasının tərkibinin təkamül profillərini yaratmaqla yanaşı, funksiyanı filogenetika ilə əlaqələndirməyə kömək edir. 16S rRNT ardıcıllığı verilmiş nümunədə mövcud olan bakteriyaları müəyyən və müqayisə etmək üçün istifadə olunur [17; 18; 19].

Mikrobiotanın test panelinə aşağıdakılar daxildir – Enterotiplər: (Bacteroides, Prevotella, Ruminococcus, Lachnospiracea); Mucin-/Butirat əmələ gətirən: (Akkermansiya, Faecalibacterium); Mucin-/Butirat-/H2S- əmələ gətirən: (Akkermansia, Faecalibacterium, SRB (sulfat azaldan bakteriyalar)); Firmicutes-Bacteroidetes-Ratio (piylənmə, qıcıqlanan bağırsaq): Bacterioides, Bifidobacterium, Eubacterium; həzm pozğunluğu (mədə pozğunluğu): pankreatik elastaza, öd turşusu.

Klinik nümunələrdəki bakteriya genomları molekulyar-genetik texniki üsulu olan DNT sekvenirləşmə ilə aşkar edilir. Proses zamanı, xüsusilə bakteriyalardan gələn siqnallar qeydə alınır. Nümunədə neçə fərqli bakteriya genomunun olduğu 16S rRNT ardıcıllığı zəncirvari polimeraza reaksiyası (ZPR) ilə çoxaldılaraq təyin edilir. Bu üsullarla mikrobiomdakı spesifik genlər aşkarlanaraq funksional məlumatlar verilir və bakterial bioçeşidlilik təhlil olunur [19].

Sekvenirləşmə (ardıcıllıq) üsullarından olan ov tüfəngi (Shotgun) metagenomikası qeyri-diskriminantdır, mikroorqanizmlərin növ səviyyəsinə qədər kəmiyyətini, hətta taksonomiyasını müəyyən edir. İstənilən mikroorqanizm olan nümunə kompleksində bütün genlərin DNT ardıcıllığını təyin etməyə imkan verir. Mikrobiomun metagenomik ov tüfəngi ardıcıllığı nəticəsində bakteriyaların 16S rRNT bölgəsi üçün spesifik praymerlər hədəf bölgənin amplifikasiyası məqsədilə istifadə edilir. Uzun nukleotidin oxunması ilə daha dəqiq nəticələr əldə olunur. Massive Bioinformatics Illumina sistemlərindən istifadə edilərək, standartlaşdırılmış metagenomik analizlər, həmçinin Oxford Nanopore texnologiyası ilə sintez olunan uzun amplikonlarla analizlər yerinə yetirilir [20].

Yeni nəsil sekvenirləşmə (YNS (Next-generation sequencing – NGS)) genetik texnologiyası ilə bir nümunədən götürülən milyonlarla hissəyə ayrılmış DNT molekulunun hər bir hissəsinin eyni vaxtda paralel oxunmasına əsaslanır. Mikrobiomun tərkibinin öyrənilməsində uğurla tətbiq olunur. Hüceyrədəki DNT, RNT, mikro-RNT kimi molekullar haqqında böyük həcmdə məlumatların az xərclə, tez və paralel şəkildə əldə olunmasını təmin edir. Son zamanlar müasir YNS – metagenomik ov tüfəngi ardıcıllığı üsulu yavaş-yavaş klassik Sanger ardıcıllığını əvəz etmişdir. Həm 454/Roche, həm də Illumina/Solexa sistemləri çoxçeşidli mühitlərdə metagenomik nümunələrin təhlili üçün geniş şəkildə istifadə olunur [21; 22; 23].

ZPR üsulundan bakteriyaların kəmiyyətcə fərdi fərqlərini müəyyən etmək və klassik kultivasiya üsullarını dəstəkləmək üçün istifadə olunur. Xüsusi praymerlər vasitəsilə nuklein turşusu (spesifik hədəf) amplifikasiya olunaraq fərdlərin bağırsaq mikrobiotasında olan mikroorqanizmlərin növ və miqdarı təyin edilir. Nümunə toplanması, MutaCLEAN® Mag RNT/DNT köməyi ilə nukleotidlərin ekstraksiyası, (Real time PCR: MutaPLEX®) spesifik mikrobiomun amplifikasiyası (xüsusi Ct-dəyərləri bakteriya növləri) KƏV-nin hesablanması, növlərin nisbətinin müəyyən edilməsi (standart əyri ilə ölçülməsi, xüsusi nömrələri ilə ifadə edilməsi = KƏV) Xüsusi Diaqnostika Xidməti (Special Diagnostic Service – SDS) standartlarına uyğun aparılır [19].

İntestinal mikrobiomun təhlili nəticəsində insanın bağırsaq florasında yerləşən 3 əsas enterotip müəyyən edilmişdir. Enterotiplər qidalanma vərdişlərindən asılı olaraq fərqlənir, əsasən, Bacteriodes (enterotip 1), Prevotella (enterotip 2), ve Ruminococcus (enterotip 3) növlərindən ibarətdir. Tipik metabolik xüsusiyyətlərə görə enterotipin hansı bakterial qrupa aid olduğunu təyin etmək mümkündür.

Tədqiqatın təhlili

Beləliklə, standart məlumatlara istinad edərək, mikroorqanizmləri müəyyən etmək və terapevtik tədbirlər üçün fərdi tövsiyələr vermək mümkündür. Mikrobiom analizində Actinobacteria, Bacteroides, Firmicutes, Akkermansia muciniphila və nadir hallarda Fusobacterium filumunun tərkibi nəzərə alınır. Tipik klinik nümunələr bu taksonomik təsnifata uyğun olaraq, müəyyən edilir. Məsələn, Firmicutes/Bacteroidetes nisbətinin artması və ya Proteobacterium-un üstünlüyü müxtəlif klinik fərqlər yaradır. Bağırsaq mikrobiomu tədqiqatında "yaxşı bakteriyalar" diqqət mərkəzindədir. Sağlam bağırsaq üçün vacib bakteriyalardan biri olan Akkermansia muciniphila – Qram-mənfidir, anaerob, çöpşəkilli olub bağırsaq endotelində musini deqradasiya edərək, selikli qişadakı musin təbəqəsini yeniləyir və s. Bağrsağın digər normal mikrobiota nümayəndəsi faecalibacterium prausnitzii – Qram-müsbətdir, nəcisin 1% KBE = Bacteroides + Eubacteriumdan sonra üçüncü ən çox rast gəlinən bağırsaq bakteriyasıdır. Butirat sintez edir, iltihab əleyhinə (NF-kB-aktivasiya + IL-8 sintezini blokada etməklə) təsir göstərir [5; 24].

Nəticə

HPET tərkibinə amoksisillinin daxil olduqda xəstə qrupunun bağırsaq mikroflorasında Enterococcus spp., Enterobacteriaceae spp. və Peptostreptococcus spp.-nin kəmiyyətcə artması, həmçinin Enterobacteriaceae fəsiləsinin rezistent ştammlarının da çoxalması müşahidə edilmişdir. Anaerob mikrobiotadan Bifidobacterium spp., Clostridium spp. əhəmiyyətli dərəcədə azalır. Bəzi xəstələrdə maya göbələkləri (əsasən Candida albicans) aşkar edilir. Bəzi hallarda müalicədən 4 həftə sonra mikrobiotanın tərkibi bərpa olunur. Klaritromisin qəbul edən xəstələrdə Bifidobacterium spp., Clostridium spp., Bacteroides spp.-də azalma, Enterococcus spp.-nin miqdarında isə artma baş vermişdir. Amoksisillin və klaritromisinin Enterococcus spp. və Enterobacteriaceae spp.-yə qarşı minimum inhibisiya konsentrasiyası (MİK) nəcis nümunələrində əhəmiyyətli dərəcədə artmışdır. Bacteroides spp.-yə qarşı klaritromisinin MİK əhəmiyyətli dərəcədə artmış, amoksisillin üçün əhəmiyyətli dəyişikliklər müşahidə edilməmişdir. Bacteroides spp.-nin klaritromisinə davamlı ştammlarının tərkibində antibiotik terapiyası fonunda 2%-dən 76%-ə qədər artma müəyyən edilmiş, müalicədən 4 həftə sonra onların nisbəti 59% təşkil etmişdir. Müəlliflər belə qənaətə gəlirlər ki, H.pylori-

nin eradikasiya sxemlərinin bir hissəsi kimi antibakterial preparatların istifadəsi bütün mədə-bağırsaq traktının mikroflorasının tərkibinin dəyişməsinə gətirib çıxarır və disbiozla nəticələnir [25; 26; 27;28].

Həmçinin antibakterial müalicə aparıldıqda patogen bakteriyalar və onlarla yanaşı, normal mikroflora nümayəndələri arasında rezistentlik genləri yayılır. Məlum olduğu kimi, bakteriyalarda rezistentlik mutasiya və ya horizontal ötürülmə ilə qazanılır. Nəticədə bağırsaq mikroflorası rezistentlik genlərinin potensial rezervuarı olur. HPET tərkibində uzunmüddətli antibiotik müalicəsinin aparılması antibiotiklərə davamlı bakteriya ştammlarının seleksiyası ilə nəticələnir. HPET preparatları, antibiotiklər və proton pompası inhibitorları mədə-bağırsaq traktının mikrobiotasında uzunmüddətli disbiotik dəyişikliklərə səbəb olur. Qarşısını almaq üçün probiotiklərin, prebiotiklərin və mikrob metabolitlərinin (məsələn, butirat +) müalicə sxeminə daxil edilməsi eradikasiyanın mənfi təsirlərini azaldır [27]. Bundan əlavə, antibiotik istifadəsi məhdudlaşdırılmalıdır və alternativ eradikasiya vasitələri (məs.,bakteriofaq) [30], autoprobiotiklər [29], fitopreparatlar daxil olmaqla təbii agentlər, üsullar inkişaf etdirilməli və tədqiq olunmalıdır. Qeyd etmək lazımdır ki, H. pylori-nin litik faqlarının müəyyən edilməsi, onun aradan qaldırılması üçün alternativ yanaşma kimi faq terapiyasını nəzərdən keçirməyə imkan verir [30].

HPET zamanı bağırsaq mikrobiotasının tərkibinin öyrənilməsi, məsləhət və müalicə yanaşmaları fərdi şəkildə həyata keçirilir. Nəticə olaraq qeyd etmək lazımdır ki, H. pylori-nin rasional eradikasiyası aparılarsa, probiotiklər, faq və fitopreparataın istifadəsi ilə bağırsaq mikrobiotasının disbiozunun qarşısını almaq mümkündür.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. The Human Microbiome Project Consortium. A framework for human microbiome research // – London: Nature. – 2012. № 486(7402). – p.215-221: [Electronic resource] / URL: http://dx.doi.org/10.1038/nature11209

2. Willem, M de Vos, Herbert, T, Matthias, Van Hul, Patrice, D Cani. Gut microbiome and health: mechanistic insights //– London. – Nature. – 2022. №71(5) – p.1020-1032. PMID: 35105664 PMCID: PMC8995832 DOI: 10.1136/gutjnl-2021-326789.

3. Turnbaugh, P.J. The Human Microbiome Project / P.J.Turnbaugh, R.E.Ley, M.Hamady, C.M.Fraser-Liggett, R.Knight, J.I.Gordon // – London: Nature – 2007 №449. – p. 804-810.

4. Jane Peterson, Susan Garges, Maria Giovanni, Pamela McInnes, Lu Wang, Jeffery A. Schloss, Vivien Bonazzi. The NIH HMP Working Group et al: The NIH Human Microbiome Project. In: Genome Res. 19, Published in Advance October 9, – 2009, – p.2317-2323, DOI:10.1101/gr.096651.109

5. Wu, G.D. Linking Long-Term Dietary Patterns with Gut Microbial Enterotypes / G.D.Wu, J.Chen, C.Hoffmann, K.Bittinger, Y.Y.Chen, S.A.Keilbaugh, M.Bewtra, D.Knights, W.A.Walters, R.Knight // – United States: Science. – 2011; №334. – p.105-108. DOI: 10.1126/science.1208344.

6. Cuomo, P., An Innovative Approach to Control H.pylori-Induced Persistent Inflammation and Colonization. Microorganisms / P. Cuomo, M.Papaianni, A.Fulgione, F.Guerra, R.Capparelli, , C.Medaglia // – PubMed. – 2020. №10; 8(8). DOI: 10.3390/microorganisms8081214.

7. Guo, Y, Cao, X-S, Guo, G-Y, Zhou, M-G, Yu B (2022) Effect of Helicobacter Pylori Eradication on Human Gastric Microbiota: A Systematic Review and Meta-Analysis. Front. Cell. Infect. Microbiol. 12:899248. DOI: 10.3389/fcimb.2022.899248. Meta-Analysis PMID: 35601105 PMCID: PMC9114356

8. Zagari, R.M, Romano, M., Ojetti, V., Stockbrugger, R., Gullini, S., Annibale, B., Farinati, F., Ierardi E, Maconi G, Rugge M, Calabrese C, Di Mario F. Guidelines for the management of Helicobacter pylori infection in Italy: The III Working Group Consensus Report 2015. Dig Liver Dis. – 2015 Nov;47(11):903-12. DOI: 10.1016/j.dld.2015.06.010. Epub 2015 Jul 6. PMID: 26253555

9. Malfertheiner P, Management of Helicobacter pylori infection-the Maastricht V / P.Malfertheiner, F.Megraud, C.A. O'Morain et al. // Gut.: BMJ journal – 2017. №66(1). – p. 6-30.

10. Luyi, Ch., Wenli, X., Allen, L., Jiamin, H. The impact of Helicobacter pylori infection, eradication therapy and probiotic supplementation on gut microenvironment homeostasis: An open-

label, randomized clinical trial –LondonEBioMedicine – 2018. №35. – p. 87-96. DOI: 10.1016/j.ebiom.2018.08.028. Epub 2018

11. Y.Guo, C.Xue-Shan, Yi Guo G., G.Z. Meng Y.Bo Effect of Helicobacter Pylori Eradication on Human Gastric Microbiota: A Systematic Review and Meta-Analysis./ – USA: Front Cell Infect Microbiology. American Society for Microbiology. – 2022 May 4:12:899248. DOI: 10.3389/fcimb.

12. Mao, L. Q., Zhou, Y. L., Wang, S. S., Chen, L., Hu, Y., Yu, L. M., et al. (2021). Impact of Helicobacter Pylori Eradication on the Gastric Microbiome. Gut pathogens 13 Article number: 60 (2021).

13. Bull, M.J., Plummer, N.T. Part 1: The Human Gut Microbiome in Health and Disease // Integrative Medicine: A Clinician's Journal, – 2014. №13(6). – p. 17-22.

14. Leonard, M.M. et all. Microbiome signatures of progression toward celiac disease onset in at-risk children in a longitudinal prospective cohort study / – USA: Proc Natl Acad Sci – 202. – 118 s.

15. Sandi, Y.J. Johnson, S. Metagenomics: a path to understanding the gut microbiome. – Germany. ISSN: 1432-1777, 0938-8990 (Print) – 2021; № 32(4). – p.2 82–296. DOI: 10.1007/s00335-021-09889-x

16. Almeida, A. A unified catalog of 204,938 reference genomes from the human gut microbiome. // – London: Nature Biotechnol – 2020. 39(1). – p. 105-114

17. Franzosa, EA. Species-level functional profiling of metagenomes and metatranscriptomes // – New York: Nature Methods. – 2018; №15. – p. 962–968. DOI: 10.1038/s41592-018-0176-y. Corpus ID: 53115339

18. Fox, G.E. Classification of methanogenic bacteria by 16S ribosomal RNA characterization. / G.E. Fox, L.J. Magrum, W.E.Balch, R.S.Wolfe, C.R. Woese // – USA: Proc. Nat. Acad. Sci. – 1977. №74. – p.4537–4541.

19. Shailesh, K.S., Z.Kasra, V.G. Natalya, K.M.Ashutosh. Microbiota Analysis Using Two-step PCR and Next-generation 16S rRNA Gene Sequencing. // – USA: PubMed. JVis Exp –2019 Oct. 15(152). DOI: 10.3791/59980.

20. Francesco Durazzi, Claudia Sala, Gastone Castellani, Gerardo Manfreda, Daniel Remondini & Alessandra De Cesare Comparison between 16S rRNA and shotgun sequencing data for the taxonomic characterization of the gut microbiota. Scientific Reports volume 11, Article number: 3030 (2021) C

21. Goig GA, Blanco S, Garcia-Basteiro AL, Comas I. Contaminant DNA in bacterial sequencing experiments is a major source of false genetic variability. BMC Biol. 2020; 18:24.

22. Gu W, et al. Rapid pathogen detection by metagenomic next-generation sequencing of infected body fluids. – Nature Med.– 2021. №2. – p.115-124.

23. Levy SE, Myers, RM. Advancements in next-generation sequencing // Annu Rev Genom Hum Genet. – 2016. №17. – p.95-115.

24. Manimozhiyan Arumugam, Jeroen Raes, Eric Pelletier, Denis Le Paslier, Takuji Yamada, Daniel R. Mende, Gabriel R. Fernandes, Julien Tap, Thomas Bruls et all. Enterotypes of the human gut microbiome Nature. 2011 May 12; 473(7346): – p.174-180.

25. Ye, Q., Shao, X., Shen, R., Chen, D., Shen, J. (2020). Changes in the Human Gut Microbiota Composition Caused by Helicobacter Pylori Eradication Therapy: A Systematic Review and Meta-Analysis. Helicobacter 25 (4), e12713. DOI: 10.1111/hel.12713

26. Schulz, C., Schutte, K., Koch, N., Vilchez-Vargas, R., Wos-Oxley, M. L., Oxley, A. P. A., et al. (2018). The Active Bacterial Assemblages of the Upper GI Tract in Individuals With and Without Helicobacter Infection. Gut 67 (2), 216–225. DOI: 10.1136/gutjnl-2016-312904

27. Yuan, Z., Xiao, S., Li, S., Suo, B., Wang, Y., Meng, L., et al. (2021). The Impact of Helicobacter Pylori Infection, Eradication Therapy, and Probiotics Intervention on Gastric Microbiota in Young Adults. Helicobacter 26 (6), e12848. DOI: 10.1111/hel.12848

28. Butorova, L.I., Ardatskaya, M.D., Osadchuk, M.A., Kadnikova, N.G., Lukianova, E.I., Plavnik, R.G., Sayutina, E.V., Topchiy, T.B., Tuayeva, E.M. [Comparison of clinical-metabolic efficacy

of pre- and probiotics in the conducted optimized protocols of eradication therapy of Helicobacter pylori infection] Ter Arkh. – 2020. № 92– p.64–69.

29. Suvorov, A., Karaseva, A, Kotyleva, M, Kondratenko, Y, Lavrenova, N, Korobeynikov, A, Kozyrev, P, Kramskaya, T., Leontieva, G., Kudryavtsev, I., Guo, D., Lapidus, A., Ermolenko, E. Autoprobiotics as an Approach for Restoration of Personalised Microbiota. – Front Microbiol – 2018.9:1869.

30. Angela B. Muñoz, Johanna Stepanian, Alba Alicia Trespalacios, and Filipa F. Vale. Bacteriophages of Helicobacter pylori Published online – 2020 Nov 12. – 2020. – 11 p.

Аннотация

Значение кишечной микробиоты и методы их современной диагностики

Хафиза Мансурова, Саида Гаджиева, Гюлер Сеидова, Эмма Агаева, Егана Бахышова, Шахин Сулейманов

В статье рассмотрено значение микробиоты кишечника для организма человека и изменения, происходящие в ней после эрадикационной терапии Helicobacter pylori (ГПЭТ). Кишечная микробиота участвует в формировании иммунной системы, синтезе аминокислот и витаминов, стимуляции пищеварения, колонизационной устойчивости к патогенным микроорганизмам и др. Она участвует во многих физиологических процессах, необходимых для здоровья человека. Изучив состав микробиома с помощью методов метагеномного анализа - таргетной метагеномики (16s рРНК, 18s рРНК, ITS), метагеномики дробовика, YNS и других, был сделан вывод, что облигатные анаэробы (Actinobacteria, Bacteroides, Akkermansia muciniphila, Faecalibacterium prausnitzii и др.) возникает уменьшение численности и изменение роста факультативных аэробных микроорганизмов и дисбактериоз. Если провести рациональное эрадикационное лечение HP альтернативными фитопрепаратами, фагом или пробиотиками, проблему дисбактериоза можно своевременно выявить и устранить.

В проведенных исследованиях на основании данных, полученных методом секвенирования, определяли относительное количество бактерий в микрофлоре кишечника при лечении антибиотиками HP-инфекций. Метагеномный анализ клинического материала был использован для определения влияния на представителей родов бифидобактерий, лактобактерий, эшерихий и клостридий. Установлено, что после лечения бактериями рода лактобацилл, эшерихий и клостридий микробный состав кишечника изменился у 76,5%, 51,3% и 55,2% больных, т.е. всего у 0,5%. Содержание бифидобактерий было достоверно снижено у 60,5% больных. ГПЭТ оказывает разнонаправленное влияние на количество ключевых представителей микрофлоры кишечника, что следует учитывать при применении антибиотиков при прогнозировании рисков исходов лечения.

Ключевые слова: микробиота кишечника, микробиом, Helicobacter pylori, эрадикационная терапия, метагеномный анализ.

Abstract

Importance of intestinal microbiota and modern diagnostic methods

Hafiza Mansurova, Saida Hajiyeva, Gular Seyidova, Emma Aghayeva, Yegana Bakhishova, Shahin Suleymanov

The article examines the importance of intestinal microbiota for the human body and the changes that occur in it after Helicobacter pylori eradication therapy (HPET). Intestinal microbiota is involved in the formation of the immune system, synthesis of amino acids and vitamins, stimulation of digestion, colonization resistance against pathogenic microorganisms, etc. It participates in many physiological processes necessary for human health. After studying the composition of the microbiome using metagenomic analysis methods - targeted metagenomics (16s rRNA, 18s rRNA, ITS), shotgun metagenomics, YNS, and others, it was concluded that obligate anaerobes (actinobacteria, bacteroides)

in the gut microbiota after HPET were affected by antibiotics, akkermansia muciniphila, faecalibacterium prausnitzii and others) decrease in number and changes in the growth of facultative aerobic microorganisms and dysbiosis occurs. If the rational eradication treatment of HP is carried out with alternative phytopreparations, phage or probiotics, the problem of dysbiosis can be identified and eliminated in time.

In the conducted research, the relative number of bacteria in the intestinal microflora from the antibiotic treatment of HP infections was determined based on the data obtained by the sequencing method. Metagenomic analysis of clinical material was used to determine the effect on representatives of the genera bifidobacterium, lactobacillus, escherichia and clostridium. It was found that after the treatment of bacteria belonging to the genus lactobacillus, escherichia and clostridium, the microbial composition of the intestine changed in 76.5%, 51.3% and 55.2% of patients, i.e. only 0.5%. Bifidobacterium content was significantly reduced in 60.5% of patients. HPET has a multidirectional effect on the number of key representatives of intestinal microflora, which should be taken into account when using antibiotics while predicting the risks of treatment outcomes.

Keywords: intestinal microbiota, microbiome, helicobacter pylori, eradication treatment, metagenomic analysis

Məqalə redaksiyaya daxil olmuşdur:20.12.2023
Təkrar işlənməyə göndərilmişdir:15.01.2024
Çapa qəbul edilmişdir: 19.02.2024

ELMİ MƏQALƏLƏRİN TƏRTİB EDİLMƏSİNƏ DAİR TƏLƏBLƏR

Təqdim edilən məqalələr jurnalın elmi istiqamətinə (hərbi-nəzəri elmlər, hərbi-xüsusi elmlər, hərbi təbabət, milli təhlükəsizlik) uyğun, aktual elmi problemlərə aid tədqiqatların ilk dəfə dərc olunması üçün nəzərdə tutulmuş materiallara malik olmalıdır. Məqalələr elektron variantda üç dildə (Azərbaycan, rus və ya ingilis) təqdim edilə bilər.

Məqalə MS WORD mətn redaktorunda 12-lik Times New Roman şrifti ilə yığılmalı, sətirlərarası məsafə 1 olmalıdır. Məqalənin strukturuna uyğun olaraq UOT, məqalənin adı, müəllif haqqında tam məlumat, xülasə, açar sözlər, giriş, əsas hissə (metodologiya və əldə olunan nəticələr), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, və əlavələr (ehtiyac olarsa) ardıcıl və sistemli şəkildə təqdim olunmalıdır. Məqalənin birinci səhifəsinin yuxarı sol tərəfində UOT indekslər göstərilməlidir. Mətnin əvvəlində məqalənin adı, müəllif(lər) haqqında məlumat (adı və soyadı tam şəkildə, elmi dərəcəsi, elmi adı və hərbi xidmətdə olanlar üçün hərbi rütbəsi), ORCİD indeks(lər) (əgər varsa), müəllif(lər)in işlədiyi müəssisə(lər), müəllif(lər)in elektron poçt ünvan(lar)ı, telefon nömrələri, həmçinin qonorar ödənilməsi üçün onların Azərbaycan Beynəlxalq Bankının hesab rekvizitləri göstərilməlidir. Bu məlumatlardan sonra məqalənin yazıldığı dildə 150 – 250 sözdən ibarət xülasə verilməlidir. Xülasədə tədqiqat işinin mahiyyəti, müəllif(lər)in aldıqları elmi nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti və s. yığcam şəkildə öz əksini tapmalıdır. Xülasədən sonra 5 – 8 sözdən ibarət açar sözlər göstərilməlidir.

Məqalənin mətni 6 – 12 səhifə (A4 formatında) həcmində olmalı, səhifələrdə isə bütün tərəflərdən 20 mm boş məsafə saxlanmalıdır. Səhifələrin nömrəsi səhifənin aşağı orta hissəsində qoyulmalıdır.

İllüstrasiyalar, cədvəllər, qrafiklər, diaqramlar mətndə yerləşdirilərkən (sayı birdən artıqdırsa) ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnməlidir. Cədvəl – cədvəlin yuxarısında sağdan (məs., Cədvəl 1), şəkil isə şəklin altında ortadan (məs., Şəkil 2.) və mətn hissədən (yuxarıdan və aşağıdan) 1 boş sətir buraxmaqla nömrələnməli, həmçinin elə yerləşdirilməlidir ki, məqaləni döndərmədən və ya saat əqrəbinin hərəkəti istiqamətində döndərdikdə onlara baxmaq, yaxud oxumaq mümkün olsun.

Mətndə verilən riyazi ifadələr MS Word proqramının düstur redaktoru (Equation) ilə tərtib olunmalıdır. Düstur sətrin ortasında, nömrəsi isə sağda mötərizədə yazılmalıdır.

Elmi məqalədə mövzu üzrə qısa təhlil verilməli, onun aktuallığı əsaslandırılmalı, həll olunmalı məsələlər açıqlanmalı və onların həlli yolları göstərilməli, əldə edilən nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

Elmi mənbələrə edilən istinadlar mətndə kvadrat mötərizədə verilməlidir (məsələn, [1] və ya [1, s.119]). Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndəki ardıcıllığına uyğun şəkildə nömrələnməlidir. Ədəbiyyat siyahısında son 10 ildə nəşr edilmiş elmi məqalələrə, monoqrafiyalara və digər etibarlı mənbələrə üstünlük verilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş, 7 may 2021-ci il, 9 dekabr 2022-ci il tarixli qərarı ilə dəyişiliklər edilmiş "Dissertasiyanın tərtibi qaydası"nın tələbləri əsas götürülməlidir. "İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan sonra məqalənin və müəllifin adı, xülasə və açar sözlər (məqalənin yazıldığı dildən əlavə, yuxarıda qeyd edilmiş daha iki dildə) verilməlidir.

Redaksiyaya daxil olmuş məqalələrin çapa tövsiyə olunması jurnalın redaksiya heyətinin anonim rəyindən və plagiatlığın mövcudluğunun yoxlanılmasından sonra müəyyən edilir. Redaksiyaya təqdim olunan məqalə çapa tövsiyə olunmadıqda bu barədə müəllif(lər)ə məlumat göndərilir.

Jurnalın bir nömrəsində eyni müəllif(lər)in iki məqaləsi dərc oluna bilməz. Yuxarıda qeyd edilən tələblərə cavab verməyən məqalələr dərc edilmir və nəşr edilmiş məqalələrin əlyazmaları geri qaytarılmır.

ТРЕБОВАНИЯ К ОФОРМЛЕНИЮ НАУЧНЫХ СТАТЕЙ

Представленные для публикации в журнале статьи должны соответствовать научным направлениям (военно-теоретические науки, военно-специальные науки, военная медицина, национальная безопасность) журнала и содержать материалы, отражающие результаты исследований научно-актуальных проблем, предназначенные для первичной публикации. Статьи

могут быть представлены в электронном варианте на одном из следующих языков: азербайджанском, русском или английском.

Статья должна быть набрана в текстовом редакторе MS WORD шрифтом Times New Roman 12, междустрочный интервал – 1.

Согласно структуре статьи УДК, название статьи, полная информация об авторе, аннотация, ключевые слова, введение, основная часть (методология и полученные результаты), заключение, список использованной литературы, и приложения (при необходимости) должны быть представлены последовательно и системно. Индексы УДК должны отображаться в левой верхней части первой страницы статьи. В начале текста указывается название статьи, сведения об авторе(ах) (полное имя и фамилия, ученая степень, ученое звание и воинское звание для военнослужащих), ORCID индекс(ы) (при наличии), учреждении(ях), в котором работает(ют) автор(ы), адрес(а) электронной почты автора(ов), номера телефонов, а также реквизиты счета Международного Банка Азербайджана для уплаты гонорара. После этой информации следует дать аннотацию объемом 150–250 слов на том языке, на котором написана статья. В аннотации следует отразить кратко: суть научно-исследовательской работы, научные результаты, полученные автором(ами), научная новизна работы, важность применения и т.п. После аннотации следует перечислить ключевые слова из 5–8 слов.

Текст статьи должен составлять 6–12 страниц (формата A4), страницы должны иметь свободное пространство по 20 мм со всех сторон. Номера страниц должны быть размещены в центре внизу страницы.

При размещении в тексте иллюстраций, таблиц, схем, диаграмм (если их количество больше одной) их следует нумеровать последовательно арабскими цифрами. Нумерация должна быть вверху таблицы справа (например, Таблица 1.), а на странице с рисунком – внизу посередине (например, Рисунок 2.) и 1 пустая строка от текстовой части (сверху и снизу). Изображение должно располагаться таким образом, чтобы его можно было рассматривать или читать не поворачивая, а также при повороте по часовой стрелке.

Математические выражения, приведенные в тексте, должны быть составлены с помощью редактора формул (Equation) программы MS Word. Формулу следует писать посередине строки, а их номера в скобках справа.

В научной статье должен быть дан краткий анализ темы, обоснована её актуальность, разъяснены решаемые вопросы и указаны пути их решения. Должны быть чётко представлены полученные результаты, научная новизна работы, её прикладная значимость, экономическая эффективность и т.п.

Ссылки на научные источники в тексте должны быть даны в квадратных скобках (например, [1] или [1, стр.119]). Список литературы, приведенный в конце статьи, должен быть пронумерован в соответствии с порядком цитирования литературы в тексте. В списке литературы предпочтение следует отдавать научным статьям, монографиям и другим достоверным источникам, опубликованным за последние 10 лет. При даче библиографического описания цитируемого источника, за основу должны приниматься требования «Правила составления диссертации», которые были утверждены решением Президиума ВАК при Президенте Азербайджанской Республики от 29 октября 2019 года и внесены и дополнены постановлением от 7 мая 2021-го, 9 декабря 2022-го годов. После «Списка использованной литературы» следует указывать название статьи и автора, аннотацию и ключевые слова (помимо языка, на котором написана статья, на двух других языках, упомянутых выше).

Рекомендация к публикации статей, входящих в редакцию, определяется после анонимного заключения редакционной коллегии журнала и проверки на наличие плагиата. Если поступившая в редакцию статья не рекомендуется к публикации, информация об этом отправляется автору(ам).

Две статьи одного и того же автора(ов) не могут быть опубликованы в одном номере журнала. Статьи, не соответствующие вышеуказанным требованиям, не будут опубликованы, а рукописи опубликованных статей не будут возвращены.

REQUIREMENTS FOR THE COMPILATION OF SCIENTIFIC ARTICLES

Submitted articles should have materials intended for the first publication of researches related to current scientific problems, in accordance with the journal's scientific direction (military-theoretical sciences, military-special sciences, military medicine, national security). Articles can be submitted electronically in three languages (Azerbaijani, Russian or English).

The article should be typed in MS WORD text editor with Times New Roman font 12, line spacing should be 1. Universal decimal classification (UDC) according to the structure of the article, ORCID indexes (if any) title of the article, full information about the author, abstract, keywords, introduction, main part (methodology and results obtained), conclusion, list of references used, and supplements (if needed) should be presented in a consistent and systematic manner. UDC indexes should be displayed on the upper left side of the first page of the article. At the beginning of the text, the title of the article, information about the author(s) (full name and surname, academic degree, academic title and military rank for those in military service), institution(s) where the author(s) works, e-mail address(es), telephone numbers, as well as account details of the International Bank of Azerbaijan for the payment of fees. After this information, a summary of 150-250 words should be given in the language in which the article was written. In the summary, the essence of the research work, the scientific results obtained by the author(s), the scientific novelty of the work, the importance of application, etc. should be concisely reflected. After the summary, keywords of 5-8 words should be listed.

The text of the article should be 6-12 pages (in A4 format), and the pages should have 20 mm free space on all sides. Page numbers should be placed in the lower middle of the page.

When placing illustrations, tables, charts, diagrams in the text (if the number is more than one), they should be numbered consecutively with Arabic numbers. Table – should be numbered at the top of the table from the right (e.g., Table 1), and the figure should be numbered from the middle (e.g., Figure 2.) and 1 blank line from the text part (top and bottom), and should be placed in such a way that the article is not rotated or clockwise so that they can be viewed or read when turned in the direction of the movement of the hand.

Mathematical expressions given in the text should be compiled with the formula editor (Equation) of the MS Word program. The formula should be written in the middle of the line, and the number should be written in parentheses on the right.

In a scientific article, a brief analysis of the topic should be given, its relevance should be justified, the issues to be resolved should be explained and their solutions should be indicated, the results obtained, the scientific novelty of the work, its application importance, economic efficiency, etc. should be given clearly.

References to scientific sources should be given in square brackets in the text (for example, [1] or, [1, p.119]). The list of references given at the end of the article should be numbered according to the order of the cited literature in the text. Scientific articles, monographs and other reliable sources published in the last 10 years should be preferred in the literature list. When giving the bibliographic description of the referenced source, the "Procedure for the preparation of the Dissertation" approved by the decision of the Presidium of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan dated October 29, 2019, and amended by the decision dated May 7, 2021, December 9, 2022 requirements should be taken into account. The title of the article and the author, abstract and keywords (in addition to the language in which the article is written, in two other languages mentioned above) should be given after the "referenced literature list".

The recommendation for publication of the articles included in the editorial board is determined after the anonymous opinion of the editorial board of the magazine and after checking the presence of plagiarism. If the article submitted to the editors is not recommended for publication, information is sent to the author(s).

Two articles by the same author(s) cannot be published in one issue of the journal. Articles that do not meet the above-mentioned requirements will not be published, and manuscripts of published articles will not be returned.

Çapa imzalanıb 02.05.2025. Ofset çap üsulu.
Formatı 60/84 ⅛. Fiziki ç.v. 19. Sifariş 188.

Hərbi Nəşriyyatın mətbəəsində çap olunmuşdur.
Bakı, akad. Ş.Mehdiyev 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

№ 2(10)/2024